# UNITED NATIONS – AZERBAIJAN

## 25 YEARS OF PARTNERSHIP



# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI – AZƏRBAYCAN

## TƏRƏFDAŞLIĞIN 25 İLİ

# UNITED NATIONS - AZERBAIJAN

## 25 YEARS OF PARTNERSHIP

# BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI - AZƏRBAYCAN

## TƏRƏFDAŞLIĞIN 25 İLİ

BAKU 2017
BAKI 2017

# Acknowledgements

This book is the result of dedicated work of many people both within and outside the United Nations System in Azerbaijan. In particular, I would like to recognize the critical support of the United Nations Country Team in Azerbaijan, and the UN Department of Public Information in New York. My special thanks goes to our key partner, the Ministry of Foreign Affairs of the Republic of Azerbaijan for its contribution and working closely with the UN Office in Azerbaijan to coordinate the Government's involvement in the publication of this anniversary book. We could have not finished this project without the support of the State News Agency of the Republic of Azerbaijan (AZERTAC) for providing access to state photo material relating to high-level events and visits within the framework of UN-Azerbaijan partnership. We also appreciate the support and contributions we received from other parts of the Government of Azerbaijan particularly the Cabinet of Ministers as well as former UN Resident Coordinators. Finally, my profound gratitude goes to the project team - Fargan Abaszada, Sarah Ventress, Rashad Huseynov, Ruslan Ismayilzada, Nejla Ayvazi and Rauf Musayev - whose tireless efforts and commitments were inspiration in action.

Ghulam Isaczai, United Nations Resident Coordinator

# Minnətdarlıq

Bu kitab Azərbaycanda Birləşmiş Millətlər Təşkilatı sistemi daxilində, habelə bu sistemdən kənarda fəaliyyət göstərən çoxlu sayda insanın fədakar əməyinin bəhrəsidir. Bununla əlaqədar mən Birləşmiş Millətlər Təşkilatının Azərbaycan Respublikası üzrə İdarə Heyəti və Nyu-Yorkda yerləşən BMT-nin İctimai İnformasiya Departamentinin çox əhəmiyyətli dəstəyini vurğulamaq istərdim. BMT-Azərbaycan əməkdaşlığının 25 illiyinə həsr olunmuş kitabın ərsəyə gəlməsi üçün Azərbaycan Hökumətinin xüsusi iştirakını əlaqələndirmək məqsədilə dəyərli töhfələr verdiyinə və BMT-nin Azərbaycandakı Nümayəndəliyi ilə yaxından əməkdaşlıq etdiyinə görə əsas tərəfdaşımız olan Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinə xüsusi təşəkkürümü bildirirəm. Qeyd etmək lazımdır ki, BMT-Azərbaycan tərəfdaşlığı çərçivəsində həyata keçirilmiş yüksək səviyyəli tədbirlərə və rəsmi səfərlərə dair dövlət arxivinin fotomateriallarından istifadə üçün imkan yaratmış Azərbaycan Dövlət İnformasiya Agentliyi - AZƏRTAC-ın dəstəyi olmadan bu layihəni başa çatdırmaq mümkün olmazdı. Eyni zamanda, biz digər hökumət qurumları, konkret olaraq Azərbaycan Respublikası Nazirlər Kabineti, həmçinin BMT-nin Azərbaycandakı sabiq rezident əlaqələndiriciləri tərəfindən verilmiş dəstəyi və töhfələri də yüksək qiymətləndiririk. Nəhayət, yorulmaq bilmədən işləməklə və öhdəliklərə əməl etməklə bu işə ilham vermiş layihə qrupuna - Fərqan Abaszadə, Sara Ventress, Rəşad Hüseynov, Ruslan Ismayılzadə, Necla Ayvazi və Rauf Musayevə öz dərin minnətdarlığımı bildirmək istərdim.

Qulam İsakzai, Birləşmiş Millətlər Təşkilatının rezident əlaqələndiricisi

# Foreword



The year 2017 marks two major inter-connected anniversaries: the 25th anniversary of Azerbaijan's membership of the United Nations (UN) and the 25th anniversary of the UN's formal presence in Azerbaijan.

In order to mark these important milestones in our relationship, I am very pleased to introduce this commemorative book which celebrates both Azerbaijan's involvement in regional and global UN affairs and the work of the UN System organisations in Azerbaijan since 1992.

These anniversaries provide an opportunity to look back at all that has been achieved to date as a result of the partnership between the United Nations and Azerbaijan. During this time, Azerbaijan has made remarkable progress since its independence in terms of economic growth and human development. These achievements are particularly impressive when one remembers that Azerbaijan, as a young state, faced extreme difficulties brought on by the military conflict in the early 1990s. At that time, acceding to membership in the United Nations, a global instrument for peace, security and human progress, was critical in securing and strengthening Azerbaijan's nascent statehood.

Since joining the United Nations, Azerbaijan has contributed to our collective commitment to peace and development, and continues to engage in a comprehensive and wide-reaching agenda under the principles and objectives set forth in the Charter of the United Nations. This was recognised at the global level when Azerbaijan was elected as a non-permanent member of the United Nations Security Council for a two year term (2012-2013) by 155 member states. Furthermore, with a rich tradition of multiculturalism and religious tolerance, Azerbaijan has assumed a role of encouraging intercultural dialogue and improved understanding between different nations and peoples through the hosting of a number of high-level events in recent years.

In addition to celebrating Azerbaijan's role in the international arena, the photographs in this publication trace the role of the United Nations within the country. From our humble beginnings as providers of humanitarian assistance to refugees and internally displaced persons in 1992, we have proceeded to providing support through capacity building of state institutions during the second decade of our presence, to our current status as a provider of advisory and technical assistance to the Government of Azerbaijan in formulating and meeting its national development priorities, in line with the 17 globally agreed Sustainable Development Goals. While we have tried to capture a lot of our activities in this commemorative book, these illustrations only represent a small part of what we as United Nation Agencies, Funds and Programmes are doing in our efforts to create better lives for the people of Azerbaijan, as well as how Azerbaijan contributes to world affairs through its active membership in the United Nations.

We hope that you enjoy this special retrospective of the people, milestones, key projects and activities conducted throughout the last 25 years of partnership. This is an opportunity not just to reflect on all that has been achieved since 1992, but also a chance to consider how the continued partnership between the United Nations and Azerbaijan can contribute to a better world for all in the future.

Ghulam Isaczai
United Nations Resident Coordinator

# Ön söz

2017-ci il bir biri ilə bağlı olan iki vacib ildönümün, Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv olmasının 25 illiyinin, habelə BMT-nin Azərbaycan Respublikasında fəaliyyətinin 25 illiyinin qeyd edilməsi ilə əlamətdardır.

Bu iki vacib tarixi qeyd etmək məqsədilə 1992-ci ildən etibarən BMT-nin regional və qlobal işlərində Azərbaycan Respublikasının iştirakını və Birləşmiş Millətlər Sisteminə daxil olan təşkilatların Azərbaycan Respublikasındakı fəaliyyətini təsvir edən bu xatirə kitabını təqdim etməkdən çox məmnunam.

Sözügedən iki tarix BMT ilə Azərbaycan Respublikası arasındakı tərəfdaşlıq nəticəsində bu günədək əldə olunmuş nailiyyətləri nəzərdən keçirmək imkanı yaradır. Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən sonra bu müddət ərzində iqtisadi artım və insan inkişafı nöqteyi-nəzərindən diqqətəlayiq irəliləyişlərə nail olmuşdur. 1990-cı illərin əvvələrində baş vermiş fəal hərbi əməliyyatlar nəticəsində gənc dövlət olan Azərbaycan Respublikasının üzləşdiyi hədsiz çətinlikləri nəzərə aldıqda bu nailiyyətlər xüsusi dərəcədə təsirli hesab olunmalıdır. Həmin dövrdə Azərbaycan Respublikasının sülh, təhlükəsizlik və insan inkişafı üçün qlobal mexanizm hesab edilən BMT-yə üzv olması formalaşan dövlətçiliyin təmin olunması və gücləndirilməsi üçün çox əhəmiyyətli idi.

BMT-yə üzv olduqdan sonra Azərbaycan Respublikası bu təşkilatın sülh və inkişafla bağlı kollektiv öhdəliklərinə töhfələr verməklə yanaşı müfəssəl və geniş miqyaslı proqramlarında iştirakını təşkilatın Nizamnaməsində nəzərdə tutulmuş prinsiplərə və məqsədlərə uyğun davam etdirməkdədir. Bütün bunlar 155 dövlət tərəfindən Azərbaycan Respublikasının iki il müddətinə (2012-2013-cü illər ərzində) BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi ilə təsdiqlənmişdir. Bununla yanaşı, zəngin multikulturalizm və dini tolerantlıq ənənələrinə malik olan Azərbaycan Respublikası son illər ərzində bir sıra yüksək səviyyəli tədbirlərə ev sahibliyi etməklə müxtəlif ölkələr və xalqlar arasında mədəniyyətlərarası dialoq və təkmilləşmiş qarşılıqlı anlaşma üçün şəraitin yaradılması vəzifəsini öz üzərinə götürmüşdür.

Bu nəşrdə təqdim olunmuş fotolar Azərbaycan Respublikasının beynəlxalq səhnədəki rolunu nümayiş etdirməklə yanaşı BMT-nin bu ölkədəki rolunu izləmək imkanı yaradır. 1992-ci ildə öz işimizi qaçqınlar və məcburi köçkünlərə humanitar yardımın göstərilməsi ilə başlayaraq, fəaliyyətimizin ikinci onilliyində dövlət qurumlarının potensialının artırılması işinə dəstək verməklə davam etdirmişdik və hazırda qlobal səviyyədə razılaşdırılmış 17 Dayanıqlı İnkişaf Məqsədlərinə uyğun olaraq, milli inkişaf prioritetlərinin formalaşdırılması və təmin edilməsi istiqamətində Azərbaycan Respublikası Hökumətinə tövsiyyələr veririk və texniki yardım göstəririk. Biz bu xatirə kitabında çoxsaylı işlərimizi əhatə etməyə çalışsaq da, buradakı fotolar Azərbaycan Respublikasında insanların həyatını yaxşılaşdırmaq üçün BMT-nin agentlikləri, fondları və proqramları tərəfindən həyata keçirilən işlərin, habelə BMT-nin fəal üzvü olan Azərbaycan Respublikası tərfindən dünya miqyaslı işlərə verilən müxtəlif töhfələrin çox cüzi bir hissəsini özündə əks etdirir.

Biz tərəfdaşlığımızın 25 ili ərzində həyata keçirilmiş əsas layihələrin və fəaliyyətlərin, habelə əlaqədar insanların və əlamətdar tarixlərin xüsusi retrospektiv nümayişindən zövq alacağınıza ümid edirik. Bu 1992-ci ildən etibarən əldə olunmuş bütün nailiyyətləri sadəcə olaraq xatırlamaq imkanı ilə yanaşı BMT və Azərbaycan Respublikası arasında davamlı tərəfdaşlıq nəticəsində hamı üçün daha yaxşı gələcək həyat naminə töhfələr vermək imkanının nəzərdən keçirilməsi üçün əlverişli bir fürsətdir.

Qulam İsakzai,
Birləşmiş Millətlər Təşkilatının
rezident əlaqələndiricisi

# Foreword




I am delighted to write a preface to the book dedicated to the 25 years of anniversary of the partnership between the Republic of Azerbaijan and the United Nations (UN), the universal organization which we highly value in Azerbaijan.

The present book sheds light to the history of 25 years of partnership between the UN and Azerbaijan outlining major activities, milestones and contributions made by both sides to each other's development.

The ideals of the UN are widely supported and shared by the people and Government of Azerbaijan. Personally, I feel proud that I came to work closely with and at the UN throughout my career.

Shortly after restoring its independence, Azerbaijan was admitted to the United Nations on March 2, 1992. Membership to the UN allowed Azerbaijan to re-integrate into the world community as an independent State. Since then, the Republic of Azerbaijan has consistently demonstrated a strong commitment to the Charter of the UN and working with the UN has been one of the major foreign policy objectives of the country.

The visit of His Excellency, Mr. Heydar Aliyev, the national leader and the former President of the Republic of Azerbaijan to the UN in September, 1994 established the basis for the substantive cooperation between the UN and Azerbaijan and opening of its office in Baku.

Over the past period, the Republic of Azerbaijan has transformed into an economically and politically dynamic modern State, has proved itself as a reliable partner and consolidated its role at the regional and international levels.

We highly appreciate the support of the UN, and all its institutions, particularly UNHCR assistance in the active military phase of Armenia-Azerbaijan Nagorno-Karabakh conflict in 1992-1993 to the refugees and IDP's of Azerbaijan, and especially the UN country team in Azerbaijan during all these years. We look forward to the continued presence in and support to Azerbaijan by the UN system, particularly UNDP in assisting to keep momentum success from the realization of the Millennium Development Goals to that of the Sustainable Development Goals.

Recognizing the central role of the UN in maintaining international peace and security, promoting sustainable development and advocating fundamental freedoms for the people of the world, my country makes concrete contributions to the activities of the UN.

Azerbaijan has contributed with its military personnel to the UN-mandated peacekeeping operations in various parts of the world to advance the efforts for maintenance of international peace and security. During its non-permanent membership at the United Nations Security Council (UNSC) in 2012-2013, Azerbaijan has defended the imperativeness of international law and took an active participation in the activities of the Council.

The Government of Azerbaijan attaches utmost importance to the cooperation between the UN and Azerbaijan. Chairing of the meeting of the UNSC in May, 2012 by His Excellency, Mr. Ilham Aliyev, the President of the Republic of Azerbaijan, the establishment of the National Coordination Council on Sustainable Development with the Executive Order of the President and regular donations to the UN's various programs are among the examples that speak for high level support for the UN in Azerbaijan.

I would like to conclude by reiterating our firm belief in the value and importance of the UN Charter and that it will continue to guide the international community in the decades ahead.

Elmar Mammadyarov
Minister of Foreign Affairs
of the Republic of Azerbaijan

# Ön söz

Mən Azərbaycan Respublikası ilə ölkəmizdə yüksək dəyər verilən ümumbəşəri təşkilat olan BMT arasında tərəfdaşlığın 25 illiyinə həsr edilən kitaba müqəddimə yazmaqdan çox şadam.

BMT və Azərbaycan arasında tərəfdaşlığın 25 illik tarixinə işıq salan bu kitab əsas fəaliyyəti, mərhələləri və hər iki tərəfin bir-birinin inkişafına verdiyi töhfələri əks etdirir.

BMT ideyaları Azərbaycan xalqı və hökuməti tərəfindən geniş şəkildə dəstəklənir və paylaşılır. Şəxsən mən qürur duyuram ki, karyeram boyunca BMT ilə sıx şəkildə və Azərbaycanın təşkilatdakı nümayəndəliyində işləmişəm.

Öz müstəqilliyini bərpa etdikdən az sonra Azərbaycan 2 mart 1992-ci ildə BMT-yə üzv qəbul olundu. BMT-yə üzvlük müstəqil dövlət kimi Azərbaycana dünya birliyinə yenidən inteqrasiya imkanı vermişdir. O vaxtdan etibarən Azərbaycan Respublikası ardıcıl şəkildə BMT Nizamnaməsinə qəti sadiqlik nümayiş etdirib və təşkilatla iş ölkənin xarici siyasətinin əsas məqsədlərindən biri olmuşdur.

Ümumilli Lider və Azərbaycan Respublikasının sabiq Prezidenti Zati-aliləri Heydər Əliyevin 1994-cü ilin sentyabr ayında BMT-yə səfəri BMT və Azərbaycan arasında substantiv əməkdaşlığın təməlini qoymuşdur və təşkilat öz ofisini Bakıda açmışdır.

Bu müddət ərzində Azərbaycan Respublikası iqtisadi və siyasi cəhətdən dinamik, müasir dövlətə çevrilmiş, etibarlı tərəfdaş kimi özünü sübut etmiş, həmçinin, regional və beynəlxalq səviyyədə öz rolunu möhkəmləndirmişdir.

Biz BMT-nin dəstəyini və onun bütün təsisatlarının, xüsusən də 1992-1993-cü illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin fəal hərbi əməliyyatlar mərhələsində Qaçqınlar üzrə Ali komissarlığın Azərbaycanlı qaçqın və məcburi köçkünlərə yardımını, ələlxüsus BMT-nin Azərbaycandakı ofisinin əməkdaşlarının bu illər ərzindəki fəaliyyətini yüksək qiymətləndiririk. Həmçinin, BMT-nin Azərbaycanda mövcudluğunu və BMT sisteminin Azərbaycana dəstəyini davam etdirməsini, xüsusilə BMT-nin İnkişaf Proqramının Minilliyin İnkişaf Məqsədlərinin həyata keçirilməsindən əldə olunan müvəffəqiyyətlərin Davamlı İnkişaf Məqsədlərinin reallaşdırılmasına tətbiq olunmasında yardımını gözləyirik.

Beynəlxalq sülh və təhlükəsizliyin qorunub saxlanılması, davamlı inkişafın təşviq edilməsi və insanların fundamental azadlıqlarının müdafiəsində BMT-nin əsas rol oynadığını tanıyaraq, mənim ölkəm BMT-nin fəaliyyətinə konkret töhfələr vermişdir.

Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin qorunması məqsədilə səyləri artırmaq üçün öz hərbi kontingenti ilə BMT mandatı altında dünyanın müxtəlif bölgələrində sülhyaratma əməliyyatlarına töhfələr vermişdir. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyü dövründə Azərbaycan beynəlxalq hüququn imperativliyini müdafiə etmiş və Şuranın işində fəal olmuşdur.

Azərbaycan hökuməti BMT və Azərbaycan arasında əməkdaşlığa son dərəcə əhəmiyyət verir. 2012-ci ilin may ayında Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin sədrliyi ilə keçirilən BMT TŞ-nin iclası, Davamlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasına dair Prezidentin Sərəncamı, BMT-nin müxtəlif proqramlarına müntəzəm ianələr Azərbaycanda BMT-nin fəaliyyəti üçün yüksək səviyyəli dəstəkdən xəbər verir.

Mən, qarşıdakı onilliklərdə beynəlxalq cəmiyyətə bələdçilik etməyə davam edəcək BMT Nizamnaməsinin dəyər və əhəmiyyətinə möhkəm inamımızı bir daha təkrarlamaq istərdim.

**Elmar Məmmədyarov,**
**Azərbaycan Respublikasının xarici işlər naziri**



**Heydar Aliyev, President of the Republic of Azerbaijan, addresses the 49th session of the UN** General Assembly (GA) in September 1994. This was the first time that an Azerbaijani Head of **State had spoken at the UN Headquarters.**
*UN Photo/September 1994*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş Assambleyasının 49-cu sessiyasında çıxış edir. Bu, Azərbaycanın dövlət başçısının BMT-nin mənzil qərargahında ilk çıxışı idi. 29 sentyabr 1994-cü il. Birləşmiş Millətlər Təşkilatı, Nyu-York şəhəri.
*BMT-nin fotosu/Sentyabr 1994-cü il*

"The accession of the young Azerbaijani State to the United Nations as a full member marked the most important stage in the development of our country. The Republic of Azerbaijan is seeking full-fledged integration into the world economy and has the full capacity to do so; for that reason, the core of its policy is the aspiration for peace and we pin great hopes on the United Nations in assisting us to achieve peace."

*Heydar Aliyev*
*President of the Republic of Azerbaijan*

"Gənc Azərbaycan dövlətinin Birləşmiş Millətlər Təşkilatının tam hüquqlu üzvlüyünə qəbul edilməsi ölkəmizin inkişafında ən vacib mərhələ idi. Azərbaycan Respublikası dünya iqtisadiyyatına hərtərəfli inteqrasiya etməyə çalışır və bunun üçün tam potensiala malikdir; bu səbəbə görə siyasətimizin özəyini sülh meylləri təşkil edir və biz sülhə nail olmaq üçün Birləşmiş Millətlər Təşkilatının köməklik göstərəcəyinə böyük ümidlər edirik."

*Heydər Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*



# 25 YEARS OF ACTIVE ENGAGEMENT

# FƏAL İŞTİRAKIN 25 İLİ

Cooperation between the United Nations (UN) and the Republic of Azerbaijan began in 1992 with Azerbaijan's admission as a Member State of the UN. As a young and newly independent state in a rapidly changing world, Azerbaijan was keen to gain international recognition of its independence as well as to receive external assistance to build state institutions and capacities. Soon after Azerbaijan's declaration of independence and the collapse of the Soviet Union in 1991, the UN General Assembly adopted resolution 46/230 at the 82nd plenary meeting of its 46th session in New York on 2 March 1992, during which Azerbaijan and eight other former Soviet republics were admitted. On 6 May 1992, Azerbaijan opened its Permanent Mission to the United Nations in New York.

Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatı (BMT) arasında əməkdaşlıq 1992-ci ildə, bu ölkə BMT-yə üzv dövlət kimi qəbul edildikdən sonra başlamışdır. Sürətlə dəyişən dünyada gənc və yeni müstəqil dövlət kimi Azərbaycan Respublikası öz müstəqilliyinin beynəlxalq səviyyədə tanınmasında, habelə dövlət təsisatlarının və potensialların yaradılması üçün xaricdən dəstək almaqda istəkli idi. 1991-ci ildə Azərbaycan Respublikası öz dövlət müstəqilliyini elan etdikdən və Sovetlər İttifaqı süquta uğradıqdan sonra, 1992-ci il martın 2-də Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 46-cı sessiyasının 82-ci plenar iclasında 46/230 saylı Qətnamə qəbul olunub və səkkiz keçmiş Sovet respublikası ilə birlikdə Azərbaycan Respublikası da Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilmişdir. 1992-ci il mayın 6-da isə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərindəki mənzil qərargahında öz daimi nümayəndəliyini açmışdır.





Flags of nine new members of the UN, including Azerbaijan, are raised at a ceremony at the UN Headquarters in New York.
*UN Photo/March 1992/ Eskinder Debebe*

Azərbaycan Respublikası da daxil olmaqla, Birləşmiş Millətlər Təşkilatının doqquz yeni üzv ölkəsinin dövlət bayraqlarının Nyu-York şəhərində, BMT-nin mənzil qərargahı qarşısında qaldırılması mərasimi.
*BMT-nin fotosu/Mart 1992-ci il/ Eskinder Debebe*





Ambassador Hasan Hasanov, the first Permanent Representative of Azerbaijan to the United Nations, presents his credentials to Secretary-General Boutros Boutros-Ghali in New York.
*UN Photo/May 1992/M. Grant*

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatındakı ilk daimi nümayəndəsi, səfir Həsən Həsənov etimadnaməsini BMT-nin Baş katibi Butros Butros-Qaliyə Nyu-York şəhərində təqdim edir.
*BMT-nin fotosu/May 1992-ci il/M. Qrant*

◄ The UN General Assembly admits the Republic of Azerbaijan as a member of the United Nations.
*UN Photo/March 1992*

BMT-nin Baş Assambleyasında Azərbaycan Respulikası Birləşmiş Millətlər Təşkilatına üzv qəbul edilir.
*BMT-nin fotosu/Mart 1992-ci il*



The UN Security Council unanimously votes to adopt resolution 853.
*UN Photo/July 1993/Milton Grant.*

BMT Təhlükəsizlik Şurası 853 saylı Qətnamənin qəbul edilməsi üçün yekdilliklə səs verir.
*BMT-nin fotosu/İyul 1993-cü il/Milton Qrant*



The early years of Azerbaijan's membership of the United Nations coincided with the escalation of the conflict in and around the Nagorno-Karabakh region of Azerbaijan. In 1993, the UN Security Council unanimously adopted four resolutions (822, 853, 874, and 884) expressing concern at the continuing conflict in and around the Nagorno-Karabakh region of Azerbaijan, reaffirming the territorial integrity and sovereignty of Azerbaijan, demanding the suspension of hostilities, and immediate, unconditional and full withdrawal of occupying forces from all seized territories of Azerbaijan. Due to concerns regarding the deteriorating humanitarian situation in Azerbaijan, the UN General Assembly at its 85th plenary session adopted the resolution (A/RES/48/114) "On the international emergency aid to the refugees and IDPs of Azerbaijan" in 1993.

Azərbaycan Birləşmiş Millətlər Təşkilatına üzv olduğu ilk illər Azərbaycanın Dağlıq Qarabağ regionunda və ətraf ərazilərində münaqişənin kəskinləşməsi dövrünə təsadüf etmişdir. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və ətraf ərazilərində münaqişənin davam etməsi ilə əlaqədar narahatlıq ifadə edən, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini bir daha təsdiq edən, hərbi əməliyyatlara son qoymağı və bütün işğalçı qüvvələrin Azərbaycan Respublikası ərazilərindən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən dörd qətnaməni (822, 853, 874 və 884 saylı Qətnamələri) yekdilliklə qəbul etmişdir. Azərbaycanda humanitar böhranın ağırlaşması ilə əlaqədar artan narahatlıqlar səbəbindən 1993-cü ildə BMT Baş Assambleyasının 85-ci plenar sessiyasında "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım" (A/RES/48/114) Qətnaməsi qəbul olunmuşdur.




The UN General Assembly adopts resolution 62/243.
*UN Photo/March 2008/Jenny Rockett*

BMT-nin Baş Assambleyasında 62/243 saylı Qətnaməni qəbul olunur.
*BMT-nin fotosu/Mart 2008-ci il/Ceni Roket*




Throughout the conflict in and around the Nagorno-Karabakh region of Azerbaijan, the United Nations, including the Secretary-General, has been fully supporting the important ongoing efforts of the OSCE's Minsk Group to reduce tensions and to achieve a peaceful and lasting negotiated settlement of the conflict. In 2008, another resolution was adopted by the UN General Assembly (A/RES/62/243), reaffirming support for Azerbaijan's territorial integrity within its internationally recognized borders and calling upon Member States to "effectively contribute, within their competence, to the process of settlement of the conflict".

Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf ərazilərində münaqişə boyu Birləşmiş Millətlər Təşkilatı, o cümlədən Baş katib gərginliyin azaldılması və münaqişənin sülh və danışıqlar yolu ilə davamlı həlli istiqamətində ATƏT-in Minsk Qrupu tərəfindən göstərilən əhəmiyyətli səyləri hərtərəfli dəstəkləyiblər. 2008-ci ildə BMT Baş Assambleyası Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstəyi bir daha təsdiq edən və üzv dövlətləri "münaqişənin həlli prosesində öz səlahiyyətləri çərçivəsində səmərəli iştirak etməyə" çağıran yeni, 62/243 saylı Qətnamə qəbul etmişdir.

In 1994, President Heydar Aliyev was the first Azerbaijani Head of State to visit the UN Headquarters. During his visit he addressed the 49th session of the United Nations General Assembly high-level debate and met with the UN Secretary-General.

1994-cü ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Birləşmiş Millətlər Təşkilatının mənzil qərargahına səfər etmiş Azərbaycanın ilk dövlət başçısı idi. Səfər zamanı o, BMT Baş Assambleyasının 49-cu sessiyasında, yüksək səviyyəli debatlarda çıxış etmiş və BMT-nin Baş katibi ilə görüşmüşdür.



Secretary-General Boutros Boutros-Ghali meets with President Heydar Aliyev on the sidelines of the 49th session of the UN General Assembly in New York.
*UN Photo/Schneider/September 1994*

Nyu-York şəhərində, BMT Baş Assambleyasının 49-cu sessiyasında iclaslararası fasilə zamanı BMT-nin Baş katibi Butros Butros-Qali Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşür.
*BMT-nin fotosu/Sentyabr 1994-cü il/Evan Şneyder*

The year 1994 was also marked by the first visit of the UN Secretary-General to Azerbaijan. The three-day visit included official meetings with the country's leadership and an address to the Milli Majlis (national parliament), where the Secretary-General underlined that he looked forward "to ever-closer relations between Azerbaijan and the United Nations". He also met with refugees and internally displaced persons (IDPs) and was presented with an honorary doctoral degree from Baku State University. This historic visit led to increased assistance of UN agencies in addressing the country's humanitarian and development needs and played a major role in strengthening cooperation between Azerbaijan and the UN in all spheres.

1994-cü il Birləşmiş Millətlər Təşkilatı Baş katibinin Azərbaycan Respublikasına ilk səfəri ilə də əlamətdar idi. Üçgünlük səfər zamanı ölkə rəhbərliyi ilə rəsmi görüşlər keçirən Baş katib Milli Məclisdə çıxış edərək "Azərbaycanla Birləşmiş Millətlər Təşkilatı arasında daha sıx əlaqələrin qurulmasına" ümidvar olduğunu vurğulamışdır. Baş katib həmçinin qaçqınlarla və məcburi köçkünlərlə görüşmüşdür, habelə Bakı Dövlət Universitetində fəxri doktor adına layiq görülmüşdür. Həmin tarixi səfər Azərbaycan Respublikası ilə Birləşmiş Millətlər Təşkilatı arasında əməkdaşlığın güclənməsində böyük rol oynayaraq ölkənin humanitar və inkişaf sahəsindəki ehtiyacların ödənilməsi üçün BMT agentlikləri tərəfindən göstərilən yardımın artmasına şərait yaratmışdır.



"In 1994, President Heydar Aliyev invited Dr. Boutros-Ghali to visit Baku. I discussed the details with President Aliyev personally who gave strict instructions to do everything possible for its success. The Secretary-General was received by President Aliyev at the airport. The visit, which lasted 3 days, was very successful. Dr. Ghali made statements both in the Parliament and in a press conference in Baku, reiterating the UN's position that Karabakh was an integral part of Azerbaijan. The tour of the Secretary-General was a big plus for Azerbaijan."

*Mahmoud El-Said, UN Representative in Azerbaijan (1992-1995)*

"1994-cü ildə Prezident Heydər Əliyev cənab Butros-Qalini Bakıya rəsmi səfərə dəvət etmişdir. Mən bununla bağlı təfərrüatları Prezident Əliyevlə şəxsən müzakirə etdim və o, səfərin uğurla keçməsi üçün lazımi göstərişlər verdi. Baş katib hava limanında Prezident Əliyev tərəfindən qəbul edildi. 3 gün davam edən səfər çox uğurlu keçdi. Cənab Qali həm ölkə Parlamentində, həm də Bakı şəhərində keçirilmiş mətbuat konfransında bəyanatla çıxış edərək Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olması barədə BMT mövqeyini bir daha təkrarladı. Baş katibin səfəri Azərbaycan üçün böyük uğur idi."

*Mahmud Əl-Səid, BMT-nin Azərbaycan Respublikasındakı nümayəndəsi (1992-1995-ci illərdə)*



Secretary-General Boutros Boutros-Ghali addresses the Milli Majlis in Baku.
*Press Service of the President of the Republic of Azerbaijan/October 1994*

BMT-nin Baş katibi Butros Butros-Qali Azərbaycan Respublikası Milli Məclisində çıxış edir.
*Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidmətinin fotoarxivindən/ Oktyabr 1994-cü il*



President Heydar Aliyev and Secretary-General Boutros Boutros-Ghali stand in front of the Government House in Baku.
*AZERTAC/October 1994*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və BMT-nin Baş katibi Butros Butros-Qali Bakı şəhərində, Hökumət Evinin qarşısında.
*AZƏRTAC-ın fotosu/Oktyabr 1994-cü il*

◄ "Today, in the aftermath of the cold war, Azerbaijan is once again exposed to the cold winds of geopolitical change. You have regained your statehood. But you are striving to perfect your national sovereignty and independence. I want you to know that the United Nations is your instrument and your friend."

"Bu gün soyuq müharibənin sona çatdığı bir vaxtda Azərbaycan geosiyasi dəyişikliklərin soyuq küləklərinə bir daha məruz qalmaqdadır. Siz öz dövlət müstəqilliyinizi artıq bərpa etmisiniz. Bununla belə, siz öz milli suverenliyinizi və müstəqilliyinizi təkmilləşdirməyə çalışırsınız. Mən istərdim ki, siz biləsiniz - Birləşmiş Millətlər Təşkilatı sizin vasitəçiniz və dostunuzdur."



President Ilham Aliyev meets with Secretary-General Kofi Annan at the UN Headquarters.
*UN Photo/September 2004/Ky Chung*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Kofi Annanla bu təşkilatın mənzil qərargahında görüşür.
*BMT-nin fotosu/Sentyabr 2004-cü il/Ki Çunq*

Since becoming President of the Republic of Azerbaijan in 2003, Ilham Aliyev has continued to demonstrate Azerbaijan's **commitment to its partnership with the UN.**

2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra İlham Əliyev Birləşmiş Millətlər Təşkilatı ilə tərəfdaşlıq məsələlərində Azərbaycanın öz üzərinə götürdüyü öhdəliklərə sadiq qaldığını daima nümayiş etdirir.



President Ilham Aliyev meets with Secretary-General Ban Ki-moon in New York.
*AZERTAC/May 2012*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Ban Ki-munla Nyu-York şəhərində görüşür.
*AZƏRTAC-ın fotosu/May 2012-ci il*



President Ilham Aliyev meets with the UN Secretary-General Antonio Guterres in Munich, Germany.
*AZERTAC/February 2017*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Baş katibi Antonio Quterreşlə Almaniyada, Münxen şəhərində görüşür.
*AZƏRTAC-ın fotosu/Fevral 2017-ci il*

The elated Elmar Mammadyarov, Minister of Foreign Affairs of the Republic of Azerbaijan, inside the General Assembly Hall, shortly after receiving the news of Azerbaijan's election to the Security Council.
*UN Photo/ October 2011/Paulo Filgueiras*

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi barədə xəbəri Baş Assambleyanın iclas zalında aldıqdan dərhal sonra Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov öz sevincini bölüşür.
*BMT-nin fotosu/Oktyabr 2011-ci il/Paulo Filqueyras*

One of Azerbaijan's most significant accomplishments since independence has been its election as a non-permanent member of the UN Security Council for the term of 2012-2013. The election of such a young country by a majority vote of 155 Member States clearly indicated international recognition of the country's growing role in world affairs and its contribution to global peace and security.

Öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikasının ən önəmli nailiyyətlərindən biri Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün qeyri-daimi üzvü seçilməsindən ibarət idi. Belə bir gənc ölkənin BMT-nin 155 üzv dövlət tərəfindən səs çoxluğu ilə seçilməsi onun dünyada baş verən proseslərdə artan rolunun, habelə qlobal sülhə və təhlükəsizliyə verdiyi töhfələrinin beynəlxalq səviyyədə tanınmasının birmənalı şəkildə göstəricisidir.






President Ilham Aliyev chairs a meeting of the Security Council where Secretary-General Ban Ki-moon addresses the Council session on strengthening international cooperation in the implementation of counter-terrorism obligations.
*UN Photo/May 2012/Devra Berkowitz*

BMT-nin Baş katibi Ban Ki-munun terrorçuluğa qarşı öhdəliklərin yerinə yetirilməsi sahəsində beynəlxlaq əməkdaşlığın gücləndirilməsi məsələlərinə dair çıxış etdiyi Təhlükəsizlik Şurasının iclasına Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sədrlik edir.
*BMT-nin fotosu/May 2012-ci il/Devra Berkovits*




Foreign Minister Elmar Mammadyarov, alongside Hillary Clinton, then Secretary of State of the United States, and William Hague, then Foreign Secretary of the United Kingdom, at a meeting of the Security Council to discuss Peace and Security in the Middle East.
*UN Photo/September 2012/Jennifer S. Altman*

Yaxın Şərqdə sülh və təhlükəsizlik məsələlərini müzakirə etmək üçün Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov, həmçinin ABŞ-ın o vaxtkı Dövlət katibi Hillari Klinton və Böyük Britaniyanın o vaxtkı Xarici İşlər naziri Uilyam Heyq BMT Təhlükəsizlik Şurasının iclasında iştirak edirlər.
*BMT-nin fotosu/Sentyabr 2012-ci il/Cenifer S. Altman*



The delegation of the Republic of Azerbaijan, headed by President Ilham Aliyev, then Prime Minister of the Republic of Azerbaijan, at the 58th session of the General Assembly.
*Photo/September 2003/Evan Schneider*

Azərbaycan Respublikasının o vaxtkı Baş naziri İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirak edir.
*BMT-nin fotosu/Sentyabr 2003-cü il/Evan Şneyder*




Azerbaijan has also taken an active part in the work of the UN General Assembly and has positively contributed to the activities of UN agencies and programmes through its presence in various UN elected bodies and at a number of international summits and forums. Azerbaijan was elected as a member of the UNICEF Executive Board (1995-1997 and 1998-2000), the Commission on the Status of Women (2000-2002), the Committee on Sustainable Development (2002-2004), the UN Human Rights Council (2006-2009) and the UN Economic and Social Council (2003-2005 and 2017–2019). Most recently, Azerbaijan became a member of the ILO Governing Body for the period of 2017-2020. Azerbaijan has also been a sponsor or co-sponsor of a number of resolutions adopted by UN bodies, for instance, the Commission on the Status of Women's annual resolution "Release of women and children taken hostage, including those subsequently imprisoned, in armed conflicts". In 2002, Azerbaijan initiated a resolution on "missing persons" at the Commission on Human Rights (now known as the Human Rights Council).

Eyni zamanda, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının işində fəal iştirak edir və bu təşkilatın müxtəlif orqanlarına seçilməklə, həmçinin bir sıra beynəlxalq zirvə toplantılarında və forumlarında iştirak etməklə BMT agentliklərinin və proqramlarının fəaliyyətinə dəyərli töhfələr verir. Azərbaycan Respublikası UNİCEF-in İcraiyyə Şurasına (1995-1997 və 1998-2000-ci illər üçün), Qadınların Statusu üzrə Komissiyaya (2000-2002-ci illər üçün), Dayanıqlı İnkişaf üzrə Komitəyə (2002-2004-cü illər üçün), Birləşmiş Millətlər Təşkilatı İnsan Hüquqları Şurasına (2006-2009-cu illər üçün) və Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasına (2003-2005 və 2017-2019-cu illər üçün) üzv seçilmişdir. Yaxınlarda Azərbaycan Respublikası BƏT-in İnzibati Şurasına da 2017-2020-ci illər üçün üzv seçilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının orqanları tərəfindən qəbul olunmuş bir sıra qətnamələrin müəllifi və ya həmmüəllifi kimi çıxış etmişdir, məsələn, Qadınların Statusu üzrə Komissiyasının "Girov götürülmüş, o cümlədən, hərbi münaqişələr zamanı azadlıqdan məhrum edilmiş qadınların və uşaqların azad edilməsi haqqında" illik Qətnaməsinin, 2002-ci ildə isə Azərbaycan Respublikası "İtkin düşmüş şəxslərə dair" Qətnamənin İnsan Hüquqları Komissiyası (hazırkı İnsan Hüquqları Şurası) tərəfindən qəbul edilməsi təşəbbüsünü irəli sürmüşdür.



President Ilham Aliyev addresses the general debate of the 65th session of the General Assembly.
*UN Photo/September 2010/ Rick Bajornas*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Baş Assambleyanın 65-ci sessiyasında ümumi müzakirələr zamanı çıxış edir.
*BMT-nin fotosu/Sentyabr 2010-cu il/ Rik Baxornas*



UNESCO Director-General Koichiro Matsuura designates the First Lady of Azerbaijan Mehriban Aliyeva as a UNESCO Goodwill Ambassador for Oral and Musical Traditions at the nomination ceremony held at UNESCO Headquarters in Paris, France.
*MFA Azerbaijan/September 2004*

Fransa Respublikasının paytaxtı Paris şəhərində, YUNESKO-nun iqamətgahında keçirilən xüsusi mərasimdə birinci xanım Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru Koiçiro Matsuura tərəfindən YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülür.
*Azərbaycan Respublikası XİN-in fotosu/Sentyabr 2004-cü il*




President Ilham Aliyev meets Director-General of the United Nations Industrial Development Organization (UNIDO) Kandeh Yumkella.
*AZERTAC/May 2013*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Sənaye İnkişafı Təşkilatının (YUNİDO) Baş direktoru Kandeh Yumkella ilə görüşür.
*AZƏRTAC-ın fotosu/May 2013-cü il*



President Ilham Aliyev meets Director-General of the United Nations Office in Vienna Yury Fedotov as part of his official visit to Austria.
*AZERTAC/May 2013*

Avstriyaya rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Millətlər Təşkilatının Vyana Ofisinin Baş direktoru Yuri Fedotovla görüşür.
*AZƏRTAC-ın fotosu/May 2013-cü il*




President Ilham Aliyev meets with Director-General of the Food and Agriculture Organization of the United Nations (FAO), Jose Graziano da Silva in Rome as a part of his official visit to Italy.
*AZERTAC/July 2014*

İtaliya Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Baş direktoru Joze Qratsiano da Silva ilə görüşür.
*AZƏRTAC-ın fotosu/İyul 2014-cü il*




Foreign Minister Elmar Mammadyarov addresses the Leaders' Summit on Peacekeeping in New York, where leaders of more than 50 countries gathered to pledge new commitments and strengthen existing capabilities. Azerbaijan has been contributing to the UN goal of maintaining peace through its active participation in UN-mandated peacekeeping operations in Kosovo, Iraq and Afghanistan for more than 15 years.
*UN Photo/September 2015/Rick Bajornas*

Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov Nyu-York şəhərində keçirilən Sülhün mühafizəsi üzrə Ümumdünya Sammitində çıxış edir. 50-dən çox ölkə rəhbəri sülhün mühafizəsi sahəsində öz üzərinə yeni öhdəliklər götürmək və mövcud potensialları gücləndirmək məqsədilə bu Sammitə toplaşmışdır. Azərbaycan 15 ildən çox müddət ərzində BMT-nin mandatına əsasən Kosovo, İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda fəal iştirak etməklə BMT-nin sülhün qorunması məqsədinə töhfəsini verib.
*BMT-nin fotosu/Sentyabr 2015-ci il/Rik Baxornas*




Participants at the First Global Forum on Youth Policies at the Heydar Aliyev Centre in Baku.
*UNDP Azerbaijan/October 2014.*

Gənclər Siyasətləri üzrə Birinci Qlobal Forumun iştirakçıları Bakı şəhəri Heydər Əliyev Mərkəzində.
*BMTİP-in Azərbaycan Respublikasındakı Nümayəndəliyinin fotosu/Oktyabr 2014-cü il.*



In recent years, Azerbaijan has hosted a number of high-profile events in close cooperation with the UN to demonstrate its commitment to promoting intercultural dialogue and religious tolerance among nations and raising the profile of the country. Azerbaijan hosted the 7th UN Alliance of Civilisations Global Forum in Baku in 2016 and the 4th World Forum on Intercultural Dialogue in 2017 with the theme "Advancing Intercultural Dialogue: New Avenues for Human Security, Peace and Sustainable Development", in cooperation with UNESCO, UNAOC, UNWTO, FAO and the Council of Europe. These were the latest events in a series of conferences organised as part of the "Baku Process" which was initiated in 2008 with the aim of building mutual understanding, respect and tolerance among people and cultures of the world. Baku was also the host of the First Global Forum on Youth Policies, co-convened by the Office of the United Nations Secretary General's Envoy on Youth, UNDP, UNESCO and the Council of Europe in October 2014. Attended by more than 700 delegates from 165 countries, this was the largest conference ever to be held exclusively on youth policies globally.

Mədəniyyətlərarası dialoqun və xalqlar arasında dini tolerantlığın təşviq edilməsi, habelə ölkənin nüfuzunun artırılması öhdəliklərinə sadiq olduğunu nümayiş etdirmək məqsədilə son illər ərzində Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatı ilə yaxından əməkdaşlıq edərək bir sıra yüksək səviyyəli tədbirlərə ev sahibliyi etmişdir. BMT-nin Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumu 2016-cı ildə, həmçinin YUNESKO, BMTSA, BMTÜTT, FAO və Avropa Şurasının əməkdaşlığı ilə "Mədəniyyətlərarası dialoqun inkişafı: İnsan təhlükəsizliyi, sülh və davamlı inkişaf üçün yeni imkanlar" mövzusunda keçirilən 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu 2017-ci ildə Azərbaycan Respublikasında təşkil olunmuşdur. Bu dünya xalqları və mədəniyyətləri arasında qarşılıqlı anlaşmanı, hörməti və tolerantlığı yaratmaq məqsədi ilə 2008-ci ildə irəli sürülmüş "Bakı Prosesi" çərçivəsində təşkil olunan silsilə konfranslardan ən sonuncusu idi. Bununla yanaşı, 2014-cü ilin oktyabr ayında BMT Baş katibinin gənclər üzrə elçisinin Ofisi, BMTİP, YUNESKO və Avropa Şurası tərəfindən birgə təşkil olunmuş Gənclər siyasəti üzrə birinci Qlobal Foruma da Bakı şəhəri ev sahibliyi etmişdir. 165 ölkəni təmsil edən 700 nəfərdən çox nümayəndə bilavasitə gənclər siyasəti məsələlərinə həsr olunmuş ən böyük konfransda iştirak etmək imkanı əldə etmişdir.




President Ilham Aliyev, together with Jose Graziano da Silva, Director-General of Food and Agriculture Organization (FAO), attends the opening ceremony of the 28th FAO European Regional Conference held in Baku.
*AZERTAC/April 2012*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Baş direktoru Joze Qratsiano da Silva FAO-nun Bakı şəhərində keçirilən 28-ci Avropa Regional Konfransının açılış mərasimində iştirak edirlər.
*AZƏRTAC-ın fotosu/Aprel 2012-ci il*




President Ilham Aliyev and the First Lady Mehriban Aliyeva with participants at the opening ceremony of the 7th Global Forum of the United Nations Alliance of Civilizations (UNAOC) in Baku on the theme “Living Together in Inclusive Societies: A Challenge and A Goal”.
*AZERTAC/April 2016*




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı şəhərində "İnkluziv cəmiyyətlərdə birlikdə yaşama: çağırış və məqsəd" mövzusunda keçirilən BMTSA-nın 7-ci Qlobal Forumunun açılış mərasimində iştirakçılarla birgə xatirə fotosu çəkdirirlər.
*AZƏRTAC-ın fotosu/Aprel 2016-cı il*



Abulfas Garayev, Minister of Culture and Tourism of the Republic of Azerbaijan meets Deputy Secretary-General Jan Eliasson in New York to discuss the next World Forum on Intercultural Dialogue.
*UN Photo/June 2016/JC McIlwaine*

Növbəti Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna aid məsələləri müzakirə etmək məqsədilə Azərbaycan Respublikasının Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev BMT-nin Baş katibinin müavini Yan Eliassonla Nyu-York şəhərində görüşür.
*BMT-nin fotosu/İyun 2016-cı il/JC Maklueyn*




President Ilham Aliyev addresses the participants of the opening ceremony of the 4th World Forum on Intercultural Dialogue in Baku.
*AZERTAC/May 2017*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində keçirilən 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində iştirakçılara müraciət edir.
*AZƏRTAC-ın fotosu/May 2017-ci il*



President Ilham Aliyev and First Vice-President Mehriban Aliyeva with participants of the opening ceremony of the 4th World forum on Intercultural Dialogue in Baku.
*AZERTAC/May 2017*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakı şəhərində keçirilən 4-cü Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində digər işitirakçılarla birlikdə.
*AZƏRTAC-ın fotosu/May 2017-ci il*

In a relatively short space of time, Azerbaijan has taken full advantage of the opportunities that the UN offers through its global reach and universal legitimacy, in order to reach out to the rest of the world. Furthermore, through its active participation in the many UN activities and fora, Azerbaijan has been recognised as a respected and valued member of the UN.

Nisbətən qısa bir müddət ərzində Azərbaycan Respublikası dünyaya çıxışı təmin etmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının qlobal şəbəkəsi və ümumbəşəri dəyərləri vasitəsilə yaradılan imkanlardan hərtərəfli faydalanmışdır. Bundan başqa, Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının çoxsaylı tədbirlərində və forumlarında fəal şəkildə iştirak etməklə bu təşkilatın hörmətli və dəyərli üzvü kimi tanınmışdır.



Mehriban Aliyeva receives the Ihsan Dogramaci Family Health Foundation prize from the World Health Organization in Geneva, Switzerland for promoting and supporting child health care in Azerbaijan.
*WHO Azerbaijan/May 2007*

Azərbaycanda uşaq sağlamlığının təşviq edilməsi və dəstəklənməsinə görə Azərbaycanın birinci xanımı Mehriban Əliyeva İsveçrənin Çenevrə şəhərində Ümumdünya Səhiyyə Təşkilatının (İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun) mükafatına layiq görülür.
*ÜST-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/ May 2007-ci il*





Leyla Aliyeva, Vice President of the Heydar Aliyev Foundation and Founder of International Dialogue for Environmental Action (IDEA), is named FAO Goodwill Ambassador in Rome, Italy.
*FAO/September 2015/Alessia Pierdomenico*

Heydər Əliyev Fondunun vitse-prezidenti və "Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq" (IDEA) İctimai Birliyinin təsisçisi Leyla Əliyeva FAO-nun Xoşməramlı Səfiri adına İtaliya Respublikasının paytaxtı Roma şəhərində layiq görülür.
*FAO-nun fotosu/Sentyabr 2015-ci il/Alessia Pyerdomeniko*



Foreign Minister Elmar Mammadyarov, presents Secretary-General Antonio Guterres with a gift from Azerbaijan to mark the 25th anniversary of Azerbaijan's membership of the UN at a reception held in New York.
*AZERTAC/May 2017/ Yusif Babanli*

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzv olmasının 25 illiyi münasibətilə Nyu-York şəhərində keçirilən qəbul zamanı Azərbaycan Respublikasının Xarici İşlər naziri Elmar Məmmədyarov BMT-nin Baş katibi Antonio Quterreşə xatirə hədiyyəsini təqdim edir.
*AZƏRTAC-ın fotosu/May 2017-ci il/Yusif Babanlı*

# MAKING A DIFFERENCE

# MÜSBƏT DƏYİŞİKLİKLƏRƏ DOĞRU

The first United Nations office in Azerbaijan opened in November 1992 in the Respublica Hotel in Baku. This integrated office housed international staff from the UN Secretariat and the UN Development Programme (UNDP) as well as a few national staff. By the end of 1993, it was relocated to the current UN Office, which was generously donated by the Government of Azerbaijan. Shortly after, the UN High Commissioner for Refugees (UNHCR), UN Children's Fund (UNICEF) and the World Food Programme (WFP) opened their offices at the same location.

Within a few years, the UN family expanded to include the UN Department of Humanitarian Affairs (UNDHA, now UNOCHA), UN Population Fund (UNFPA), World Health Organization (WHO), International Labour Organization (ILO), Food and Agriculture Organization (FAO), Office of the High Commissioner for Human Rights (OHCHR), International Fund for Agricultural Development (IFAD) and UN Joint Programme on AIDS (UNAIDS), many of which are still present in Azerbaijan in 2017.

Birləşmiş Millətlər Təşkilatı (BMT) Katibliyinin və Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının (BMTİP) beynəlxalq əməkdaşlarından, habelə bir neçə yerli əməkdaşdan təşkil olunmuş BMT-nin Azərbaycan Respublikasındakı ilk Nümayəndəliyi 1992-ci ilin noyabr ayında Bakı şəhərindəki "Respublika" mehmanxanasında açılmışdı. 1993-cü ilin sonunadək nümayəndəlik Azərbaycan Respublikası Hökuməti tərəfindən təmənnasız BMT-nin ixtiyarına verilmiş binaya köçüblər. Az bir müddət keçdikdən sonra BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMTQAK), BMT-nin Uşaq Fondu (UNICEF) və Ümumdünya Ərzaq Proqramı (ÜƏP) da hazırkı Nümayəndəliyin yerləşdiyi bu binada öz ofislərini açıblar.

Bir neçə il ərzində BMT-nin Azərbaycandakı ailəsi BMT-nin Humanitar İşlərin Əlaqələndirilməsi Departamenti (UNDHA, hazırkı OCHA), BMT-nin Əhali Fondu (UNFPA), Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Beynəlxalq Əmək Təşkilatı (BƏT), BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), İnsan Hüquqları üzrə Ali Komissarlıq (OHCHR), Kənd Təsərrüfatı İnkişafı üzrə Beynəlxalq Fond (IFAD) və BMT-nin HİV/AİDS üzrə Birgə Proqramı (UNAIDS) hesabına daha da böyümüşdür. Sözügedən təşkilatların çoxu 2017-ci ildə də Azərbaycanda fəaliyyət göstərir.

The present UN Office in Baku as it was in 1993.
*UNO Azerbaijan Photo/1993/H. Babayev*

1993-cü ildə Bakı şəhərində açılmış və hal-hazırda fəaliyyət göstərən BMT Nümayəndəliyi.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/1993-cü il/H. Babayev*






Staff of the UN Secretariat, UNDP, UNICEF, WFP, and UNDHA in front of the UN Office in Baku.
*UNO Azerbaijan Photo/1995/H. Babayev*

BMT Katibliyi, BMTİP, UNICEF, ÜƏP və UNDHA əməkdaşları Bakı şəhərində yerləşən BMT Nümayəndəliyi qarşısında.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/1995-ci il/H. Babayev*



"In August 1992, while on duty in Afghanistan, I was unexpectedly called to New York and appointed the first UNDP representative to the newly independent Republic of Azerbaijan. On a grey and windy November morning, I landed in Baku and raised the first UN flag on a balcony of the Intourist Hotel at Baku's Azadliq Square. It was, and will always be, the most extraordinary experience of my entire professional life, one that defined my views of the world, of the UN and my own values as well. As a young witness of the birth of a nation and of people's courage to face the turmoil of war, ultimately it gave me a sense of the person I wanted to become. "

*Paolo Lembo, UN Resident Coordinator (1995-1997)*
*and UNDP Resident Representative in Azerbaijan (1992-1997)*

"1992-ci ilin avqust ayında işlə əlaqədar Əfqanıstanda olduğum zaman gözlənilmədən Nyu-Yorkdan zəng edib bildirdilər ki, mən yeni müstəqil dövlət olan Azərbaycan Respublikasında BMTİP-in ilk nümayəndəsi təyin olunmuşam. Noyabr ayının tutqun və küləkli səhərlərindən birində mən təyyarə ilə Bakı şəhərinə gələrək Azadlıq meydanında yerləşən "İnturist" mehmanxanasının eyvanında ilk dəfə BMT bayrağını qaldırdım. Azərbaycandakı fəaliyyətim mənim bu dünyaya və BMT-yə baxışlarımın, habelə şəxsi dəyərlərimin formalaşmasında həlledici rol oynaylb və bütün peşəkar həyatımın xüsusi bir təcrübəsi olaraq qalmaqdadır. Yeni dövlətin yaranmasının və müharibənin iztirabları ilə üzləşmiş xalqın cəsarətinin gənc şahidi olmağım şəxsiyyət kimi formalaşmağıma böyük təsir göstərmişdir. "

*Paolo Lembo, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi (1995-1997-ci illər)*
*və BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi (1992-1997-ci illər)*



Azerbaijanis fleeing from the Kelbajar district due to conflict.
*Azerbaijan State Committee for Affairs of Refugees and IDPs Photo/April 1993*

Münaqişə səbəbindən Kəlbəcər rayonunu tərk etmək məcburiyyəti ilə üzləşən azərbaycanlılar.
*Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin fotosu/Aprel 1993-cü il*

UN Representative, Mahmoud El-Said leads a fact-finding mission to the frontline district of Fuzuli.
*UN Azerbaijan Photo/April 1993*

BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səid Füzuli rayonunun cəbhəyanı bölgələrində faktaraşdırıcı missiyaya rəhbərlik edir.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/Aprel 1993-cü il*

During the initial years (1992-1995) following Azerbaijan's independence, United Nations' assistance was primarily focused on the immediate needs of refugees and IDPs affected by the conflict in and around the Nagorno-Karabakh region of the Republic of Azerbaijan. During this time, UN Agencies provided food, health services, shelter and other non-food items to more than 600,000 IDPs from Azerbaijan's Nagorno-Karabakh region and the seven adjacent districts of Aghdam, Jabrail, Fuzuli, Kalbajar, Gubadli, Lachin and Zangilan. Assistance also included support to some 200,000 Azerbaijani refugees who were fleeing Armenia between 1988 and 1992. UNHCR was one of the first international organisations to bring refugee management expertise, as well as substantial assistance to the country. UNICEF focused on the conditions of children and adolescents suffering from the consequences of conflict among the refugees and IDPs. The combined efforts of the Government, local communities and the international community were crucial in preventing the most tragic consequences of large-scale displacement, such as mass starvation, epidemics and social unrest. At the same time, the UN continued to support the efforts of the Conference on Security and Co-operation in Europe (CSCE, now OSCE) towards bringing about a ceasefire and a peaceful solution to the conflict.

Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində (1992-1995-ci illərdə) BMT tərəfindən göstərilən yardımın əsas hissəsi Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və ətraf ərazilərdə gedən münaqişədən əziyyət çəkmiş qaçqınların və məcburi köçkünlərin təxirəsalınmaz ehtiyaclarının ödənilməsinə yönəldilmişdir. Həmin dövrdə BMT agentlikləri Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafında yerləşən yeddi rayondan - Ağdam, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Laçın və Zəngilandan didərgin düşmüş 600. 000-dən çox məcburi köçkünü ərzaq, tibbi xidmətlər, sığınacaq və digər qeyri-ərzaq yardımı ilə təmin etmişdirlər. Bununla yanaşı, 1988-1992-ci illərdə Ermənistanı tərk etmək məcburiyyəti ilə üzləşmiş 200. 000 azərbaycanlı qaçqın da bu cür yardımla və dəstəklə əhatə olunmuşdur. BMTQAK qaçqın məsələlərinin həllinə dair idarəetmə təcrübəsini və zəruri yardımı Azərbaycana gətirmiş ilk beynəlxalq təşkilatlardan biri idi. UNICEF isə münaqişədən zərər çəkmiş qaçqın və məcburi köçkün uşaqların və yeniyetmələrin vəziyyətinə xüsusi diqqət ayırırdı. İrimiqyaslı yerdəyişmələrin kütləvi aclıq, epidemiyalar və ictimai qeyri-sabitlik kimi ən faciəvi fəsadlarının qarşısının alınmasında Azərbaycan hökumətinin, yerli icmaların və beynəlxalq birliyin birgə səyləri həlledici rol oynamışdır. Eyni zamanda, BMT Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM-in, hazırkı ATƏT-in) atəşkəsə nail olma və münaqişənin sülh yolu ilə həlli istiqamətindəki səylərini dəstəkləməkdə davam etmişdir.





IDPs in a tent camp located in the district of Yevlakh, set up with the support of UNHCR.
*UNHCR Photo/May 1994*

Yevlax rayonunda BMTQAK-ın dəstəyi ilə salınmış çadır düşərgəsindəki məcburi köçkünlər.
*BMTQAK-ın fotosu/May 1994-cü il*





"The UN plays a major role in sustaining peace, security and stability in the world and addressing global challenges. This organisation has provided significant assistance to the people who were forced to flee from their native lands and homes as a result of the conflict in and around the Nagorno-Karabakh region. As President Ilham Aliyev has repeatedly stated, if the UN had not been present in the early 1990s and provided assistance, a humanitarian crisis would have emerged which could have led to terrible consequences.

We place great hopes on UN efforts towards the liberation from occupation of the 20 percent of internationally recognized territory of Azerbaijan, in the return of more than one million refugees and internally displaced persons to their native homes and towards the just and peaceful settlement of, the conflict in and around the Nagorno-Karabakh region on the basis of principles and norms of international law. We highly appreciate the efforts of the UN Secretary-General, Mr. Antonio Guterres, in this regard.

The Government of the Republic of Azerbaijan is ready to continue to cooperate with all the UN Agencies. I hope that our positive relationships will continue with the same pace and further expand. "

*Mr. Ali Hasanov, Deputy Prime Minister and Chairman of State Committee*
*for Affairs of Refugees and Internally Displaced Persons of Azerbaijan*

"Dünyada sülhün, təhlükəsizliyin və əmin-amanlığın bərqərar olunmasında, qarşıya qoyulan qlobal vəzifələrin həllində BMT-nin rolu böyükdür. Dağlıq Qarabağ münaqişəsi nəticəsində doğma torpaqlarından, evlərindən didərgin düşmüş insanlar üçün bu təşkilat böyük köməkliklər etdi. Ölkə Prezidenti İlham Əliyev dəfələrlə qeyd etdiyi kimi, əgər 1990-cı illərin əvvəllərində BMT-nin fəaliyyəti və yardımı olmasaydı, ölkəmizdə humanitar fəlakət yaşana bilər və çox acı nəticələr yarana bilərdi.

Biz Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış 20 faiz ərazilərinin işğaldan azad olunması, qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş bir milyondan çox soydaşımızın doğma yurd-yuvalarına qayıtması, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında sülh yolu ilə ədalətli həlli istiqamətində BMT-nin səylərinə böyük ümidlər bəsləyirik. Biz BMT-nin Baş katibi cənab Antonio Quttereşin bu istiqamətdə gördüyü işləri yüksək qiymətləndiririk.

Azərbaycan hökuməti bundan sonra da BMT-nin bütün qurumları ilə əməkdaşlığı davam etdirməyə hazırdır. Ümidvaram ki, müsbət münasibətlərimiz eyni səpkidə davam edəcək və daha da genişlənəcəkdir. "

*Əli Həsənov, Azərbaycan Respublikası Baş nazirinin müavini,*
*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*



After 1995, while UN Agencies continued to provide limited humanitarian support to IDPs, the focus of UN assistance shifted from emergency to post-conflict rehabilitation and improving the living conditions of displaced people.

In 1996, a pilot project funded by UNDP and the World Bank focused on the reconstruction of the war-destroyed Horadiz settlement in the district of Fuzuli, whereby individual residential houses, a local school, kindergarten, administrative buildings, a sewerage system and energy supply facilities were rebuilt. Residents were also supported to engage in entrepreneurship and agricultural production, contributing to the normalisation of life in the war-affected settlement. In 1997, UNICEF helped to establish the first children`s rehabilitation centre in Azerbaijan at the Galagayin camp for IDPs in the district of Sabirabad. UNHCR, along with a non-governmental organisation such as Relief International improved the housing conditions for families in Aghdam, Aghjabadi, Barda, Beylagan, Fuzuli, Goygol and Imishli which had a high concentration of IDPs. UNHCR also assisted many IDPs returning to the liberated villages of Fuzuli district by rehabilitating their destroyed or damaged houses.

1995-ci ildən sonra BMT agentlikləri məcburi köçkünlər üçün humanitar yardımın göstərilməsini məhdud şəkildə davam etdirsələr də, təşkilatın əsas diqqəti təxirsalınmaz yardımdan daha çox münaqişədən sonrakı bərpa işlərinin həyata keçirilməsinə və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdir.

1996-cı ildə BMTİP və Dünya Bankı tərəfindən maliyyələşdirilən pilot layihə çərçivəsində Füzuli rayonunun müharibə zamanı dağıdılmış Horadiz qəsəbəsinin yenidən qurulmasına xüsusi yer ayrılmışdırş. Burada fərdi yaşayış evləri, məktəb, uşaq bağçası, inzibati binalar, kanalizasiya sistemi və enerji təchizatı müəssisəsi yenidən inşa olunmuşdur. Eyni zamanda, yerli sakinlərin sahibkarlıq fəaiyyəti və kənd təsərrüfatı ilə məşğul olmaları üçün dəstəyin göstərilməsi müharibədən zərər çəkmiş qəsəbədə həyatın normallaşmasına şərait yaratmışdır. 1997-ci ildə UNICEF Sabirabad rayonundakı məcburi köçkünlərin “Qalaqayın” çadır düşərgəsində uşaqlar üçün Azərbaycanda ilk reabilitasiya mərkəzinin yaradılmasına köməklik göstərmişdir. BMTQAK məcburi köçkün ailələrinin daha çox məskunlaşdığı Ağdam, Ağcabədi, Bərdə, Beyləqan, Füzuli, Göygöl və İmişli rayonlarında yaşayış şəraitinin yaxşılaşdırılmasına “Relief International” kimi qeyri-hökumət təşkilatarı ilə birgə nail olmuşdur. Eyni zamanda, BMTQAK Füzuli rayonunun işğaldan azad edilmiş kəndlərinə qayıdan çoxsaylı məcburi köçkünlərin tamamilə və ya qismən dağıdılmış evlərini bərpa etməklə onlara köməklik göstərmişdir.

Abid Sharifov, Deputy Prime Minister and Paolo Lembo, UN Resident Coordinator and UNDP Resident Representative attend a special ceremony dedicated to the return of the first IDP families to their renovated homes in Horadiz settlement, Azerbaijan.
*UNDP Azerbaijan Photo/December 1996/H. Babayev*

Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi, BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Paolo Lembo məcburi köçkünlərin ilk qrupunun Azərbaycanın Horadiz qəsəbəsində yenidən inşa edilmiş evlərinə qayıtması ilə əlaqədar xüsusi mərasimdə iştirak edirlər.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Dekabr 1996-cı il/H. Babayev*



1996

A school for 640 students in Horadiz before (1996) and after reconstruction (1997).
*Agency for Rehabilitation and Reconstruction of Areas of Azerbaijan Photos*



1997

640 şagird üçün nəzərdə tutulmuş Horadiz məktəbi təmirdən əvvəl (1996-cı il) və sonra (1997-ci il).
*Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin fotoları*





Children listen to their teacher at a UNICEF-assisted kindergarten in a camp for IDPs in the district of Sabirabad, south-west of Baku.
*UNICEF Photo/1997/Roger Lemoyne*

Paytaxt Bakıdan cənubi qərbdə yerləşən Sabirabad rayonunda məcburi köçkünlərin çadır düşərgəsində UNICEF-in dəstəyi ilə fəaliyyət göstərən uşaq bağçasında uşaqlar müəllimə qulaq asırlar.
*UNICEF-in fotosu/1997-ci il*

ANAMA's Mine Detection Dogs take part in all mine clearance operations in Fuzuli district.
*ANAMA Photo/2012*

Füzuli rayonunda ərazilərin minalardan təmizlənməsi əməliyyatlarına ANAMA-nın minaaxtaran itləri cəlb olunub.
*ANAMA-nın fotosu/2012-ci il*





Throughout the 1990s, the UN continued its assistance to the Government with post-conflict rehabilitation by establishing, funding and building the capacity of the Azerbaijan Rehabilitation and Reconstruction Agency (ARRA, established in 1997) and Azerbaijan National Agency for Mine Action (ANAMA, established in 1998), both of which continue to operate successfully to date. In 1999, UNDP launched a project to build the capacity of the newly-established ANAMA to effectively deal with the landmine problem in Azerbaijan. This helped mobilize funding for demining work from international donors including Canada, Germany, Japan, Norway, the United States and, more recently, EU. Since its establishment in 1998, the agency has cleared over 30,000 square kilometres of minefield and has destroyed more than 700,000 pieces of explosive devices directly benefiting over 100,000 people. Today, ANAMA is an example of a successful UN-Azerbaijan collaboration in building a sustainable institution which is ready to export its knowledge and expertise to other countries.

90-cı illərdə Birləşmiş Millətlər Təşkilatı hazırda da uğurla fəaliyyət göstərən Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyi (ARRA) və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyi (ANAMA) müvafiq olaraq 1997 və 1998-ci illərdə yaratmaqla, maliyyələşdirməklə və potensiallarını inkişaf etdirməklə münaqişədən sonra bərpa işlərinin həyata keçirilməsi üçün hökumətə kömək göstərməyi davam etdirmişdir. Azərbaycanda ərazilərin minalardan təmizlənməsi probleminin öhdəsindən səmərəli şəkildə gəlmək üçün BMTİP yeni yaradılmış ANAMA-nın potensialını gücləndirmək məqsədi daşıyan layihəni 1999-cu ildə həyata keçirməyə başlamışdır. Bu layihə ərazilərin minalardan təmizlənməsi üçün beynəlxalq donorlar, o cümlədən Kanada, Almaniya, Yaponiya, Norveç, ABŞ və son zamanlar Aİ tərəfindən ayrılan maddi vəsaitlərin səfərbər olunmasına şərait yaratmışdır. Yarandığı 1998-ci ildən etibarən Agentlik 30. 000 km2-dən çox mina sahəsi və döyüş ərazisini təmizləyib, habelə ümumi sayı 700. 000-dən çox olan partlayıcı qurğu məhv edib ki, bundan da 100. 000-dən çox insan bəhrələnib. Dayanıqlı təsisatların yaradılması nöqteyi-nəzərindən BMT-Azərbaycan əməkdaşlığının ən uğurlu misallarından biri hesab olunan ANAMA bu gün öz bilik və təcrübəsini başqa ölkələrə ixrac etmək üçün hazırdır.



“Crucial to ARRA’s successful beginning was the Government’s commitment to the agency, including its financing, and the selection of a team of highly qualified and dedicated professionals, beginning with the Deputy Prime Minister Abid Sharifov charged with reconstruction and ARRA Director Ali Mammadov. Equally crucial was giving voice to those who needed its assistance: the refugees themselves. To date, the initiative constitutes perhaps one of the most successful cases of a nationally-owned rehabilitation programme, conducted in the absence of a comprehensive peace agreement. ”

*Paolo Lembo, UN Resident Coordinator (1995-1997) and UNDP Resident Representative in Azerbaijan (1992-1997)*

“ARRA-nın uğurlu başlanğıcının əsasını təşkil edən ən mühüm amillər hökumətin bu Agentliklə bağlı bütün, o cümlədən maddi, öhdəlikləri öz üzərinə götürməsindən, habelə yenidənqurma işlərinə rəhbərlik edən Azərbaycan Respublikası Baş nazirinin müavini Abid Şərifov və ARRA-nın direktoru Əli Məmmədov başda olmaqla xüsusi peşəkarlığı ilə seçilən və yüksək ixtisasa malik olan mütəxəssislərin yer aldığı kollektivin mövcud olmasından ibarətdir. Eyni zamanda, yardıma ehtiyacı olanların - bilavasitə qaçqınların da səsinə səs vermək çox önəmli idi. Hərtərəfli sülh sazişi olmadan dövlət tərəfindən həyata keçirilən belə bir bərpa proqramını bu günə dünyada mövcud olan ən uğurlu təşəbbüslərdən biri hesab etmək olar. ”

*Paolo Lembo, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi (1995-1997-ci illlər) və BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi (1992-1997-ci illər)*



“ARRA launched its activities with the rehabilitation and reconstruction of critical infrastructure facilities in 22 settlements of Fuzuli district in 1996. Financially supported by UNDP, the World Bank and the European Commission, ARRA enabled the permanent return of 35,000 internally displaced people to their native lands. Today, more than 300,000 citizens living in the liberated and damaged areas of Azerbaijan benefit from the rehabilitated infrastructure network. With over 20 years of successful activity, the Agency was able to take its first steps with UNDP’s financial support and purposeful recommendations and benefited from the recommendations of its experienced UN staff, such as Paolo Lembo and Ercan Murat. ”

*Mr. Abid Sharifov, Deputy Prime Minister of Azerbaijan*

“ARRA Füzuli rayonunun 22 yaşayış məntəqəsində dağıdılmış həyattəminatlı infrastrukturların bərpası işləri ilə 1996-cı ildə fəaliyyətə başlamışdır. BMTİP, Dünya Bankı və Avropa Komissiyası tərəfindən maliyyələşdirilən bu Agentlik 35. 000 məcburi köçkünün öz doğma yurd-yuvalarına daimi qayıdışını təmin etmişdir. Bu gün işğaldan azad edilmiş və münaqişədən zərər çəkmiş ərazilərdə yaşayan 300. 000-dən çox vətəndaşımız bərpa edilmiş infrastruktur şəbəkəsindən faydalanır. 20 ildən artıq uğurlu fəaliyyəti ilə tanınmış Agentlik ilk addımlarını məhz BMTİP-in maliyyə dəstəyi və məqsədyönlü tövsiyələri ilə atmış və Paolo Lembo və Ercan Murat kimi təcrübəli BMT əməkdaşlarının tövsiyələrindən faydalanmışdır. ”

*Abid Şərifov, Azərbaycan Respublikası Baş nazirinin müavini*



UNIDO Director-General, Mauricio de Maria y Campos, visits the construction of an investment promotion centre in Sumgait with Deputy Prime Minister Abid Sharifov and UN Resident Coordinator Paolo Lembo, and pledges support to industrial reconstruction activities in Azerbaijan.
*UNDP Azerbaijan Photo/July 1997/H. Babayev*

BMT-nin Sənaye İnkişafı Təşkilatının (YUNİDO) Baş direktoru Maurisio de Maria i Kampos Baş nazirinin müavini Abid Şərifov və BMT-nin rezident əlaqələndiricisi Paolo Lembo ilə brlikdə Sumqayıt şəhərində İnvestisiyaların Təşviqi Mərkəzinin inşası işləri ilə tanış olaraq ölkədə sənayenin bərpasına dair tədbirlərin dəstəkləndiyini bəyan etmişdir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyul 1997-ci il/H. Babayev*

The situation of IDPs and refugees in Azerbaijan have remained a priority for the UN and as such, there have been a number of high level visits by senior UN officials to the country aimed at understanding the plight of vulnerable population.

Azərbaycanda məcburi köçkünlər və qaçqınlar məsələsi BMT üçün daima prioritet hesab edildiyindən əhalinin bu həssas təbəqəsinin vəziyyətini hərtərəfli öyrənmək məqsədilə təşkilat rəsmiləri ölkəyə bir sıra yüksək səviyyəli səfərlər etmişdirlər.



President Heydar Aliyev meets with Francis Deng, UN Secretary-General's Special Representative for IDPs and Ercan Murat, UN Resident Coordinator.
*AZERTAC state news agency Photo/Baku, May 1998*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT Baş katibinin məcburi köçkünlərin hüquqları üzrə xüsusi nümayəndəsi Fransis Denlə və BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Ercan Muratla Bakı şəhərində görüşür.
*"AZƏRTAC" Dövlət İnformasiya Agentliyinin fotosu/May 1998-ci il*



UNDP Associate Administrator, Zephirine Diabre visits reconstruction and demining projects in Fuzuli district during his official visit to Azerbaijan.
*UNDP Azerbaijan Photo/April 1999/H. Babayev*

Azərbaycana rəsmi səfəri zamanı BMTİP rəhbərinin köməkçisi Zefirin Diabre Füzuli rayonunda ərazilərin minalardan təmizlənməsi və bərpa edilməsi layihələri çərçivəsində həyata keçirilən işlərlə tanış olur.
*BBMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Aprel 1999-cu il/H. Babayev*



UN High Commissioner for Refugees, Antonio Guterres, accompanied by Deputy Prime Minister Ali Hasanov, meets with a group of IDPs in New Khojavend village of Beylagan district.
*Azerbaijan State Committee for Affairs of Refugees and IDPs of Azerbaijan Photo/August 2006*

2006-cı ilin avqust ayında BMT-nin Qaçqınlar üzrə ali komissarı vəzifəsində olarkən Antonio Quterreş və Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov Beyləqan rayonunun Yeni Xocavənd qəsəbəsində bir qrup məcburi köçkünlə görüşürlər.
*Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin fotosu/Avqust 2006-cı il*



President Ilham Aliyev receives Walter Kalin, Representative of the UN Secretary-General on the Human Rights of IDPs in Baku.
*AZERTAC State News Agency Photo/April 2007.*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin məcburi köçkünlərin hüquqları üzrə xüsusi nümayəndəsi Valter Kalini Bakıda qəbul edir.
*""AZƏRTAC" Dövlət İnformasiya Agentliyinin fotosu/Aprel 2007-ci il*



António Guterres, UN High Commissioner for Refugees, is taken to the UNHCR Refugee Women and Youth Centre in Baku during his second visit to Azerbaijan. With Deputy Prime Minister Ali Hasanov.
*UNHCR Photo/May 2011*

BMT-nin Qaçqınlar üzrə ali komissarı vəzifəsində olarkən Azərbaycan Respublikasına ikinci səfəri zamanı Antonio Quterreş və Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Həsənov BMTQAK-ın Qaçqın Qadın və Gənclər Mərkəzinə gəlirlər.
*BMTQAK-ın fotosu/May 2011-ci il*

President Ilham Aliyev meets IOM Director General Ambassador William Lacy Swing during his first visit to Azerbaijan.
*Azerbaijan Presidential Administration Photo/September 2015*

Prezident İlham Əliyev Azərbaycana ilk dəfə səfər edən BMqT-nin baş direktoru səfir Uilyam Leysi Svinqi qəbul edib.
*Azərbaycan Prezident Administrasiyasının fotosu/ Sentyabr 2015*



“The Republic of Azerbaijan has been cooperating with the UN and its specialised agencies since the early days of its independence. UN agencies have provided incomparable assistance in the protection of human rights in Azerbaijan, including the rights of more than one million refugees and IDPs, who were displaced from their homeland as a result of the occupation of Azerbaijan’s territories by Armenia.

The State Migration Service attaches special importance to its cooperation with IOM in protection of migrants’ rights and will mobilise its efforts to strengthen the existing cooperation with this organisation and other UN agencies.”

*Firudin Nabiyev, Chief of the State Migration Service of the Republic of Azerbaijan*

“Azərbaycan Respublikası müstəqilliyini əldə etdiyi ilk günlərdən BMT və onun ixtisaslaşmış qurumları ilə sıx əməkdaşlıq edir. Azərbaycan Respublikasında insan hüquqlarının, o cümlədən Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı nəticəsində öz yurd-yuvalarından didərgin düşmüş milyondan çox qaçqın və məcburi köçkünün hüquqlarının müdafiəsində BMT-nin ayrı-ayrı qurumlarının əvəzsiz köməyi olmuşdur.

Dövlət Miqrasiya Xidməti miqrantların hüquqlarının müdafiəsi sahəsində BMqT ilə əməkdaşlığa xüsusi önəm verir və bundan sonra da, bu təşkilat da daxil olmaqla, BMT-nin qurumları ilə mövcud əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.”

*Firudin Nəbiyev, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi*





ILO provided training on road reconstruction skills for IDPs in the Ismayilli district.
*ILO Photo/2006*

BƏT İsmayıllı rayonunda məskunlaşmış məcburi köçkünlər üçün yolların bərpa edilməsi bacarıqlarına dair təlim keçirir.
*BƏT-in fotosu/2006-cı il*

Today over 600,000 persons from the occupied Nagorno-Karabakh region and the seven surrounding occupied districts of Azerbaijan remain internally displaced. The Government and the UN system continue to support the needs of IDPs and refugees including their skills development and overall well-being.

Hazırda Azərbaycanın işğal altında olan Dağlıq Qarabağ bölgəsindən və yeddi ətraf rayondan didərgin düşmüş 600.000-dən çox insan hələ də məcburi köçkün həyatı yaşamaqdadır. Azərbaycan hökuməti və BMT agentlikləri məcburi köçkünlərin və qaçqınların ehtiyaclarının təmin edilməsi, o cümlədən, bacarıqlarının inkişaf etdirilməsi və ümumi rifahının yaxşılaşdırılması işini davam etdirir.



IDPs have their eyes tested by Japanese Optometrist Dr. Akio Kanai and his team in Barda, Azerbaijan during their 13th mission to Azerbaijan. During a six-day mission the team screened 2,882 people and distributed 2,433 pairs of eyeglasses.
*UNHCR Photo/May 2016*

Yaponiyalı optometrist Dr. Akio Kanai və onun rəhbərlik etdiyi heyət Azərbaycana 13-cü missiyası zamanı Bərdə rayonunda məcburi köçkünlər arasında görmə qabiliyyəti ilə bağlı müayinələri aparırlar. Altıgünlük səfər zamanı onlar 2. 882 nəfər müayinə etmiş və 2. 433 ədəd eynək paylamışdır.
*BMTQAK-ın fotosu/May 2016-cı il*




Art classes organized at the UNHCR Refugee Women and Youth Centre in Baku for refugees and asylum seekers from other countries.
*UNHCR Azerbaijan Photo/June 2017*

Başqa ölkələrdən olan qaçqınlar və sığınacaq axtaran şəxslər üçün Bakı şəhərində BMT QAK-ın təşkil etdiyi təsviri incəsənət kursları.
*BMTQAK-ın Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 2017-ci il*

President Heydar Aliyev is presented with a copy of the first Azerbaijan NHDR by Paolo Lembo, UNDP Resident Representative, with Mahmoud El Said, UN Representative, at the launch event in Baku. ►
*UNDP Azerbaijan Photo/June 1995/H. Babayev*

Azərbaycan üzrə ilk MİİH-in təqdimatı ilə bağlı Bakı şəhərində keçirilən xüsusi mərasimdə BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Paolo Lembo bu hesabatın bir nüsxəsini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud Əl-Səidlə birlikdə təqdim edir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 1995-ci il/H. Babayev*

In addition to providing humanitarian support to those affected by the conflict, the UN agencies have also been supporting Azerbaijan's longer-term development needs. UNDP's publication of several National Human Development Reports (NHDRs) highlighting development challenges and offering high-level policy advice to researchers and decision makers in and outside the government has contributed to Azerbaijan's impressive socio-economic development during the past two decades.

BMT agentlikləri münaqişədən zərər çəkmiş insanlara humanitar yardımın göstərilməsi ilə yanaşı Azərbaycanın uzunmüddətli inkişaf ehtiyaclarının təmin olunması işini də dəstəkləyirlər. BMTİP tərəfindən nəşr edilmiş müxtəlif Milli İnsan İnkişafı Hesabatları (MİİH-lər) inkişaf məsələlərini işıqlandırmaqla, habelə hökumət və qeyri-hökumət təşkilatlarında çalışan tədqiqatçılara və qərar qəbul edənlərə müvafiq siyasətlərlə bağlı yüksək səviyyəli tövsiyyələr verməklə son iyirmi il ərzində Azərbaycanda müşahidə olunan misilsiz sosial-iqtisadi inkişafa müəyyən töhfələr vermişdir.





President Heydar Aliyev and UNDP Administrator James Gustave Speth jointly launch the second NHDR in Sumgait, Azerbaijan.
*UNDP Azerbaijan Photo/June 1996/H. Babayev*

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev və BMTİP-in rəhbəri Ceyms Qustav Spet ikinci Milli İnsan İnkişafı Hesabatının Sumqayıt şəhərində keçirilən təqdimatında birgə iştirak edirlər.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 1996-cı il/H. Babayev*



"The programmes of UNDP, including the National Human Development Reports, have contributed positively to the country's achievements in the economic and social sectors. The reports of various years focused on different themes and respectively, gave impetus to poverty reduction efforts, proper environmental planning and management, the development of "green" economy, the resolution of problems of refugees and IDPs and the development of modern technologies. The reports also affected the formation of preventive policies in the field of human development in the Republic of Azerbaijan. For instance, due to the importance of building knowledge and skills in the field of human development, the latter was included in the curriculum of secondary schools in Azerbaijan in 2001. "

*Mr. Urkhan Alakbarov, Rector of Academy of Public Administration under President of Azerbaijan and National Coordinator of Human Development Report 1994-2004.*

"Azərbaycanda iqtisadi və sosial sahələrdə nailiyyətlərin əldə edilməsinə BMTİP proqramlarının, o cümlədən İnsan İnkişafı Hesabatlarının müsbət təsiri olub. Müxtəlif illərdə fərqli mövzulara həsr olunan hesabatlar Azərbaycanda yoxsulluğun azaldılmasına, ətraf mühitin düzgün planlaşdırılması və idarə olunmasına, "yaşıl" iqtisadiyyatın formalaşmasına, qaçqın və məcburi köçkünlərin problemlərinin həll edilməsinə və müasir texnologiyaların inkişaf etdirilməsinə təkan verib. Hesabatlar Azərbaycan Respublikasında insan inkişafı sahəsində qabaqlayıcı siyasətin formalaşmasına da təsir göstərib. Məsələn, insan inkişafı sahəsində bilik və bacarıqların artırılmasının əhəmiyyətini nəzərə alaraq bu məsələ 2001-ci ildə Azərbaycanda orta ümumtəhsil məktəblərinin proqramına daxil edilib. "

*Urxan Ələkbərov, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, 1994-2004-cü illərdə İnsan İnkişafı Hesabatlarının hazırlanması üzrə milli koordinator*

The results of a 1996 poverty assessment survey conducted by the World Bank in consultation with UNICEF and UNDP revealed that the poverty level in Nakhchivan Autonomous Republic (NAR) was considerably higher than that in other parts of the country. Therefore, a Regional Development Plan for NAR was launched which envisaged, among other things, reconstruction of Nakhchivan airport, the development of agriculture through establishing private farms, reconstruction of the processing industry, the creation of jobs, the implementation of concrete income-generation projects, the establishment of a computer training centre and linking NAR to the Internet

1996-cı ildə yoxsulluğun qiymətləndirilməsi üçün UNICEF və BMTİP-lə məsləhətləşmələr əsasında Dünya Bankının apardığı tədqiqatın nəticələri Azərbaycanın digər regionları ilə müqayisədə Naxçıvan Muxtar Respublikasında yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə yüksək olmasını müəyyən etmişdir. Bununla əlaqədar həyata keçirilmiş Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Planı digər məsələlərlə yanaşı Naxçıvan Hava Limanının yenidən qurulmasını, özəl fermalar yaratmaqla kənd təsərrüfatının inkişaf etdirilməsini, emal sənayesinin bərpa edilməsini, yeni iş yerlərinin açılmasını, gəlir gətirən konkret layihələrin yerinə yetirilməsini, kompüter təlim mərkəzinin yaradılmasını və Naxçıvan Muxtar Respublikasının internet şəbəkəsinə qoşulmasını nəzərdə tuturdu.



Paolo Lembo, UN Resident Coordinator and UNDP Resident Representative, and Vasif Talibov, Speaker of the Parliament of Nakhchivan Autonomous Republic launch the Regional Development Plan for Nakhchivan.
*UNDP Azerbaijan Photo/May 1997/H. Babayev*

BMT-in Azərbaycandakı rezident əlaqələndiricisi və BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Paolo Lembo və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov Naxçıvan Muxtar Respublikası üzrə Regional İnkişaf Planının təqdimatında iştirak edirlər.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/May 1997-ci il/H. Babayev*

In 2007, UNDP published the "Converting Black Gold into Human Gold" Report recommending the development of an internationally competitive non-oil sector and investing into human capital such as skills development and education abroad.

2007-ci ildə BMTİP beynəlxalq səviyyədə rəqabət qabiliyyətli qeyri-neft sektorunun inkişaf etdirilməsini və insan kapitalına, o cümlədən bacarıqların inkişafına və xaricdə təhsilə sərmayə qoyuluşunu tövsiyə edən "Qara qızılı insan qızılına çevirək" Hesabatını nəşr etdirmişdir.




UNDP "Converting Black Gold into Human Gold" Report.
*UNDP Azerbaijan Photo/2007*

BMTİP-in "Qara qızılı insan qızılına çevirək" Hesabatı.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/2007-ci il*



"Azerbaijan's hydrocarbon reserves are indeed a great richness for the country, but they require careful management in the best sustainable way. One way to achieve this is to invest in improving human skills, through education and by developing other economic sectors which are capable of generating sustainable employment and making the economy less dependent on its natural resources. Oil, the Black Gold of Azerbaijan must be converted into Human Gold, the true lasting resource represented by the skills and capacities of its people. Since the mid-2000s, the UN worked closely with the Government of Azerbaijan to make sure that resources were channelled to improve the quality of primary education, but also to stimulate a robust investment in information technology that contributed in making Azerbaijan an important IT hub in the region. Azerbaijan also started to make pledges to various international organisations, mostly of the UN system, thus developing as a donor. Oil became an agent of development, invested in improving education and generally towards raising the living standards of the population converting it into the human gold that is the real long-term resource of every Nation. "

*Marco Borsotti, UN Resident Coordinator in Azerbaijan (2001-2007)*

"Azərbaycanın karbohidrogen ehtiyatları həqiqətən də ölkə üçün zəngin sərvətdir. Lakin onlar ən səmərəli yollarla davamlı şəkildə və diqqətlə idarə olunmalıdır. Buna nail olmaq üçün mövcud olan yollardan biri insanların bilik və bacarıqlarının təhsil vasitəsilə təkmilləşdirilməsi işinə sərmayə qoymaqla iqtisadiyyatın dayanıqlı iş yerləri ilə səciyyələndirilən digər sektorlarını inkişaf etdirməkdən və təbii ehtiyatlardan asılılığını azaltmaqdan ibarətdir. Azərbaycanın qara qızılı sayılan nefti bu xalqın bilik və bacarıqlarından ibarət əsl tükənməz ehtiyatı hesab olunan insan qızılına çevirmək lazımdır. Zəruri vəsaitlərin ibtidai təhsil keyfiyyətinin təkmilləşdirilməsinə yönəldilməsini təmin etmək, habelə Azərbaycanın regionda vacib İT mərkəzinə çevrilməsinə münbit şəraitin yaradılması üçün informasiya texnologiyaları sahəsinə əsaslı sərmayə qoyuluşunu stimullaşdırmaq məqsədilə 2000-ci illərin ortalarından etibarən BMT Azərbaycan hökuməti ilə yaxından əməkdaşlıq edir. Bununla yanaşı, Azərbaycan Respublikası əsasən BMT sisteminə daxil olan müxtəlif beynəlxalq təşkilatlar qarşısında öz üzərinə müəyyən öhdəliklər götürməklə donor ölkə kimi inkişaf etməkdədir. Təhsil sisteminin təkmilləşdirilməsi və ümumiyyətlə əhalinin yaşayış səviyyəsinin artırılması üçün düzgün istifadə edildikdə ölkənin qara qızılı olan neft hər bir dövlətin real, uzun müddətli sərvəti olan insan qızılına çevrilir. "

*Marko Borsotti, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi (2001-2007-ci illərdə)*




President Heydar Aliyev signs the Millennium Declaration at the UN Millennium Summit, committing Azerbaijan to achieve the Millennium Development Goals by 2015.
*Press Service of the President of Azerbaijan/September 2000*

2015-ci ilə qədər Minilliyin İnkişaf Məqsədlərinə nail olmaq üçün Azərbaycanda bu öhdəliyin həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev BMT-nin təşkilatçılığı ilə keçirilən Minilliyin Sammitində Minilliyin Bəyannaməsini imzalayır.
*Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidmətinin fotosu/Sentyabr 2000-ci il*

In 2000, the Government of Azerbaijan committed to achieving the Millennium Development Goals (MDGs) and partnered with the UN Agencies and other development actors in the fight against poverty. As a result, poverty has been drastically reduced in the last 25 years. The efforts of the Government and the UN have also translated into an improved Human Development Index (HDI) in Azerbaijan, which has increased by 30 per cent between 1995 and 2015. Azerbaijan's gross national income (GNI) per capita increased by approximately 87. 8 per cent between 1990 and 2015.

2000-ci ildə Azərbaycan hökuməti Minilliyin İnkişaf Məqsədlərinə (MİM-lərə) nail olmaq öhdəliyini öz üzərinə götürərək yoxsulluğun azaldılması üçün BMT agentlikləri və digər inkişaf təşkilatları ilə tərəfdaşlıq etməyə başlamışdır. Nəticədə yoxsulluğun səviyyəsi son 25 il ərzində kəskin şəkildə azalmışdır. Azərbaycan hökuməti və BMT tərəfindən həyata keçirilən tədbirlər sayəsində Azərbaycanda İnsan İnkişafı İndeksinin yaxşıya doğru dəyişməsini də qeyd etmək lazımdır. 1995-2015-ci illər arasında bu göstərici təxminən 30% artmışdır. 1990-2015-ci illərdə Azərbaycan Respublikasında adambaşına ümumimilli gəlir isə təqribən 87,8% artmışdır.




With UNICEF support, salt producers packing iodized salt in the Masazyr settlement.
*UNICEF Photo/2008*

UNICEF-in dəstəyi duz istehsalçıları Masazır qəsəbəsində yodlaşdırılmış duzu qablaşdırırlar.
*UNICEF-in fotosu/2008-ci il*



In support of national efforts to achieve the MDGs, UN Agencies have been working closely with the Government in order to improve the health care system. UNICEF has been supporting universal salt iodization to combat Iodine Deficiency Disorders (IDD) which has proven to be successful in combating nutrient deficiencies. As a result, IDD is close to being eliminated. Also with UNICEF's and WHO's support, children's vaccination programmes have improved and reached 95 per cent coverage. Azerbaijan was officially listed as polio free in June 2002 and malaria has been fully eradicated. Between 1990 and 2015, Azerbaijan's life expectancy at birth increased by six years and the mortality rate among children under the age of 5 and maternal mortality have been significantly reduced.

MİM-lərə nail olmaq üçün milli səviyyədə həyata keçirilən səylərin dəstəklənməsi kontekstində səhiyyə sistemini təkmilləşdirmək məqsədilə BMT agentlikləri Azərbaycan hökumətilə yaxından əməkdaşlıq edir. UNICEF Yod Çatışmazlığı Xəstəliklərinə qarşı mübarizə aparmaq məqsədilə qida çatışmazlığının aradan qaldırılmasında səmərəliliyini sübuta yetirmiş duzun universal yodlaşdırılması işinə dəstək verir. Bunun nəticəsində yod çatışmazlığı xəstəlikləri demək olar ki, aradan qaldırılıb. Eyni zamanda, UNICEF-in və ÜST-nin dəstəyi ilə uşaqların peyvəndlənməsi proqramları təkmilləşdirilmişdir və 95% peyvəndlənmə səviyyəsinə nail olunmuşdur. Azərbaycan Respublikası poliomelitdən azad ölkə statusunu rəsmi olaraq 2002-ci ilin iyun ayında almışdır, malyariya xəstəliyinin qarşısı isə tamamilə alınmışdır. 1990-2015-ci illər ərzində Azərbaycanda orta ömür uzunluğu təxminən altı il artmışdır, 5 yaşadək uşaqlar arasında ölüm hallarının və ana ölümü hallarının səviyyəsi isə əhəmiyyətli dərəcədə azalmışdır.





First Lady of Azerbaijan, Mehriban Aliyeva, administers a polio vaccination to a young child in a hospital in Baku during European Immunisation Week.
*WHO Photo/April 2008*

Avropa İmmunlaşdırma Həftəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Bakı şəhərindəki xəstəxanalardan birində azyaşlı uşağın poliomelitə qarşı vaksinasiyasını aparır.
*ÜST-nin fotosu/Aprel 2008-ci il*

A one year old child receives his routine immunisation at the children's outpatient clinic number 14 in Baku.
*UNICEF Azerbaijan Photo/2011/Giacomo Pirozzi*

Bakı şəhəri 14 saylı uşaq poliklinikasında bir yaşlı uşaq rutin immunizasiyadan keçirilir.
*UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/2011-ci il/ Cakomo Pirotsi*





Another major achievement in relation to the MDGs has been in the area of education. School enrolment rates have reached 99.8-100 per cent and the length of compulsory education has increased by one year. UNICEF supports the Ministry of Education in Azerbaijan in making preschool education accessible to every child in the country, which is a vital step in their learning and social development.

MİM-lərlə əlaqədar başqa bir böyük nailiyyət təhsil sahəsində əldə olunmuşdur. Məktəbə qəbul səviyyəsi 99,8-100%-ə çatmışdır, icbari ümumi təhsil müddəti isə bir il artırılmışdır. UNICEF uşaqların təhsili və sosial inkişafı üçün çox önəmli mərhələ hesab olunan məktəbəqədər təhsilin ölkədəki hər bir uşaq üçün əlçatan olması məqsədilə Azərbaycan Respublikası Təhsil Nazirliyinə dəstək verir.



Children in Yuxari Garamanli village school in Neftchala in May 2017 as they go through school preparedness lessons.
*UNICEF Azerbaijan/May 2017/K. Mammadli*

2017-ci ilin may ayında Neftçaladakı Yuxarı Qaramanlı kənd məktəbində uşaqlar məktəbəqədər dərslərdə iştirak edirlər.
*UNICEF-in Azərbaycandakı Nümayəndəliyinin fotosu /May 2017-ci il/K. Məmmədli*

The UN has supported the State Committee for Family, Women and Children Affairs in its efforts towards achieving gender equality by initiating a number of projects that aim to empower women and girls and the organisations that represent them. UNDP have established Women's Resource Centres and programmes for the economic and social empowerment of women in five districts of Azerbaijan. In recent years, hundreds of women have benefited from business development training, vocational education, and new employment and income-generation opportunities. UNDP has also supported socially active women to organise themselves into community groups as well as open and operate their own NGOs. Another area in which the UN has tried to change gender attitudes in Azerbaijan has been through sport.

BMT qadın və qızların, habelə onları təmsil edən təşkilatların səlahiyyətlərinin genişləndirilməsi məqsədi daşıyan bir sıra layihələri həyata keçirməklə gender bərabərliyinin təmin olunması istiqamətində səylər göstərən Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin işini dəstəkləyir. Qadın Resurs Mərkəzlərinin yaradılmasında iştirak etmiş BMTİP Azərbaycanın beş rayonunda qadınların iqtisadi və sosial sahələrdə səlahiyyətlərinin genişləndirilməsi proqramını həyata keçirir. Son illər ərzində yüzlərlə qadın biznesin inkişafı üzrə təlim, peşə təhsili, yeni məşğulluq və gəlir əldə etmə imkanlarından faydalanmışdır. Eyni zamanda, BMTİP icma qruplarında təşkilatlanmaq, həmçinin öz QHT-lərini yaratmaq və idarə etmək üçün ictimai fəal qadınlara köməklik göstərmişdir. BMT gender məsələlərinə münasibəti dəyişmək üçün həmçinin idman sahəsində də fəaliyyətlər təşkil edib.




Rena Ibrahimbekova, Director of UNDP's "Gender in Development project", distributes equipment (computers, fax and copying machines, etc.), to women's NGOs during a ceremony at the UN office in Azerbaijan.
*UNDP Azerbaijan Photo/January 1998/H. Babayev*

BMT-nin Azərbaycandakı Nümayəndəliyində keçirilən tədbirdə ""Gender inkşafda" Layihəsinin direktoru Rəna İbrahimbəyova qadın QHT-ləri üçün avadanlıqların (kompüterlərin, faks və surətçıxarma aparatlarının) paylanmasında iştirak edir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Yanvar 1998-ci il/H. Babayev*




UNICEF Goodwill Ambassador and singer-songwriter Shakira encourages teenage footballers from a UNICEF-supported national girls' football league to inspire their peers to take control of their future and to continue in education.
*UNICEF Azerbaijan Photo/October 2012/Giacomo Pirozzi*

UNİCEF-in Xoşməramlı səfiri, müğənni və bəstəkar Şakira UNICEF-in dəstəklədiyi Qızlar Liqasının bir qrup yeniyetmə futbolçusunu təşviq edir ki, onlar öz həmyaşıdlarını gələcəyi düzgün qavramağa və təhsillərini davam etdirməyə səsləsinlər.
*UUNICEF-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2012-ci il/Cakomo Pirotsi*



UNDP Goodwill Ambassador, Marta Vieira da Silva, meets with a girls' soccer team in Baku during the Global Forum on Youth Policies to motivate girls to advocate for gender equality both in sport and in society.
*UNDP Azerbaijan Photo/October 2014*

Həm idmanda, həm də cəmiyyətdə gender bərabərliyinin təbliği məqsədilə qızları motivasiya etmək üçün BMTİP-in Xoşməramlı səfiri Marta Vieira da Silva Gənclər Siyasətləri üzrə Birinci Qlobal Forumda iştirakı zamanı qızlardan ibarət futbol klubu ilə Bakı şəhərində görüşür.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2014-cü il*



"The cooperation with the UN has provided us with new perspectives on existing gender issues. It has contributed to building the national cadre of the experts on issues such as the protection of rights of women and children, the prevention of early marriage, domestic violence and gender-based violence. "

*Hijran Huseynova, Chairperson of the State Committee for Family, Women and Children Affairs of Azerbaijan*

"BMT ilə əmədaşlıq bizdə mövcud gender məsələlərinə dair yeni baxışların yaranmasını təmin etdi. Digər tərəfdən bu əməkdaşlıq qadın və uşaq hüquqlarının müdafiəsi, erkən nikah, məişət zorakılığı və gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə güclü milli ekspertlərin yetişməsinə öz töhfəsini verdi. "

*Hicran Hüseynova, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri*


HEYDƏR ƏLİYEV
FONDU




Referees line up in front of the campaign banner on 16 Days of Activism against Gender Based Violence before a local championship match in Baku. The action is part of the Azerbaijan Federation of Football Associations' (AFFA) support for the UNFPA-led campaign.
*UNFPA Azerbaijan Photo/2016*

"Gender əsaslı zorakılığa qarşı 16 günlük fəallıq" kampaniyasına həsr olunmuş xüsusi banner altında milli çempionat oyunundan əvvəl sıraya düzülmüş hakimlər. Bu aksiya UNFPA-nın apardığı kampaniyaya Azərbaycan Futbol Assosiasiyaları Federasiyasının (AFFA) göstərdiyi dəstəyin bir hissəsidir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/2016-cı il*

◀ UNFPA Executive Director, Babatunde Osotimehin, presents an award to Azerbaijan's First Lady and President of Heydar Aliyev Foundation Mehriban Aliyeva for her contributions to women's empowerment and gender equality in Azerbaijan.
*UNFPA Azerbaijan Photo/2015*

UNFPA-nın İcraçı direktoru Babatunde Osotimehin Azərbaycanda qadınların səlahiyyətlərinin genişləndirilməsi və gender bərabərliyinin təmin olunması sahələrində göstərdiyi xidmətlərə görə bu təşkilatın mükafatını Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya Bakı şəhərində təqdim edir.
*UNFPA-nın Azərbaycandakı Nümayəndəliyinin fotosu/2015-ci il*



The first groups of volunteers receive certificates for their participation in a pilot youth volunteers project during a ceremony at the UN office.
*UNDP Azerbaijan Photo/June 2000/H. Babayev*

BMT Nümayəndəliyindəki mərasim zamanı könüllülərdən ibarət ilk qruplar pilot layihədə iştirak etdiklərinə görə setrifikatlarla təltif olunur.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 2000-ci il/H. Babayev*

Another key focus of many of the UN Agencies working in Azerbaijan has been to work with youth, especially in relation to employment. UNDP and ILO contributed to the development and implementation of the National Employment Strategy focusing on vocational training education and stimulation of the development of small business and self-employment including for young people. To promote leadership skills of young people, the UN and the Ministry of Youth and Sports have also jointly organised several Model UN events around the country.

Azərbaycanda fəaliyyət göstərən BMT agentliklərinin çoxu gənclərlə işləməyi, xüsusilə də onların məşğulluq məsələlərini diqqət mərkəzində saxlayır. BMTİP və BƏT gəncləri də nəzərə alaraq texniki peşə təhsili, habelə kiçik biznesin və fərdi əmək fəaliyyətinin inkişafı işinin stimullaşdırılması məsələlərinə diqqət ayırmaqla Milli Məşğulluq Strategiyasının işlənib hazırlanması və yerinə yetirilməsinə öz töhfələrini vermişdirlər. Gənclər arasında liderlik bacarıqlarını təşviq etmək məqsədilə BMTİP və Gənclər və İdman Nazirliyi ölkədə bir neçə BMT Modeli tədbirlərini birgə təşkil etmişdirlər.




Helen Clark, UNDP Administrator, and Salim Muslumov, Minister of Labour and Social Protection of Population (MLSPP), meet with alumni at the SYSLAB training and employment centre supported by UNDP in Sumgait. SYSLAB International is a Laboratory on Innovation and Employment System which was established in Azerbaijan by the Norwegian MFA, UNDP and MLSPP.
*UNDP Azerbaijan Photo/October 2014*

BMTİP-in rəhbəri Helen Klark və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Səlim Müslümov Sumqayıt şəhərində BMTİP-in dəstəyi ilə fəaliyyət göstərən "SYSLAB" Təlim və Məşğulluq Mərkəzinin məzunları ilə görüşürlər. İnnovasiya və məşğulluğun inkişafı üçün laboratoriya sistemi olan "SYSLAB İnternational" Azərbaycanda Norveç Krallığı Xarici İşlər Nazirliyi, BMTİP və ƏƏSMN tərəfindən yaradılmışdır.
*BBMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2014-cü il*



Magrur Ahmadov, was able to establish a successful sheep farming business in Goychay due to support he received from the ILO Youth Employment Project.
*ILO Photo/May 2015*

BƏT-in Gənclərin Məşğulluğu Layihəsi çərçivəsində göstərilmiş yardım hesabına hazırda uğurla fəaliyyət göstərən qoyunçuluq fermasını yaratmış Məğrur Əhmədov.
*BƏT-in fotosu/May 2015-ci il*



45 university students and graduates representing the 15 permanent and non-permanent representatives of the UN Security Council for the term 2012-2013 (including Azerbaijan) at the first International Model UN Security Council Conference in Baku.
*UNDP Azerbaijan Photo/October 2013*

BMT Təhlükəsizlik Şurasının 2012-2013-cü illər üçün 15 daimi və qeyri-daimi üzvü olan dövlətləri, o cümlədən Azərbaycanı təmsil edən 45 tələbə və məzun Bakıda təşkil olunmuş Birinci BMT Təhlükəsizlik Şurası Beynəlxalq Model Konfransında.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr2013-cü il.*

Achieving the MDGs means that no one should be left behind. In 2013, UNFPA supported the Government with the development of the State Programme on Strengthening Social Protection of the Elderly. Furthermore, the agency collaborated with the International Institute on Ageing in Malta to address the challenges of population ageing and to build national institutional capacities for developing age-friendly policies.

MİM-lərə nail olma hamının bir nəfər kimi bəhrələnməsini nəzərdə tutur. 2013-cü ildə UNFPA Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramının işlənib hazırlanmasında Azərbaycan hökumətinə dəstək vermişdir. Bundan başqa, əhalinin yaşlaşma problemlərinə uyğun siyasətlərin işlənib hazırlanması üçün milli institusional potensialları artırmaq məqsədilə bu agentlik Maltada yerləşən Yaşlaşma üzrə Beynəlxalq İnstitutla əməkdaşlıq edirdi.

Elderly woman in Lahic village, Ismayilli district.
*UN Azerbaijan Photo/September 2010*

İsmayıllı rayonunun Lahıc kəndində yaşayan yaşlı qadın.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/Sentyabr 2010-cu il*



Azerbaijan is a party to more than 30 major UN conventions in the sphere of ecology including on climate change, land degradation and biodiversity. UNDP has supported Azerbaijan to develop alternative sources of energy, increase the forest coverage and protect its unique flora and fauna. UNDP has also helped to protect mountainous communities in the Greater Caucasus regions of Azerbaijan from floods, improve the water management and protect soils from erosion. FAO and UNDP have been collaborating with the Ministries of Agriculture and Ecology to support the sustainable development of pastures in Azerbaijan through community-based pasture management plans. FAO has introduced elements of "Conservation Agriculture" in pilot areas in the Tartar and Barda districts of Azerbaijan using modern techniques.

Azərbaycan Respublikası BMT-nin ekologiya, o cümlədən, iqlim dəyişikliyi, torpaqların deqradasiyası və biomüxtəliflik sahəsində 30-dan çox əsas konvensiyasına tərəfdar çıxıb. BMTİP alternativ enerji mənbələrinin inkişaf etdirilməsi, meşə örtüyünün artırılması və ölkənin unikal flora və faunasının qorunub-saxlanması istiqamətində Azərbaycanı dəstəkləyir. Eyni zamanda, bu təşkilat Böyük Qafqazın Azərbaycan hissəsində yaşayan dağlıq icmaların daşqınlardan müdafiə olunması, su üzrə idarəetmənin təkmilləşdirilməsi və torpaqların eroziyadan qorunması üçün köməklik göstərir. Azərbaycanda icma əsaslı otlaq idarə etmə planları vasitəsilə otlaqların dayanıqlı inkişafına dəstək vermək üçün FAO və BMTİP Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə əməkdaşlıq edirlər. Belə ki, FAO Azərbaycanın Tərtər və Bərdə rayonlarında yerləşən pilot ərazilərdə müasir üsullardan istifadə etməklə "Konservasiyalı kənd təsərrüfatı"-nın elementlərini tətbiq etmişdir.

Marco Borsotti, UNDP Resident Representative, and Natig Aliyev, the Minister of Industry and Energy, sign two projects in Baku to support the development of renewable energy in Azerbaijan, with a focus on hydro and wind energy.
*UNDP Azerbaijan Photo/January 2007*

BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Marko Borsotti və Azərbaycan Respublikasının Sənaye və Energetika naziri Natiq Əliyev su və külək enerjisinə xüsusi yer ayırmaqla bərpa olunan enerji mənbələrinin inkişafına dəstək məqsədi daşıyan iki layihəni imzalayırlar.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Yanvar 2007-ci il*





FAO International Consultant Alain Peeters discusses the contribution of temporary grassland in reducing the negative effects of over-grazing with the staff of the Ministry of Agriculture in the district of Gadabay.
*FAO Photo/2012*

FAO-nun beynəlxalq məsləhətçisi Alen Peeters aşınmış otlaqların mənfi fəsadlarının aradan qaldırılmasında müvəqqəti otlaqların rolunu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları ilə Gədəbəy rayonunda müzakirə edir.
*FAO-nun fotosu/2012-ci il*



FAO introduced the elements of Conservation Agriculture, which includes growing crops on raised beds, zero tillage, crop diversification and other techniques, in pilot areas in the Tartar and Barda districts of Azerbaijan. Application of the modern techniques is particularly valuable in Azerbaijan where smallholder farming is prevalent.
*FAO Azerbaijan Photo/2012*

FAO Tərtər və Bərdə rayonlarında yerləşən pilot ərazilərdə “Konservasiyalı kənd təsərrüfatı”nın tirəli əkin, şumsuz əkin, bitkilərin növbələşdirilməsi üsullarından və digər üsullardan ibarət elementlərini tətbiq edir. Kiçik fermer təsərrüfatlarının çoxluq təşkil etdiyi Azərbaycanda bu cür müasir üsulların tətbiqi xüsusilə əhəmiyyətlidir.
*FAO-nun Azərbaycandakı Nümayəndəliyinin fotosu/2012-ci il*



“In the last 10 years significant positive changes have been achieved in the sphere of environment protection in Azerbaijan and the scale of these changes can be clearly seen now. I would like to note the successful cooperation between Azerbaijan and the UN in this process. I highly appreciate the long-term cooperation with the UN on tackling global problems of mankind such as protection of biodiversity, climate change, fight against desertification, as well as on other priority areas. Looking at the future, I should note that we are aware about the existence of great challenges for us. I am confident that we shall continue to cooperate with the UN to resolve these problems. ”

*Huseyngulu Baghirov, The Minister of Ecology and Natural Resources of Azerbaijan*

“Son 10 ildə Azərbaycanda ətraf mühitin mühafizəsi sahəsində kəskin pozitiv dönüşə nail olunub və bu gün həmin dəyişikliklərin miqyasını əyani görmək mümkündür. Bu prosesdə Azərbaycanın BMT ilə uğurlu işbirliyini qeyd etmək istərdim. Bəşəriyyətin qlobal problemləri sayılan biomüxtəlifliyin qorunması, iqlim dəyişmələri, səhralaşmaya qarşı mübarizə və digər prioritet sahələr üzrə BMT ilə uzunmüddətli əməkdaşlığı yüksək qiymətləndirirəm.
Gələcəyə baxdıqda isə qarşımızda böyük çağırışların mövcudluğunu dərk etdiyimizi qeyd etməliyəm. Əminəm ki, bu problemlərin həlli istiqamətində BMT ilə əməkdaşlıq davam etdiriləcək. ”

*Hüseynqulu Bağırov, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri*

The Ombudsman (Commissioner for Human Rights) office in Azerbaijan was established in 2001 by the decision of the Parliament. During its early years, UNDP strengthened the capacity of the newly established office of the Ombudsman by providing training to its staff and creating regional centres. Since 2007, OHCHR has become a key UN partner of the Ombudsman office providing it with normative and capacity building support. OHCHR also works closely with civil society and legal professionals on UN Human Rights Mechanisms and the role of national stakeholders in promoting human rights.

2001-ci ildə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qərar əsasında Azərbaycanda İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) İnstitutu yaradılmışdır. İlk illərdə BMTİP Ombudsman Aparatının əməkdaşları üçün təlimlər keçməklə və regional mərkəzlərin açılması üçün köməklik göstərməklə yeni yaradılmış qurumun potensialının gücləndirilməsində iştirak etmişdir. 2007-ci ildən başlayaraq Ombudsman Aparatını zəruri normativ-hüquqi sənədlərlə təmin edən və potensialın artırılmasını dəstəkləyən İnsan Hüquqları üzrə Ali Komissarlıq (OHCHR) bu təsisatın əsas BMT tərəfdaşı hesab olunur. Bütün bunlarla yanaşı BMT-nin İnsan Hüquqları Mexanizmlərini və insan hüquqlarının təşviq edilməsində milli əlaqədar tərəflərin rolunu hərtərəfli təqdim etmək üçün OHCHR vətəndaş cəmiyyəti üzvləri və hüquq peşəkarları ilə yaxından iş aparır.



“As a result of 25 years of cooperation with the UN, the efficiency of the protection of human rights and freedoms has been increased and the legal framework and law defence system have been improved.
Society’s understanding of law, legal education and legal culture as well as civic engagement and participation in decision-making have been developed as a result of ensuring the rights of different groups of the population, structuring state bodies, developing activities, democratic governance, extensive scientific research works and awareness-raising activities. ”

*Ms. Elmira Suleymanova. Commissioner for Human Rights (Ombudsman) of Azerbaijan*

“BMT ilə 25 illik əməkdaşlıq nəticəsində insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyi artırılmış, normativ-hüquqi baza və hüquq müdafiə sistemi təkmilləşdirilmişdir.
Əhalinin müxtəlif qruplarının hüquqlarının təmin olunması, dövlət orqanlarının strukturlaşması, fəaliyyəti və demokratik idarəetmə inkişaf etmiş, geniş elmi tədqiqat işləri, maarifləndirmə tədbirləri nəticəsində insanların hüquq düşüncəsi, hüquqi tərbiyə və hüquq mədəniyyəti, habelə vətəndaş fəallığı və qərar qəbul edilməsində də iştirakı genişlənmişdir. “

*Elmira Suleymanova, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman)*



Members of civil society and legal professionals attend training organised by OHCHR.
*OHCHR Photo/ September 2015*

Vətəndaş cəmiyyəti üzvləri və hüquq peşəkarları OHCHR-ın təşkil etdiyi təlimdə iştirak edirlər.
*OHCHR-ın fotosu/Sentyabr 2015-ci il*

In 2006, the Special Rapporteur of the UN Commission on Human Rights (now Human Rights Council) on freedom of religion, Asma Jahangir, visited Azerbaijan and reported that she found an "undisputable degree of tolerance" of the population, which is an essential ingredient of the freedom of religion or belief in a society.

2006-cı ildə Azərbaycana səfər etmiş BMT-nin İnsan Hüquqları Komissiyasının (hazırkı İnsan Hüquqları Şurasının) Əqidə azadlığı üzrə xüsusi məruzəçisi Asma Cahangir əhali arasında mövcud olan dözümlülük səviyyəsinin təsəvvür olunmaz dərəcədə xoş təəssürat yaratdığını qeyd edərək, bu amilin cəmiyyətdə əqidə və ya din azadlığı üçün əsas element olduğunu bildirmişdir.



Asma Jahangir, Special Rapporteur of the UN Commission on Human Rights meets with a representative of a religious minority in Baku.
*UNO Azerbaijan Photo/March 2006*

BMT-nin İnsan Hüquqları Komissiyasının Xüsusi məruzəçisi Asma Cahangir dini azlığın nümayəndəsi ilə Bakı şəhərində görüşür.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/Mart 2006-cı il*

Since the first post-independence census in 1999, UNFPA has supported the work of State Statistical Committee by providing capacity-building training, assistance with data processing and advocacy campaigns.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra əhalinin siyahıyaalınmasını ilk dəfə 1999-cu ildə keçirmək üçün UNFPA Dövlət Statistika Komitəsinə potensialın artırılması, verilənlərin emalı və təbliğat kampaniyasının keçirilməsi ilə bağlı köməklik göstərib.




Advocacy banner for the 2009 population census.
*UNFPA Azerbaijan Photo/2009*

2009-cu il əhalinin siyahıyaalınmasına aid təbliğat banneri.
*UNFPA-nın Azərbaycandakı Nümayəndəliyinin fotosu/2009-cu il*






"Of the eighteen years that I lived in Azerbaijan, the years with UNDP as its Chief Technical Adviser for the development of the civil society in Azerbaijan were the most gratifying years of my life. I was distinctly amazed to see the enthusiasm, to promote the growth and development of the nascent NGO sector in Azerbaijan. Their contribution to the development of social, political and economic sectors of Azerbaijan is unquestionably commendable. "

*Lutful Kabir, Chief Technical Adviser of UNDP NGO Development project (1997-2001)*

"Azərbaycanda yaşadığım 18 il ərzində bu ölkənin vətəndaş cəmiyyətinin inkaşafı üzrə BMTİP-in Baş texniki müşaviri vəzifəsində çalışdığım illəri həyatımın ən fərəhli dövrü hesab edirəm. Azərbaycanda yeni yaranan QHT sektorunun inkişafı və QHT-lərin sayının artması ilə bağlı gördüyüm həvəs və coşğu məni sözün yaxşı mənasında təəccübləndirirdi. Şübhəsiz ki, Azərbaycanın sosial, siyasi və iqtisadi sektorlarının inkişafı üçün QHT-lərin verdiyi töhfələr təqdirəlayiq hesab olunmalıdır. "

*Lütfül Kabir, QHT inkişafı üzrə BMTİP layihəsinin Baş texniki müşaviri (1997-2001-ci illər)*

UN Department for Economic and Social Affairs (UNDESA) and UNDP have partnered with the Government to strengthen the national NGO sector in Azerbaijan. In 1998, an NGO Resource and Training Centre (NRTC) was established as part of the project to provide national NGOs with access to training, conference hall, computer centre, library, etc. The management of the NRTC was eventually taken over in 2000 by an NGO Forum.

Azərbaycanda milli QHT sektorunu gücləndirmək məqsədilə BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti (UNDESA) və BMTİP Azərbaycan hökuməti ilə tərəfdaşlıq edmişdir. 1998-ci ildə milli QHT-ləri təlim imkanları, iclas zalı, kompüter mərkəzi, kitabxana və s. ilə təmin etmək məqsədi daşıyan layihə çərçivəsində QHT-lərin Resurs və Təlim Mərkəzi (QRTM) yaradılmışdır. Nəticədə 2000-ci ildə QHT Forumu QRTM-in idarə olunması vəzifəsini öz üzərinə götürmüşdür.



Representatives of NGOs vote to officially approve the establishment of the NGO Forum.
*UNO Azerbaijan Photo/July 1999/H. Babayev*

QHT nümayəndələri QHT Forumunun yaradılmasını rəsmən təsdiq etmək üçün səsvermədə iştirak edirlər.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyul 1999-cu il/H. Babayev*




UN Agencies have contributed to Azerbaijan's institutional development and good governance. One example of this has been through the enhanced use of information communication technologies and automated procedures in government-provided services, such as the pension system and other processes administered by the State Social Protection Fund (SSPF). Since 2002 UNDP has assisted the Government in creating a National Internet Infrastructure. A National e-Government Network Initiative, also supported by UNDP, has contributed to efficiency, transparency and accountability in the public sector through the delivery of services and protection of rights of citizens.

UNDP has been a close partner of "ASAN Service" and has provided technical assistance to strengthen its professional and operational capacities. It helped with the preparation of ASAN's Strategic Management Plan, building capacity for ISO 9001:2008, certification and training for its staff. In 2015 ASAN won the UN Public Service Award. UNDP continues to help ASAN become a centre of excellence for public service delivery in south-south cooperation.

BMT agentlikləri Azərbaycanda institusional inkişaf və səmərəli idarəçilik üçün öz töhfələrini verirlər. Hökumət tərəfindən göstərilən xidmətlər, o cümlədən Dövlət Sosial Müdafiə Fondunun (DSMF) idarə etdiyi pensiya sistemi və digər proseslər üçün informasiya kommunikasiya texnologiyalarından və avtomatlaşdırılmış prosedurlardan istifadənin artırılmasını buna bir misal kimi göstərmək olar. 2002-ci ildən etibarən BMTİP Milli İnternet İnfrastrukturunun yaradılmasında Azərbaycan hökumətinə köməklik göstərir. Bununla yanaşı, BMTİP tərəfindən dəstəklənən Milli E-idarəçilik Şəbəkəsi Təşəbbüsü dövlət sektorunda zəruri xidmətlər göstərməklə və vətəndaşların hüquqlarını müdafiə etməklə səmərəliliyin, şəffaflığın və hesabatlılığın artmasına şərait yaratmışdır.

ASAN xidmətin peşəkarlıq və əməliyyat potensiallarını gücləndirmək üçün texniki yardım göstərən BMTİP bu Xidmətlə yaxından əməkdaşlıq edir. Təşkilat ASAN xidmətin Strateji İdarəetmə Planının hazırlanması, "ISO 9001:2008" standartı üzrə potensialın yaradılması, əməkdaşların təlimləndirilməsi və sertifikatlaşdırılması istiqamətində kömək göstərmişdir. 2015-ci ildə ASAN xidmət BMT-nin İctimai Xidmət Mükafatına layiq görülmüşdür. BMTİP ictimai xidmətlər göstərən ASAN xidmətin mükəmməlik mərkəzinə çevrilərək öz təcrübəsini Cənub-Cənub Əməkdaşlığı çərçivəsində başqa ölkələrlə bölüşməsi üçün köməklik göstərməyi davam etdirəcək.

◄ Helen Clark, UNDP Administrator, visits an ASAN Service Centre in Sumgait.
*UNDP Azerbaijan Photo/October 2014*

BMTİP-in rəhbəri Helen Klark Sumqayıt şəhərindəki "ASAN xidmət" mərkəzinə səfər edir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2014-cü il*

A traveler using e-Services and software applications integrated with ASANPAY terminals at Heydar Aliyev International Airport in Baku for the payment of duties and fines.
*IOM Photo/June 2017*

*Səyahət edən şəxs Bakı Heydər Əliyev Beynəlxalq Hava Limanında ASANPAY terminallarına inteqrə edilmiş elektron xidmətlər və proqram təminatından istifadə edərək, rüsum və cərimələri ödəyir.*
*BMqT-nin fotosu/İyun 2017*





Inam Karimov, Chairman of the State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan (ASAN Service) receives the United Nations Public Service Award 2015 from Lenni Montiel, the United Nations Assistant Secretary-General for Economic Development in the Department of Economic and Social Affairs during the Award Ceremony in Medellin, Colombia.
*ASAN Service Photo/June 2015*



Kolumbiyanın Medelin şəhərində keçirilən mükafatlandarma mərasimi zamanı BMT-nin İqtisadi və Sosial məsələlər üzrə Deprtamentində Baş katibin iqtisadi inkişaf üzrə köməkçisi Lenni Montiel BMT-nin 2015-ci il üçün İctimai Xidmət Mükafatını Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN xidmətin) sədri İnam Kərimova təqdim edir.
*ASAN xidmətin fotosu/İyun 2015-ci il*




Baku hosts UN-supported Internet Governance Forum.
*UNDP Azerbaijan Photo/November 2012*

BMT-nin dəstəyilə keçirilən İnternet İdarəçilik Forumuna Bakı ev sahibliyi edir.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Noyabr 2012-ci il*



President Ilham Aliyev visits UNDP's stand at the Azerbaijan International Telecommunications and Information Technologies Exhibition and Conference, Bakutel 2014.
*UNDP photo/December 2014*

Prezident İlham Əliyev Azərbaycan Beynəlxalq "Telekommunikasiya və İnformasiya texnologiyaları" ("Bakutel" 2014) sərgi və konfransında BMTİP-in stendinə baş çəkir.
*BMTİP-nin fotosu/dekabr 2014*





UN Agencies have worked in partnership with the Government of Azerbaijan and other partners in the areas of border management and customs. For instance, IOM has continuously supported the Government of Azerbaijan in strengthening institutional and technical capacities for effective migration and border management, through the development and introduction of new and innovative e-Services and software applications. Some of these are integrated into online payment systems, such as ASANPAY terminals which are found at the Heydar Aliyev International Airport in Baku. Between 2001 and 2009, UNDP worked in partnership with the European Union and the Governments of Azerbaijan and Georgia within the Southern Caucasus Anti-Drug (SCAD) project to combat illicit drug trafficking, as well as in partnership with the European Commission to modernise customs legislation and to enhance the application of information technologies in the State Customs Committee. More recently, UNDP has been providing technical assistance to the Red Bridge Project on the border with Georgia, aimed at aligning customs regulations and infrastructure with EU standards.

BMT agentlikləri sərhəd idarəçiliyi və gömrük nəzarəti sahələrində Azərbaycan hökuməti ilə və digər əlaqədar tərəfdaşlarla yaxından əməkdaşlıq edirlər. Məsələn, BMqT yeni və innovasiyalı elektron xidmətlər və proqram təminatları işləyib hazırlamaqla və tətbiq etməklə səmərəli miqrasiya və sərhəd idarəçiliyi üçün institusional və texniki potensialların gücləndirilməsi istiqamətində hökumətə davamlı dəstək verir. Bu cür vasitələrin bəziləri Heydər Əliyev Beynəlxalq Hava Limanında quraşdırılmış ASANPAY terminalları kimi onlayn ödəniş sistemlərinə inteqrasiya edilib. 2001-2009-cu illərdə BMTİP narkotik maddələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə aparmaq üçün "Cənubi Qafqazda narkotiklərə nəzarət (SCAD)" Regional Proqramı çərçivəsində Aİ, Azərbaycan və Gürcüstan hökumətləri ilə, habelə gömrük qanunvericiliyini müasirləşdirmək və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsində informasiya texnologiyalarının tətbiqini artırmaq üçün Avropa Komissiyası ilə tərəfdaşlıq edirdi. Yaxınlarda BMTİP gömrük qanunvericiliyinin və infrastrukturunun Aİ standartlarına uyğunlaşdırılması məqsədi daşıyan "Azərbaycan və Gürcüstan arasında Qırmızı Körpü sərhəd-keçid məntəqəsinin inkişafına dəstək" layihəsi çərçivəsində müvafiq texniki yardım göstərmişdir.

Marco Borsotti, UNDP Resident Representative and Aydin Aliyev, Chairman of State Customs Committee, at the signing ceremony for the Modernisation of Customs project in Baku, with Alan Waddams, Special Envoy of the European Union to Azerbaijan (standing behind).
*UNDP Azerbaijan Photo/June 2006.*

BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Marko Borsotti, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev və Avropa İttifaqının Azərbaycandakı xüsusi təmsilçisi Alan Uaddams (arxada) Gömrük xidmətlərinin müasirləşdirilməsi Layihəsinin Bakı şəhərində imzalanması mərasimində iştirak edirlər.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 2006-cı il*


ევროკავშირი




Ghulam Isaczai, UNDP Resident Representative, and Malena Mard, Head of EU Delegation to Azerbaijan lay the first stone of the customs terminal complex, which will play the role of a logistics hub at the Azerbaijani-Georgian border.
*UNDP Georgia Photo/March 2017*

BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Qulam İsakzai və Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Malena Mard Azərbaycan və Gürcüstan arasında dövlət sərhədində loqistik mərkəz rolunu oynayacaq gömrük terminal kompleksinin təməlqoyma mərasimində iştirak edirlər.
*BMTİP-in Gürcüstandakı Nümayəndəliyinin fotosu/ Mart 2017-ci il*



Marco Borsotti, UNDP Resident Representative, and Abulfas Garayev, Minister of Youth, Sport and Tourism (now Culture and Tourism) officially open the first TIC in Azerbaijan.
*UNDP Azerbaijan Photo/February 2005*

BMTİP-in Azərbaycandakı rezident nümayəndəsi Marko Borsotti və Azərbaycan Respublikasının Gənclər, İdman və Turizm (hazırda Mədəniyyət və Turizm) naziri Əbülfəs Qarayev ilk Turizm İnformasiya Mərkəzinin rəsmi açılış mərasimində iştirak edirlər.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Fevral 2005-ci il*

UNDP has also partnered with the Government to strengthen national capacity in the tourism sector and establish Tourism Information Centres (TIC) across the country. Between 2005 and 2009, seven TICs were established in Baku and six regions to help link tourism businesses with clients and create jobs in the tourism sector.

Turizm sektorunda milli potensialı gücləndirmək və ölkədə Turizm İnformasiya Mərkəzlərini (TİM) yaratmaq məqsədilə BMTİP Azərbaycan hökuməti ilə tərəfdaşlıq edib. Turizm biznesinin müştərilərlə əlaqələndirilməsinə kömək göstərmək və turizm sektorunda yeni iş yerləri açmaq üçün 2005-2009-cu illər ərzində Bakı şəhərində və ölkənin altı regionunda yeddi TİM yaradılmışdır.



“Improving skills and training specialists engaged in the tourism industry is critical for the overall development of tourism sector which, in turn, helps reduce poverty.

It was a natural decision for UNDP and the Government to include Azerbaijan Tourism Institute (currently, Azerbaijan Tourism and Management University) as a beneficiary of their joint efforts to boost tourism development in the country soon after its establishment in 2005. Today, the first graduates of this Institute are employed in various managerial positions in Azerbaijan's quickly-developing tourism sector, contributing to the country's non-oil sector development.”

*Jafar Jafarov, Rector of Azerbaijan State Pedagogical University (former Rector of Azerbaijan Tourism Institute)*

“Bacarıqların inkişaf etdirilməsi və turizm sənayesində çalışan mütəxəssislərin təlimləndirilməsi turizm sektorunun ümumi inkişafı baxımından xüsusi əhəmiyyət kəsb etməklə yanaşı yoxsulluğun azaldılmasına da şərait yaradır.

Ölkədə turizmin inkişafının təmin edilməsi istiqamətində BMTİP və Azərbaycan hökuməti tərəfindən atılan birgə səylərdən faydalanan tərəflər sırasına Azərbaycan Turizm İnstitutunun (hazırkı Azərbaycan Turizm və Menecment Universitetinin) 2005-ci ildə yaradılmasından sonra tez bir vaxtda daxil edilməsi qərarı təbii hesab olunmalıdır. Bu gün həmin institutun birinci nəsil məzunları Azərbaycanın sürətlə inkişaf edən turizm sektorunun müxtəlif rəhbər vəzifələrində çalışaraq ölkənin qeyri-neft sektorunun inkişafına öz töhfələrini verirlər.”

*Cəfər Cəfərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru (Azərbaycan Turizm İnstitutunun sabiq rektoru)*



President Heydar Aliyev is presented with UNESCO's Simon Bolivar medal by UNESCO Director General Federico Mayor, during his visit to Azerbaijan to participate in the commemoration of the 500th anniversary of the birth of the great Azerbaijani poet and philosopher of Middle Ages Fuzuli.
*UNESCO National Commission of Azerbaijan Photo/November 1996/H. Babayev*

Orta əsrlərdə yaşamış dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyi münasibətilə keçirilən tədbirdə iştirak etmək üçün Azərbaycana səfəri zamanı YUNESKO-nun Baş direktoru Federiko Mayor Prezident Heydər Əliyevi “Simon Bolivar” medalı ilə təltif edir.
*Azərbaycan Respublikasının YUNESKO üzrə milli Komissiyasının fotosu/Noyabr 1996-cı il/H. Babayev*

The UN has encouraged the promotion and preservation of Azerbaijan's rich cultural heritage. Historical monuments of Azerbaijan such as the Old City of Baku (Icherisheher) with Shirvanshahs' Palace and Maiden Tower and Gobustan Rock Art Cultural Landscape have been included in the UNESCO World Heritage List. Anniversaries of historic events and great personalities of Azerbaijan are celebrated at the UNESCO Headquarters almost every year.

Another contribution in this area was the establishment of a trust fund to support the Azerbaijan State Academic Opera and Ballet Theatre in 1998. UN also supported to the production of a catalogue of the National Carpet Museum's collection, as part of the UNDP cultural heritage project.

In addition, the UN System has been involved in the revival of rural traditional practices. Since 1999, starting with the Nakhchivan Autonomous Republic, IOM has been supporting Azerbaijan in reviving kahrizes, traditional man-made water systems, to facilitate the enhanced access of rural communities to energy free water resources for irrigation and drinking purposes. So far, thousands of households and tens of thousands of individuals have benefitted from improved access to potable and irrigation water which has increased productivity in agriculture, improved livelihoods and raised household incomes across the country.

BMT Azərbaycanın zəngin mədəni irsinin təşviq olunması və qorunması işinə də dəstək vermişdir. Azərbaycanın tarixi abidələri olan paytaxt Bakının İçərişəhər, Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi, habelə Qobustan Milli tarix-bədii qoruğu YUNESKO-nun Dünya Maddi İrs Siyahısına salınıb. Demək olar ki, hər il YUNESKO-nun iqamətgahında Azərbaycanın tarixi hadisələrinin ildönümü və dahi şəxsiyyətlərinin yubiley mərasimləri keçirilir.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına dəstək vermək məqsədilə Yardım Fondunun təsis edilməsi bu sahəyə verilmiş başqa bir töhfə hesab oluna bilər. Eyni zamanda, Mədəni irsin qorunmasına dair BMTİP layihəsi çərçivəsində Azərbaycan Xalça Muzeyinin kolleksiyasından ibarət kataloqun hazırlanması da BMT tərəfindən dəstəklənmişdir.

Bundan başqa, BMT sistemi kənd yerləri üçün ənənəvi hesab olunan peşələrin canlandırılması işinə köməklik göstərmişdir. 1999-cu ildən etibarən BMqT Naxçıvan Muxtar Respublikasından başlayaraq elektrik enerjisi tələb etməyən suvarma və içməli su ehtiyatlarının yerli icmalar üçün əlçatımlığını yetərincə təmin etmək məqsədilə ənənəvi qazma su sistemləri olan kəhrizlərin bərpası istiqamətində Azərbaycan hökumətinə köməklik göstərir. Bu günədək minlərlə ev təsərrüfatı və on minlərlə insan içməli və suvarma su mənbələrindən istifadə imkanlarının təkmilləşməsindən faydalanmışdır ki, bu da ölkədə kənd təsərrüfatı sahəsində məhsuldarlığın artmasına, yaşayış şəraitinin yaxşılaşmasına və ev təsərrüfatlarının gəlirlərinin çoxalmasına gətirib çıxarmışdır.



Inauguration of the renovated ballet hall of Azerbaijan State Academic Opera and Ballet Theatre.
*UNO Azerbaijan Photo/October 1998/H. Babayev*

Bakı şəhərində yerləşən Dövlət Akademik Opera və Balet Teatrının təmirdən çıxmış Balet Zalının açılışı.
*BMT-nin Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 1998-ci il/H. Babayev*





"It was in the late 1990s when the country faced economic hardships that the UN initiated the establishment of the Opera House Trust Fund. This was not just financial assistance, but also a great contribution to the preservation and development of Azerbaijani culture. "

*Akif Melikov, Director of Azerbaijan State Academic Opera and Ballet Theatre*

"Ölkədə iqtisadi çətinliklərin mövcud olduğu 1990-cı illərin sonlarında Dövlət Akademik Opera və Balet Teatrı üçün Yardım Fondunun yaradılması təşəbbüsü BMT tərəfindən irəli sürülmüşdür. Bu sadəcə olaraq maddi yardım deyildi, Azərbaycan mədəniyyətinin qorunub saxlanması və inkişafı üçün böyük bir töhfə idi. "

*Akif Məlikov, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının direktoru*



A Kankan renovates a kahriz in Nakhchivan Autonomous Republic.
*IOM Photo/2010/Mila Teshaieva*

Naxçıvan Muxtar Respublikasında kəhrizi bərpa etmək üçün qazma işləri aparan kankan.
*BMqT-nin fotosu/2010-cu il/Mila Teşayeva*



# TOWARDS THE FUTURE

# GƏLƏCƏYƏ DOĞRU

On 25 September 2015, 193 UN Member States, including Azerbaijan, adopted the *2030 Agenda for Sustainable Development*, with 17 universal Suatainable Development Goals (SDGs) and 196 targets to be achieved by 2030. Today, 18 United Nations resident and non-resident agencies, continue to work in close partnership with the Government and support Azerbaijan's efforts to achieve these 17 Sustainable Development Goals. In 2016, the United Nations and the Government of Azerbaijan concluded a new cooperation agreement with the signing of the United Nations-Azerbaijan Partnership Framework (UNAPF) for the period of 2016-2020. This is the fourth cooperation document to have been signed between the United Nations agencies and the Government which marks a transition from assistance-based to a partnership-based cooperation. The framework was guided by the country's development aspirations as set out in 'Azerbaijan - 2020: The Vision of the Future' and was developed following inclusive and participatory consultations with a number of partners.

The UNAPF outlines United Nations support to Azerbaijan's national development priorities in close cooperation with the Government, civil society, the private sector in three strategic and interlinked areas: i) promoting sustainable and inclusive economic development underpinned by increased diversification and decent work; ii) strengthening institutional capacities and effective public and social services; and iii) improving environmental management and resilience to hazards and disasters.

One of the primary aims of the United Nations-Azerbaijan Partnership Framework 2016 - 2020 is to achieve equality and broaden development opportunities for all vulnerable groups, internally displaced persons, refugees, women, children, youth and the elderly. To achieve this, the UN agencies will strive to strengthen national capacities to ensure that international human rights mechanisms and standards including gender equality norms are substantively mainstreamed into key policy planning and implementation processes at national and local levels.

25 sentyabr 2015-ci il tarixində Azərbaycan da daxil olmaqla BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini" qəbul etmişdir. Gündəliyə 2030-cu ilədək nail olunması nəzərdə tutulan 17 məqsəd və 169 hədəf daxildir. Hazırda Birləşmiş Millətlər Təşkilatının 18 rezident və qeyri-rezident agentliyi Hökumətlə yaxından əməkdaşlığı davam etdirir və 17 Dayanıqlı İnkişaf Məqsədinə nail olma istiqamətində Azərbaycanın səylərini dəstəkləyir. 2016-cı ildə Birləşmiş Millətlər Təşkilatı və Azərbaycan Respublikası Hökuməti yeni əməkdaşlıq sazişi hesab olunan 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədini (UNAPF) imzalamışdırlar. BMT və Azərbaycan hökuməti arasında bağlanmış dördüncü əməkdaşlıq sazişi olan bu sənəd yardıma əsaslanan tərəfdaşlıqdan əməkdaşlığa əsaslanan tərəfdaşlığa keçidi nəzərdə tutur. Bu Çərçivə Sənədi ölkənin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası adlı sənədində təsbit olunmuş inkişaf meyllərini rəhbər tutaraq bir sıra tərəfdaşlarla aparılmış inkluziv və iştiraklı məsləhətləşmələr əsasında işlənib hazırlanmışdır.

Sözügedən Çərçivə Sənədində Azərbaycanın milli inkişaf prioritetlərinin BMT tərəfindən hökumətlə, vətəndaş cəmiyyəti ilə və özəl sektorla yaxından əməkdaşlıq etməklə üç strateji və qarşılıqlı əlaqədə olan sahədə dəstəklənməsi nəzərdə tutulur: 1) iqtisadi şaxələndirmə və layiqli əmək imkanlarını artırmaqla dayanıqlı və inkluziv iqtisadi inkişafın təşviqi; 2) dövlət və sosial sektorlarda institusional potensialların və səmərəliliyin gücləndirilməsi; və 3) təbii təhlükələrə və fəlakətlərə qarşı ekoloji idarəetmənin təkmilləşdirilməsi və dayanıqlığın artırılması.

2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədinin əsas məqsədlərindən biri bərabərliyə nail olmaqdan və əhalinin bütün həssas qrupları, məcburi köçkünlər, qaçqınlar, qadınlar, uşaqlar, gənclər və yaşlılar üçün inkişaf imkanlarını genişləndirməkdən ibarətdir. Buna nail olmaq üçün əsas siyasətlərin milli və yerli səviyələrdə planlaşdırılması və yerinə yetirilməsi proseslərində beynəlxalq insan hüquqları mexanizmlərinin və standartlarının, o cümlədən gender bərabərləyi normalarının hərtərəfli və əsaslı şəkildə tətbiq olunmasını təmin etmək məqsədilə BMT agentlikləri milli potensialları gücləndirməyə çalışacaqlar.




Ghulam Isaczai, UN Resident Coordinator, and Shahin Mustafayev, Minister of Economy of Azerbaijan sign the United Nations - Azerbaijan Partnership Framework for 2016-2020 at a ceremony in Baku.
*UNDP Azerbaijan Photo/July 2016*

Bakı şəhərində təşkil olunmuş imzalanma mərasimində BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai və Azərbaycan Respublikasının İqtisadiyyat naziri Şahin Mustafayev 2016-2020-ci illər üçün Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədini imzalayırlar.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyul 2016-cı il*

In 2015, 193 UN Member States, including Azerbaijan adopted the *2030 Agenda for Sustainable Development* with its 17 Goals and 169 targets to be achieved by 2030.
*UNDP Azerbaijan Photos/August 2016*

2015-ci ildə BMT-nin 193 üzv dövləti, o cümlədən Azərbaycan Respublikası 2030-cu ilədək nail olunması nəzərdə tutulan 17 məqsəd və 169 hədəfdən ibarət *"2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini"* qəbul etmişdir.
*BMTİP-in Azərbaycan Nümayəndəliyinin fotoları/Avqust 2016*

# SUSTAINABLE DEVELOPMENT GOALS





















Youth participants take part in the second round of national consultations on the Post-2015 Development Agenda.
*UNDP Azerbaijan Photo/June 2014*

Gənclər “Post-2015 İnkişaf Gündəliyi” ilə bağlı milli məsləhətləşmələrin ikinci raundunda iştirak edirlər.
*BMTİP-in Azərbaycan Nümayəndəliyinin fotosu/İyun 2014*

The Government, with the support of the United Nations, has taken an active part in the consultation process leading to the adoption of the *2030 Agenda* from an early stage. It conducted two rounds of national consultations in 2013 and 2014 with members of the public, as well as youth organisations and civil society. These consultations which attracted the participation of more than 3,500 people in a variety of ways played a significant role in ensuring that the Post-2015 Development Agenda reflected the wishes of a wide range of people globally.

Birləşmiş Millətlər Təşkilatının dəstəyi ilə Azərbaycan hökuməti bu *Gündəliyin* hazırlanması prosesində ilkin mərhələlərdən fəal iştirak etmişdir. 2013 və 2014-cü illərdə hökumət geniş ictimaiyyətin, habelə gənclər təşkilatlarının və vətəndaş cəmiyyətinin nümayəndələri ilə iki raund milli məsləhətləşmələr aparmışdır. Dünya əhalisinin fərqli təbəqələrinə məxsus istəklərin “Post-2015 İnkişaf Gündəliyində” əks olunmasını təmin etmək məqsədilə bu məsləhətləşmələrə cəlb olunaraq müxtəlif səviyyələrdə iştirak etmiş 3. 500 nəfərdən çox insan vacib rol sahibi olmuşdur.




Ghulam Isaczai, UN Resident Coordinator and Ali Ahmedov, Deputy Prime Minister and the Chairperson of the National Coordination Council for Sustainable Development shaking hands at a panel discussion in Baku on the role of civil society in achieving the SDGs.
*UNDP Azerbaijan Photo/May 2017*

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İsakzai ilə Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədovun DİM-lərə nail olma istiqamətində vətəndaş cəmiyyətinin roluna dair panel müzakirələr zamanı əl görüşməsi.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/May 2017-ci il*

Azerbaijan's political commitment to achieving the *2030 Agenda* has been demonstrated at the highest level when the President of Azerbaijan signed a decree creating the National Coordination Council for Sustainable Development (NCCSD) on 6 October 2016. The main aim of the Council is to coordinate the efforts of the government and other national actors in the nationalisation, mainstreaming and monitoring of the SDGs. Ever since its establishment, the Council has been closely collaborating with the United Nations agencies on the adoption and nationalisation of the SDGs availing itself of the vast of array of knowledge, experience and expertise available within the United Nations system.

2016-cı il oktyabrın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının (DİMƏŞ) yaradılması haqqında Fərman imzalamaqla "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyini" yerinə yetirmək üçün ölkənin siyasi öhdəliklərini ən yüksək səviyyədə nümayiş etdirmişdir. Şuranın əsas vəzifəsi DİM-lərin milli səviyyədə mənimsənməsi, hərtərəfli təmin olunması və monitorinq edilməsi istiqamətində hökumətin və aidiyyəti olan digər milli təşkilatların səylərini əlaqələndirməkdən ibarətdir. Yarandığı tarixdən etibarən bu Şura DİM-lərin milli səviyyədə qəbul olunması və mənimsənməsi üçün BMT agentlikləri ilə yaxından əməkdaşlıq edərək Birləşmiş Millətlər sisteminin malik olduğu geniş və zəngin biliklərdən, təcrübədən və ekspertizadan hərtərəfli istifadə etməkdədir.




Deputy Prime Minister and Chairperson of the National Coordination Council for Sustainable Development, Ali Ahmedov, meets with UNDP Administrator Achim Steiner during his visit to the United Nations Headquarters for the High-Level Political Forum on Sustainable Development.
*AZERTAC Photo/July 2017*

Yüksək Səviyyəli Siyasi Forumda iştirak etmək üçün Birləşmiş Millətlər Təşkilatının mənzil qərargahına səfəri zamanı Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMTİP-in rəhbəri Axim Ştaynerlə görüşür.
*""AZƏRTAC"-ın fotosu /İyul 2017-ci il*

In July 2017, Azerbaijan was among 43 countries to report its progress towards achieving the SDGs as part of the Voluntary National Review (VNR) to the High-Level Political Forum at the United Nations Headquarters in New York. The Forum provides an important platform for countries to share their plans, progress and experiences with each other.

2017-ci ilin iyul ayında Birləşmiş Millətlər Təşkilatının Nyu-York şəhərindəki mənzil qərargahında keçirilən Yüksək Səviyyəli Siyasi Forum zamanı Könüllü Milli Hesabat (KMH) çərçivəsində MİM-lərə nail olma istiqamətində irəliləyişlər barədə hesabat vermiş 43 ölkə arasında Azərbaycan da yer almışdır. Bu Forum ölkələr arasında planlar, nailiyyətlər və təcrübələrin mübadiləsi üçün vacib platforma rolunu oynayır.




Ali Ahmedov and the delegation of the Republic of Azerbaijan present the first VNR of Azerbaijan during the High-Level Political Forum on Sustainable Development held in New York.
*AZERTAC Photo/July 2017*

Nyu-York şəhərində keçirilən Yüksək Səviyyəli Siyasi Forum zamanı Azərbaycan Respublikası Baş nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov və Azərbaycanın nümayəndə heyəti ölkənin ilk Könüllü Milli Hesabatını təqdim edirlər.
*"AZƏRTAC"-ın fotosu /İyul 2017-ci il*





As part of its commitment to global goals and agreements, Azerbaijan took a major step in signing and ratifying the Paris Agreement under the United Nations Framework Convention on Climate Change along with 173 other countries. Essential for the achievement of the SDGs, all countries agreed to work to limit global temperature rise to well below 2 degrees Celsius. The United Nations stands ready to support Azerbaijan's commitments under the Paris Agreement.

Qlobal məqsədlər və sazişlərlə əlaqədar öz üzərinə götürdüyü öhdəliklərin bir hissəsi kimi Azərbaycan Respublikası BMT-nin "İqlim dəyişikliyinə dair" Çərçivə Konvensiyasına əsasən Paris İqlim Sazişinin imzalanması və ratifikasiyası istiqamətində digər 173 ölkə ilə yanaşı vacib addımlar atmışdır. Bu Sazişə əsasən bütün ölkələr havanın orta temperaturunun 2 oC çox yüksəlməməsi üçün tədbirlər görmək barədə razılığa gəlmişdirlər. Bununla əlaqədar Birləşmiş Millətlər Təşkilatı Azərbaycan Respublikasının Paris İqlim Sazişindən irəli gələn öhdəliklərini təmin etmək üçün dəstək verməyə daim hazırdır.

Huseyngulu Baghirov, Minister of Ecology and Natural Resources of the Republic of Azerbaijan, signs the Paris Agreement on Climate Change at the signing ceremony in New York.
*UN Photo/April 2016/Rick Bajornas*

Nyu-York şəhərində təşkil olunmuş imzalanma mərasimində Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov İqlim Dəyişikliyinə dair Paris Sazişini imzalayır.
*BMT-nin fotosu/Aprel 2016-cı il/Rik Baxornas*

During a relatively short timeframe since its independence, Azerbaijan has transformed itself from a transition economy into an upper middle income country with a high human development index. This progress has made Azerbaijan an assertive and important international and regional player and an emerging humanitarian and development donor through the establishment of the Azerbaijan International Development Agency (AIDA) in 2011. Throughout the last 25 years, Azerbaijan has accumulated a wealth of experience, technical knowledge, expertise and best practices that can be shared with other countries,. The United Nations is keen to support Azerbaijan's ambitions to export its knowledge and expertise to other countries within the framework of South-South Cooperation.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra nisbətən qısa bir müddət ərzində Azərbaycan Respublikası iqtisadi baxımından keçid dövrünü keçən ölkədən gəlirləri orta səviyyədən yuxarı olan və yüksək insan inkişafı indeksinin qeydə alındığı ölkə səviyyəsinədək qalxmışdır. Bu cür irəliləyiş nəticəsində Azərbaycan Respublikası 2011-ci ildə Beynəlxalq İnkişafa Yardım Agentliyini (AİDA) yaratmaqla beynəlxalq və regional miqyasda baş verən proseslərin iddialı və əhəmiyyətli iştirakçısına, habelə humanitar və inkişaf məsələləri üzrə donora çevrilmişdir. Son 25 il ərzində Azərbaycan Respublikası digər ölkələrlə bölüşə biləcəyi zəngin və qabaqcıl təcrübəni, texniki bilikləri, mükəmməl səriştə və bacarıqları əldə etmişdir. Cənub-Cənub Əməkdaşlığı Çərçivəsində Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın öz bilik və təcrübəsini başqa ölkələrə ixrac etmək niyyətini dəstəkləməkdə israrlıdır.



As part of a UNDP-supported visit, a delegation of 26 officials from Afghanistan, headed by Mr. Amirzai Sangin, Minister of Communications and Information Technology of the Islamic Republic of Afghanistan, got acquainted with Azercosmos premises, the Main Satellite Ground Control Station of the Azerbaijan Space Agency in Baku within the framework of South-South Cooperation.
*UNDP Azerbaijan Photo/June 2013*

Cənub-Cənub Əməkdaşlığı çərçivəsində BMTİP-in dəstəyi ilə həyata keçirilən səfər zamanı Əfqanıstan İslam Respublikasının Kommunikasiya və İnformasiya Texnologiyaları naziri Əmirzai Sanqinin rəhbərlik etdiyi 26 yüksək vəzifəli şəxsdən ibarət Əfqanıstan nümayəndə heyəti Azərbaycan Milli Aerokosmik Agentliyinin Bakı şəhərindəki Əsas Yerüstü Peyk İdarəetmə Stansiyası ilə, "Azərkosmos"la tanış olur.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/İyun 2013-cü il*

As we enter a new chapter of relationship between the United Nations and Azerbaijan, it is evident that after 25 years of a very fruitful partnership, we have in place a solid foundation over which we can build a better future for all Azerbaijanis.

Beləliklə, biz Birləşmiş Millətlər Təşkilatı ilə Azərbaycan Respublikası arasında münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyaraq tam əminliklə bəyan edə bilərik ki, 25 il davam edən çox məhsuldar tərəfdaşlıq nəticəsində bütün azərbaycanlılar üçün daha yaxşı gələcək qurmaq nöqteyi-nəzərindən möhkəm zəmin yaradılmışdır.



"25 years of presence in Azerbaijan! Since independence, Azerbaijan has made formidable efforts to become a full member of the international community and has rapidly developed in social and economic spheres. During this period the UN has been a true partner to the Government of Azerbaijan and to its people by contributing to its development efforts while the national authorities have cooperated with UN officials by supporting and trusting them fully.

Today, Azerbaijan, 25 years later, has a strong presence in the Caucasus. It keeps pace with the latest technological developments and applies them for the benefit of its people. Baku is becoming an increasingly important cultural and sporting centre, sharing its experience and facilities both within and outside of the region. The international community acknowledges the vast progress Azerbaijan has achieved during the short period of time since its independence. The UN in Azerbaijan is proud of being part of the progress in the country so far and is ready to continue to support the country in its ongoing journey towards better days!"

*Ercan Murat, UN Resident Coordinator in Azerbaijan (1997-2001)*

"25 il Azərbaycanda! Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan beynəlxalq ictimaiyyətin tam hüquqlu üzvü olmaq üçün ciddi səylər göstərmiş, social və iqtisadi sahələrdə sürətlə inkişaf etmişdir. Bu müddət ərzində BMT ölkənin inkişaf etmək səylərinə töhfə verməklə, Azərbaycan hökuməti və xalqının həqiqi tərəfdaşı olmuşdur. Azərbaycan hökuməti də öz növbəsində BMT rəsmilərini dəstəkləməklə və onlara etibar etməklə təşkilatla əməkdaşlıq etmişdir.

Bu gün Azərbaycan 25 ildən sonra Qafqazda güclü mövqeyə malikdir. O, ən son texnologiyalarla ayaqlaşır və onları öz xalqının mənfəəti üçün tətbiq edir. Bakı, öz təcrübəsini və imkanlarını region ölkələri və digərləri ilə bölüşərək, çox əhəmiyyətli mədəniyyət və idman mərkəzinə çevrilməkdədir. Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın qısa müddət ərzində böyük irəliləyişə nail olmasını beynəlxalq ictimaiyyət də tanıyır. BMT-nin Azərbaycandakı Nümayəndəliyi indiyə kimi əldə olunmuş irəliləyişin bir parçası olmasından qürur duyur və ölkəni daha yaxşı gələcəyə doğru davam edən yolda bundan sonra da dəstəkləməyə hazırdır!"

*Ercan Murat, BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi (1997-2001)*


Strong
UN.
Better
World.



Azerbaijan marks the 70th Anniversary of the United Nations by lighting the Heydar Aliyev Centre blue, one of 350 landmarks in more than 90 countries to do so on UN Day in 2015.
*UNDP Azerbaijan Photo/ October 2015*

Birləşmiş Millətlər Təşkilatının 70 illik yubileyi qeyd olunduğu 2015-ci ildə dünyanın 90-dan çox ölkəsində 350-dən çox əlamətdar bina ilə yanaşı Azərbaycanda Heydər Əliyev Mərkəzi də mavi rəngdə işıqlandırılmşdır.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2015-ci il*



United Nations international and national staff at the 2016 UN Day Celebrations in Baku.
*UNDP Azerbaijan Photo/October 2016*



2016-cı ildə Bakı şəhərində qeyd olunan BMT Günündə təşkilatın beynəlxalq və yerli əməkdaşları.
*BMTİP-in Azərbaycandakı Nümayəndəliyinin fotosu/Oktyabr 2016-cı il*

# RESIDENT
# UN AGENCIES
# IN AZERBAIJAN

# BMT-NİN
# AZƏRBAYCANDAKI
# REZİDENT
# AGENTLİKLƏRİ

# Food and Agricultural Organization

Over the past 22 years, FAO has provided technical support to the Government of Azerbaijan as it pursues its development priorities in the areas of agriculture, food security and rural development, including livestock, forestry and fisheries.

FAO has implemented various development and emergency projects aimed at increasing agricultural productivity and contributing to the success of agrarian reforms, and finding positive solutions to challenges related to the country's food security.

Recent cooperation with Azerbaijan includes policy and legal support to the Government on agriculture and the environment. FAO has also responded to Government requests for assistance on fisheries and aquaculture, improved access for small-scale farmers to high-quality seeds, dairy cattle improvement, and application of conservation agriculture in irrigated areas. Projects aimed at controlling transboundary animal diseases, and building locust-control capacity, address emergency preparedness and response.

## Strengthened country focus

Since its accession the country was covered by FAO Regional Office for Europe located in Budapest/Hungary. As part of its decentralization process, the FAO Representation Office was created in Azerbaijan in August 2007. The office has been specifically responsible for addressing the needs of the Government and people of Azerbaijan in the agricultural and rural development sectors.

The Government of Azerbaijan has declared its intention to become a resource partner to FAO, firstly to fund projects implemented by FAO in the country and, secondly, as a potential donor for regional and global projects. With its resources and expertise, the Republic of Azerbaijan can contribute to achieving the Sustainable Development Goals in the Europe and Central Asia region.

The FAO Representation in Azerbaijan, functioning since 2007, was upgraded and established as a FAO Partnership and Liaison Office in 2015.

The Agreement on Establishment of the FAO-Azerbaijan Partnership Programme was signed in 2015 between the Government of Azerbaijan and FAO. The Programme reflects the transition from mainly development assistance to a partnership based on the country's significantly increased national capacities and a more knowledge-intensive, advocacy-driven national planning process. Azerbaijan and FAO will work together with other concerned groups, promoting sustainable agriculture and rural development and pursuing national development priorities.

## Matching FAO expertise to national priorities

FAO assistance to Azerbaijan's food and agriculture sector is determined by priorities set forth in the new FAO Country Programming Framework, developed with the Government of Azerbaijan in alignment with Azerbaijan: Vision 2020 and other national strategy documents. The current FAO Country Programming Framework brings together international best practices and global standards with national and regional expertise, covering the period from 2016 to 2020.

# BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı

Son 22 il ərzində Azərbaycan Hökuməti ilə səmərəli əməkdaşlıq quraraq və ona texniki yardım göstərərək, FAO Azərbaycanda kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, kənd ərazilərinin inkişafı, o cümlədən heyvandarlıq, meşəçilik və balıqçılıq kimi sahələrdə milli inkişaf prioritetlərinin yerinə yetirilməsinə töhfə verməkdə davam edir.

Bu məqsədlə, FAO kənd təsərrüfatında məhsuldarlığın artırılmasına yönələn, aqrar islahatlara töhfə verən və ölkənin ərzaq təhlükəsizliyi ilə əlaqəli olan çağırışlara müsbət həllərin tapılmasına xidmət edən bir çox layihələr və təcili dəstək tədbirləri həyata keçirmişdir.

Azərbaycanla son zamanlarda aparılan əməkdaşlıq kənd təsərrüfatı və ətraf mühit sahələrində Hökumətə siyasət və qanunvericilik istiqamətlərində müxtəlif yardımların göstərilməsini ehtiva edir. Bundan əlavə, FAO Azərbaycan Hökumətinin balıqçılıq və akvakultura, kiçik fermerlərin yüksək-keyfiyyətli toxum materialları ilə təchiz edilməsi, südçülük sektorunda heyvanların verimliliyinin artırılması və suvarılan ərazilərdə resursqoruyucu kənd təsərrüfatı üsullarının tətbiq edilməsi ilə bağlı müraciətləri əsasında ünvanlı fəaliyyətlər həyata keçirib. Bununla yanaşı, FAO-nun yardım göstərdiyi transsərhəd heyvan xəstəliklərinə nəzarət və çəyirtkələrlə mübarizə potensialının gücləndirilməsi fəaliyyətləri fövqəladə hallara hazırlıq və onlara müvafiq cavab verilməsi tədbirlərinə aid edilə bilər.

## Ölkəyə diqqətin gücləndirilməsi

Azərbaycan FAO-nun üzvü olduğu tarixdən Təşkilatın Azərbaycandakı fəaliyyəti Macarıstanın paytaxtı Budapeşt şəhərində yerləşən FAO-nun Avropa Regional Ofisi tərəfindən əhatə olunur. Təşkilatın qeyri-mərkəzləşdirmə prosesi çərçivəsində 2007-ci ilin avqust ayında Azərbaycanda FAO-nun ölkə nümayəndəliyi açıldı.

FAO-nun ölkə ofisinin fəaliyyəti kənd təsərrüfatı və kənd ərazilərinin inkişafı sahələrində Azərbaycan Hökumətinin və xalqının ehtiyaclarını qarşılamağa xidmət edir.

Azərbaycan Hökuməti FAO-nun resurs tərəfdaşı olmaq niyyətini bəyan edərək, ilk olaraq Təşkilatın ölkə daxilində icra etdiyi layihələri maliyyələşdirməyə və, bundan sonra, regional və qlobal layihələrdə FAO-nun potensial donoru olmağa hazır olduğunu bildirib. Bu resurslar və təcrübə hesabına, Azərbaycan Respublikası Avropa və Mərkəzi Asiya regionunda BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmasına önəmli töhfə verəcək. Buna cavab olaraq, 2007 ildən etibarən fəaliyyət göstərən FAO-nun ölkə nümayəndəliyinin statusu artırılaraq, 2015-ci ildə FAO-nun Azərbaycanda Tərəfdaşlıq və Əlaqələndirmə Ofisi yaradıldı.

2015-ci ildə Azərbaycan Hökuməti və FAO arasında Tərəfdaşlıq Proqramın qəbul edilməsinə dair Saziş imzalandı. Tərəfdaşlıq Proqramı, Azərbaycanın inkişaf yardımı alan ölkədən daha çox tərəfdaş ölkəyə çevirilməsinin təzahürü olaraq, Azərbaycanın artmış milli potensialını, daha bilik-tutumlu, ictimai vəkillik əsaslı siyasət planlaşdırılması prosesinin reallığını əks etdirir. Azərbaycan və FAO bu Proqram əsasında əməkdaşlıq edərək və digər müvafiq qruplarla işbirliyi quraraq, milli prioritetlərin əldə olunmasında, kənd təsərrüfatı və kənd ərazilərinin inkişafını dayanıqlı şəkildə dəstəkləməkdə tərəfdaş olurlar.

## FAO təcrübəsinin milli prioritetlərə uyğunlaşdırılması

Azərbaycanın ərzaq və kənd təsərrüfatı sektoruna FAO tərəfindən göstərilən dəstək, Azərbaycan Hökuməti ilə birgə işlənilmiş, "Azərbaycan 2020: Gələcəyə baxış" və digər milli strateji sənədlərin tələblərinə uyğunlaşdırılmış yeni Ölkə Proqram Çərçivəsində yer alan prioritetlərlə müəyyən edilir. Cari Ölkə Proqram Çərçivəsi qabaqcıl beynəlxalq praktikaları və qlobal standartları milli və regional təcrübələrlə birləşdirərək, 2016-2020 illər dövrünün əhatə edir.

# International Labour Organization

The Republic of Azerbaijan joined the ILO in 1992. Since that time, Azerbaijan has benefited from various ILO technical assistance programs aimed at improving national labour and social protection legislation, institutional development, capacity building of social partners, and employment promotion.

Azerbaijan has ratified 58 ILO Conventions. The ILO works with its three constituents -Ministry of Labour and Social Protection (MLSPP), the Confederation of Trade Unions (AHIK) and the National Confederation of Employers (Entrepreneurs) (ASK).

Between 1994 -1995 the ILO assisted the Government in developing and implementing a pilot labour force survey project. The project became a good example of the Delivering as One approach since the ILO has closely cooperated with UNDP in assisting the State Statistical Committee to set up a solid ground for further conducting Labour Force Survey at the national level based on the ILO internationally recognized methodology. Nowadays, the State Statistical Committee conducts labour force surveys on a quarterly basis.

Between 1997-1998, the ILO implemented a self-employment project in the Nakhchivan Autonomous Republic, as well as Aghdam and Salyan districts. As a result, 300 persons were trained, obtained different qualifications and started their own business. In 2005-2006 the ILO assisted in providing training on road reconstruction skills in the rural area of Ismayilli.

In the area of labour administration, the ILO has assisted the Government in establishing the State Labour Inspection Service, including staff training and designing its organizational structure.

The National Labour Code was adopted on 1 January 1999, taking into account recommendations provided by the ILO. The adoption of the Labour Code became an important step in improving national labour legislation in line with international labour standards.

A number of important activities were implemented in Azerbaijan within the framework of the ILO's Project for CIS countries "Partnerships for Youth Employment in the Commonwealth of Independent States" implemented in the years 2013-2016. The ILO conducted a study on macroeconomic aspects of growth and employment perspectives; provided training to the Public Employment Service (PES) staff; assisted PES in implementing self-employment and wage subsidy programmes; and started cooperating with the constituents on the issues related to the transition from informal to formal employment.

In September 2016, the ILO and the ILO constituents -the Government, workers' and employers' organizations - signed a new Decent Work Country Programme for 2016-2020. On 30 September 2016, the first national tripartite body - the Tripartite Commission on Economic and Social Affairs - was established.

The National Employment Strategy (2016-2030) was developed with the ILO's technical assistance in the frame of the Youth Employment project and submitted to the Government. The Youth Employment Project paved the way for ILO/UNDP cooperation in the implementation of the SDGs in Azerbaijan, particularly SDG-8 on decent work and productive employment.

Azerbaijan has joined the ILO's Future of Work Centenary Initiative. On 17 March 2017 the Ministry of Labour and Social Protection conducted the first panel consultations with the participation of social partners, government agencies, universities and academia including the National Academy of Sciences, as well as the private sector representatives. The results of the panel discussion were presented at the Future of Work event in Baku on 29 March 2017.

On 12 June 2017, during the 106th Session of the International Labour Conference in Geneva, Azerbaijan was elected as a member of the ILO Governing Body for the period 2017-20.

# Beynəlxalq Əmək Təşkilatı

1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Əmək Təşkilatına (BƏT) üzv qəbul olunmuşdur. Həmin tarixdən başlayaraq Azərbaycan Respublikası milli əmək və sosial müdafiə qanunvericiliyinin təkmilləşdirilməsini, institusional inkişafı, sosial tərəfdaşların potensiallarının artırılmasını, məşğulluğun təşviq edilməsini nəzərdə tutan BƏT-in müxtəlif texniki yardım proqramlarından faydalanmaq imkanı əldə etmişdir.

Azərbaycan Respublikası BƏT-in 58 Konvesiyasını ratifikasiya edib. Bu Təşkilatın Azərbaycan Respublikasındakı üç əsas tərəf-müqabili Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən (ƏƏSMN), Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından (AHİK) və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasından (ASK) ibarətdir.

1994-1995-ci illərdə BƏT əmək qüvvəsi sorğusuna dair pilot layihənin işlənib hazırlanması və icra olunmasında Azərbaycan Respublikası Hökumətinə köməklik göstərmişdir. Gələcəkdə BƏT-in beynəlxalq səviyyədə tanınmış metodologiyasına əsaslanan əmək qüvvəsi sorğularının ölkə səviyyəsində həyata keçirilməsi üçün əsaslı baza yaratmaq məqsədilə Dövlət Statistika Komitəsinə kömək göstərmək baxımından BƏT-in BMTİP-lə yaxından əməkdaşlıq etməsini nəzərdə tutan bu layihə vahid yanaşmaya aid yaxşı bir nümunə hesab olunurdu. Hal-hazırda Dövlət Statistika Komitəsi əmək qüvvəsi sorğularını hər kvartal həyata keçirir.

1997-1998-ci illərdə BƏT Naxçıvan Muxtar Respublikasında, habelə Ağdam və Səlyan rayonlarında özünəməşğulluq layihəsini uğurla həyata keçirmişdir. Nəticədə təlim keçmiş və müxtəlif ixtisaslara yiyələnmiş 300 nəfər fərdi əmək fəaliyyəti ilə məşğul olmağa başlamışdır. 2005-2006-cı illərdə BƏT İsmayıllı rayonunun kənd yerlərində yolların bərpa edilməsi bacarıqlarına dair təlimlərin keçirilməsində köməklik göstərmişdir.

Əmək idarəçiliyi sahəsinə gəldikdə, Dövlət Əmək Müfəttişliyi Xidmətinin yaradılması, o cümlədən, işçilərin təlimləndirilməsi və Xidmətin təşkilati strukturunun işlənib hazırlanması ilə əlaqədar BƏT tərəfindən Azərbaycan Respublikası Hökumətinə köməklik göstərilmişdir.

BƏT-tin tövsiyələrini nəzərə almaqla işlənib hazırlanmış Azərbaycan Respublikasının Əmək Məcəlləsi 1999-cu il yanvarın 1-də qəbul edilmişdir. Əmək Məcəlləsinin qəbul edilməsi milli əmək qanunvericiliyinin beynəlxalq əmək standartlarına uyğun təkmilləşdirilməsi istiqamətində vacib addım hesab olunur.

BƏT-in MDB ölkələri üçün nəzərdə tutulmuş və 2013-2016-cı illərdə həyata keçirilmiş "Müstəqil Dövlətlər Birliyində gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" Layihəsi çərçivəsində bir sıra vacib tədbirlər Azərbaycan Respublikasında icra olunmuşdur. BƏT artım və məşğulluq perspektivlərinin makroiqtisadi aspektlərinə dair tədqiqat aparmışdır, Dövlət Məşğulluq Xidmətinin (DMşX) əməkdaşları üçün təlimlər təşkil etmişdir, özünəməşğulluq və əmək haqqlarının subsidiya şəklində ödənilməsi proqramlarının yerinə yetirilməsində DMşX-ya kömək göstərmişdir və qeyri-formal məşğulluqdan formal məşğulluğa keçidlə bağlı məsələlərlə əlaqədar olaraq əsas tərəf-müqabilləri ilə əməkdaşlığa başlamışdır.

2016-cı ilin sentyabr ayında BƏT və bu təşkilatın əsas tərəf-müqabilləri - Azərbaycan Respublikası Hökuməti, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası 2016-2020-ci illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramını imzalamışdırlar. 2016-cı il sentyabrın 30-da ilk milli üçtərəfli qurum olan İqtisadi və Sosial məsələlər üzrə Üçtərəfli Komissiya yaradılmışdır.

"Müstəqil Dövlətlər Birliyində gənclərin məşğulluğu sahəsində tərəfdaşlıq" Layihəsi çərçivəsində BƏT-in texniki köməyi ilə işlənib hazırlanmış Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2017-2030-ci illər) Azərbaycan Respublikası Hökumətinə təqdim olunmuşdur. Sözügedən layihə DİM-lərin, xüsusən də layiqli əmək və məhsuldar məşğulluq üzrə 8-ci DİM-in Azərbaycan Respublikasında yerinə yetirilməsi üçün BƏT ilə BMTİP arasında əməkdaşlığa zəmin yaratmışdır.

Bütün bunlarla yanaşı, Azərbaycan Respublikası BƏT-in "Əməyin gələcəyi" Təşəbbüsünə qoşulub. 2017-ci il martın 17-də Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi sosial tərəfdaşların, hökumət təşkilatlarının, ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyası da daxil olmaqla elmi dairələrin, habelə özəl sektor nümayəndələrinin iştirakı ilə ilk panel müzakirələrini keçirmişdir. 2017-ci il martın 29-da Bakı şəhərində keçirilmiş "Əməyin gələcəyi" Təşəbbüsünə həsr olunmuş tədbirdə həmin panel müzakirələrin nəticələri təqdim olunmuşdur.

2017-ci il iyunun 12-də Beynəlxalq Əmək Konfransının Cenevrə şəhərində keçirilmiş 106-cı sessiyasında Azərbaycan Respublikası BƏT-in İnzibati Şurasının 2017-2020-ci illər üçün üzvü seçilmişdir.

# International Organization for Migration

IOM's presence in Azerbaijan dates back to January 1996. In December 1999, IOM signed an Agreement with the Government establishing a legal basis for further development of cooperation in addressing migration issues. Following the Agreement's ratification by the Milli Mejlis (National Assembly) of the Republic of Azerbaijan in February 2000, the Council of IOM, at its 81st Session in Geneva, agreed to accept the Republic of Azerbaijan as an IOM Member State on 7 June 2001.

The interventions of the IOM Mission in Azerbaijan began with technical assistance in policy development, structural reform, legislation and operational performance on migration and border management.

Those activities were followed by the works in the four broad areas of migration management:

- Migration and development
- Facilitating migration
- Regulating migration
- Forced migration.

IOM activities that cut across these areas include the promotion of international migration law, policy debate and guidance, protection of migrants' rights, migration health and the gender dimension of migration.

21 years on since the start of its work in the country, IOM continues to collaborate very closely with the Government of Azerbaijan, UN agencies, civil society partners and international organizations, to help ensure the orderly and humane management of migration, to promote international cooperation on migration issues, to assist in the search for practical solutions to migration problems and to provide humanitarian assistance to migrants in need, including refugees and internally displaced people.

In addition to the Country Mission in Baku, IOM has a field office in Mingachevir that became operational in 2006.

International Organization for Migration (IOM)

The UN Migration Agency

# Beynəlxalq Miqrasiya Təşkilatı

Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) Azərbaycan Respublikasındakı fəaliyyəti öz başlanğıcını 1996-cı ilin yanvar ayından götürür. 1999-cu ilin dekabr ayında BMqT və Azərbaycan Respublikası Hökuməti arasında imzalanmış Əməkdaşlıq Sazişi miqrasiya məsələlərinin öhdəsindən gəlmək məqsədilə əməkdaşlığın inkişaf etdirilməsi üçün hüquqi bazanı müəyyən edir. 2000-ci ilin fevral ayında həmin Saziş Azərbaycan Respublikasının Milli Məclisi (ölkə parlamenti) tərəfindən ratifikasiya edildikdən sonra, 2001-ci il iyunun 7-də BMqT Şurasının Cenevrə şəhərində keçirilmiş 81-ci sessiyasında Azərbaycan Respublikasının bu Təşkilata üzv kimi qəbul edilməsi barədə razılıq əldə olunmuşdur.

BMqT-nin Azərbaycan Respublikasındakı fəaliyyəti siyasətin hazırlanması, struktur islahatlarının aparılması, miqrasiya qanunvericiliyinin və operativ fəaliyyətin təkmilləşdirilməsi və sərhəd idarəçiliyinin gücləndirilməsi üçün texniki yardım göstərməklə başlamışdır.

Bu cür fəaliyyətin ardınca miqrasiya idarəçiliyinin aşağıda sadalanan dörd geniş sahəsi üzrə işlərin həyata keçirilməsi təmin olunmuşdur:
- Miqrasiya və inkişaf;
- Miqrasiya proseslərinin asanlaşdırılması;
- Miqrasiya proseslərinin tənzimlənməsi;
- Məcburi miqrasiya.

BMqT-nin bu sahələr üzrə fəaliyyəti beynəlxalq miqrasiya hüququnun təşviq edilməsini, miqrasiya siyasəti ilə bağlı debatların aparılmasını və istiqamətlərin verilməsini, miqrantların hüquqlarının müdafiə edilməsini, miqrasiya sahəsində səhiyyə və gender ölçülərinin nəzərə alınmasını nəzərdə tutur.

Azərbaycan Respublikasında fəaliyyətə başladığı andan 21 il ərzində BMqT miqrasiya proseslərinin nizamlı qaydada və humanist şəkildə idarə olunmasını təmin etmək, miqrasiya məsələləri üzrə beynəlxalq əməkdaşlığı təşviq etmək, miqrasiya problemlərinin praktiki həlli isiqamətində köməklik göstərmək və ehtiyacı olan miqrantlara, o cümlədən, qaçqınlara və məcburi köçkünlərə humanitar yardım göstərmək məqsədilə Azərbaycan Respublikası Hökuməti, BMT agentlikləri, vətəndaş cəmiyyəti təşkilatları ilə və beynəlxalq təşkilatlarla yaxından əməkdaşlıq edir.

BMqT-nin Bakı şəhərində yerləşən Ölkə üzrə Nümayəndəliyi ilə yanaşı Mingəçevir şəhərindəki sahə ofisi 2006-cı ildən etibarən fəaliyyət göstərir.

# Office of the United Nations High Commissioner for Human Rights

OHCHR established its presence in Azerbaijan in May 2007. OHCHR provides technical assistance and advisory expertise in strengthening national capacities to promote and protect human rights. It promotes the participation of national actors in UN human right mechanisms in Azerbaijan. OHCHR operates as part of the OHCHR Regional Office in the South Caucasus supporting the work of OHCHR Senior Human Rights Adviser, based in Tbilisi, Georgia.

Over the last two decades, the engagement of the Azerbaijani government and national civil society actors within the UN human rights process has been significant. Azerbaijan has become a party to the majority of UN human rights Conventions, thus committing to embrace international standards in human rights and acceding to and ratifying various human rights conventions, including the International Convention on the Elimination of All Forms of Racial Discrimination (ICERD), International Covenant on Economic, Social and Cultural Rights (ICESCR), International Covenant on Civil and Political Rights (ICCPR), Convention on the Elimination of All Forms of Discrimination against Women (CEDAW), Convention against Torture (CAT), and Convention on the Rights of the Child (CRC). OHCHR supports national interlocutors in the implementation of recommendations of the UN human rights bodies. One of OHCHR's main tasks is to assist the national interlocutors in implementing and following-up the recommendations of the UN Treaty Bodies, Universal Periodic Review (UPR) and UN Special Procedure mechanisms.

In close cooperation with the Azerbaijan's National Human Rights Institution - the Ombudsman - OHCHR promotes human rights in such areas as policy development, advocacy, training, civic education, developing national human rights action plans, and promoting international human rights instruments. Together they provide expert advisory services, training courses and workshops to build the capacity of national partners to use the UN human rights mechanisms and facilitate their participation in international advocacy.

OHCHR, in particular, supports the civil society organizations focused on human rights education by providing educational and training resources, including organizing translation into national languages and publication of various human rights thematic materials produced by OHCHR. This includes translation and publication of the relevant UPR documents, Treaty Bodies' observations and Special Rapporteurs' reports, and other international instruments to supplement the national training and educational resources and libraries.

Since its establishment, OHCHR has been also involved in a number of public discussions of the post-UPR process with a view to elaborate modalities for effective national-level implementation of the UPR recommendations, involving different stakeholders such as governmental and civil society representatives.

# Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığı

2007-ci ilin may ayında Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) Azərbaycan Respublikasındakı Nümayəndəliyi fəaliyyətə başlamışdır. OHCHR insan hüquqlarının təşviq və müdafiə edilməsi üçün milli potensialların gücləndirilməsi istqamətində texniki yardım göstərilməsi və konsultativ məsləhətlərin verilməsi məsələləri ilə məşğul olur. Ali Komissarlıq Azərbaycan Respublikasındakı milli təşkilatların BMT-nin insan hüquqları mexanizmlərində iştirakına şərait yaradır. OHCHR-in Azərbaycan Respublikasındakı Nümayəndəliyi bu təşkilatın Gürcüstanın paytaxtı Tbilisi şəhərində yerləşən Cənubi Qafqaz üzrə Regional Ofisi nəzdində fəaliyyət göstərərək Ali Komissarlığın İnsan Hüquqları üzrə Baş müşavirinin fəaliyyətinə dəstək verir.

Son iyirmi il ərzində Azərbaycan Respublikası Hökumətinin və milli vətəndaş cəmiyyəti təşkilatlarının BMT-nin insan hüquqları prosesində iştirakı əhəmiyyətli hesab olunmalıdır. Azərbaycan Respublikası insan hüquqlarına dair BMT konvensiyalarının əksəriyyətinə tərəfdar çıxmaqla insan hüquqlarına aid beynəlxalq normaları tətbiq etmək, habelə bu səpkidən olan çoxsaylı konvensiyalara qoşulmaq və onları ratifikasiya etmək öhdəliyini öz üzərinə götürmüşdür ki, həmin beynəlxalq sənədlər arasında bunları qeyd etmək yerinə düşərdi: "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (ICERD), "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Pakt (ICESCR), "Mülki və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakt (ICCPR), "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya (CEDAW), "İşgəncələr və digər qəddar, qeyri-insani və alçaldıcı rəftar və ya cəza əleyhinə" Konvensiya (CAT), "Uşaq hüquqları haqqında" Konvensiya (ÜHK). BMT-nin insan hüquqları üzrə orqanları tərəfindən verilən tövsiyələri yerinə yetirmək məqsədilə OHCHR milli tərəf-müqabillərinə dəstək verir. OHCHR-in əsas vəzifələrindən biri BMT-nin Müqavilə Orqanları, Universal Dövri İcmal (UDİ) və BMT-nin Xüsusi Prosedur mexanizmlərindən irəli gələn tövsiyələrin nəzərə alınaraq yerinə yetirilməsi istiqamətində milli tərəf-müqabillərinə köməklik göstərməkdən ibarətdir.

OHCHR Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili ilə (Ombudsmanla) yaxından əməkdaşlıq edərək siyasətin işlənib hazırlanması, təbliğat-təşviqat işlərinin aparılması, təlimlərin keçirilməsi, vətəndaş təhsili və tərbiyəsi, insan hüquqları üzrə milli fəaliyyət planlarının işlənib hazırlanması və beynəlxalq insan hüquqları sənədlərinin təşviq edilməsi kimi sahələrdə insan hüquqlarını təşviq edir. BMT-nin insan hüquqları mexanizmlərindən istifadə etmək üçün milli tərəfdaşların potensiallarını artırmaq və beynəlxalq təbliğat-təşviqat işlərində onların iştirakına şərait yaratmaq məqsədilə bu iki təşkilat konsultativ ekspert məsləhətləri verir, habelə təlim kursları və seminarlar təşkil edir.

Bütün bunlarla yanaşı, OHCHR təlim-tədris resurslarını təqdim etməklə, o cümlədən, işləyib hazırladığı müxtəlif insan hüquqlarına dair tematik materialların müvafiq dövlət dillərinə tərcümə edilməsini və nəşr olunmasını təşkil etməklə insan hüquqlarının tədrisi ilə məşğul olan vətəndaş cəmiyyəti təşkilatlarına köməklik göstərir. Həmin materiallar sırasına müvafiq UDİ sənədlərini, Müqavilə Orqanlarının müşahidələrini, habelə milli təlim-tədris resursları və kitabxanalarını tamamlayan digər beynəlxalq sənədləri aid etmək olar.

Yarandığı tarixdən etibarən OHCHR hökumət və vətəndaş cəmiyyəti təşkilatları kimi müxtəlif əlaqədar tərəfləri cəlb etməklə UDİ tövsiyələrinin milli səviyyədə səmərəli tətbiqi üçün modallıqlar hazırlamaq məqsədilə post-UDİ prosesinə aid bir sıra ictimai müzakirələrdə iştirak edir.

# United Nations Development Programme

UNDP was the first UN agency to open its office in Azerbaijan in the fall of 1992. During its first years of activity in Azerbaijan, UNDP operations focused on the coordination and provision of humanitarian assistance to those affected by the conflict in and around Nagorno-Karabakh and an early recovery programme.

In the late 1990s, UNDP helped the Government to establish the Azerbaijan Reconstruction and Rehabilitation Agency, which has been responsible for coordinating reconstruction activities and supporting the resettlement of IDPs and refugees. In 1999, UNDP, in partnership with various donors, played a leading role in the establishment of the Azerbaijan National Agency for Mine Action (ANAMA) to clear war-affected territories from mines.

UNDP has been publishing National Human Development Reports since 1995 to track progress with Azerbaijan's development and to highlight major development issues. UNDP introduced a Human Development Course to the universities of Azerbaijan, helping young people to broaden their perspective on development issues.

Over time, UNDP's role in Azerbaijan has shifted towards longer-term socio-economic development in line with the country's evolving needs. Since the early 2000s, UNDP has increasingly focused on poverty reduction, the introduction of information and communication technologies, human rights promotion, environmental management, gender equality and HIV/AIDS prevention.

UNDP worked together with the international development community to support the Government's poverty reduction efforts, in particular, the design of the country's first national poverty reduction strategy known as the State Programme on Poverty Reduction and Economic Development (SPPRED) for 2003-2005. UNDP also helped the Government to nationalise the Millennium Development Goals and made a major contribution to the development of the long-term State Programme for Poverty Reduction and Sustainable Development (2008-2015), which was aligned with the MDGs. UNDP has also been the Government's long-standing partner in implementing the National Employment Strategy (2006-2015).

In the mid-2000s, when Azerbaijan's oil contract with the international consortium of foreign oil companies started to generate oil revenues, UNDP redefined its mission in the country. Together with the Government of Azerbaijan, it began to champion the conversion of "black gold" (oil revenues) into "human gold" (human capital), in other words, promoting the investment of the country's oil revenues into human development.

UNDP's e-governance programme in Azerbaijan is an excellent example of leveraging ICT in reforming customs service, pension system, civil service and the justice sector. It has contributed to greater efficiency and transparency of public institutions by automating business processes, eliminating human interference, reducing waiting time and costs and giving online access to information.

In recent years, UNDP has been actively engaged in the field of environment and climate change. UNDP helps to introduce sustainable land management practices, reduce climate change risks in the flood-prone areas of Azerbaijan, mitigate greenhouse emissions in the oil and gas sector, and improve management of the marine ecosystem of the Caspian Sea.

UNDP promotes gender equality as a cross-cutting issue in its programmes. UNDP supports rural women's participation in economic and social life, and builds the capacity of national actors to mainstream women's concerns into public policies.

Last but not least, UNDP facilitates South-South cooperation through knowledge sharing in the areas where Azerbaijan has accumulated expertise such as the delivery of public services and mine action.
Currently, UNDP is working closely with the Government of Azerbaijan to align the latter's national development plans with the global Sustainable Development Goals. It is helping to build the capacity of the National Coordination Council for Sustainable Development, established in 2016, to put Azerbaijan on the path towards sustainability by 2030.

UNDP

# Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqram

1992-ci ilin payızında Azərbaycan Respublikasında öz nümayəndəliyini açmış Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP) bu ölkədə fəaliyyətə başlamış ilk BMT agentliyi idi. Azərbaycandakı fəaliyyətinin ilk illərində BMTİP tərəfindən həyata keçirilən əməliyyatlarda Dağlıq Qarabağ münaqişəsindən zərər çəkmiş insanlara humanitar yardımın göstərilməsi, və onun əlaqələndirilməsinə, həmçinin erkən bərpa proqramının yerinə yetirilməsinə xüsusi diqqət ayrılırdı.

1990-cı illərin sonunda yenidənqurma işlərinin əlaqələndirilməsi, habelə qaçqın və məcburi köçkünlərin yenidən məskunlaşdırılması prosesinin dəstəklənməsinə cavabdeh olacaq Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentliyi yaratmaq məqsədilə BMTİP Azərbaycan Hökumətinə zəruri kömək göstərmişdir. Bununla yanaşı, hərbi əməliyyatların aparıldığı əraziləri minalardan təmizləmək məqsədilə BMTİP müxtəlif donor təşkilatlarla yaxından əməkdaşlıq edərək 1999-cu ildə Ərazilərin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) yaradılmasında da aparıcı rol oynamışdır.

Azərbaycanda baş verən inkişaf prosesindəki irəliləyişi izləmək və əsas inkişaf məsələlərini ön plana çəkmək məqsədilə 1995-ci ildən etibarən BMTİP Milli İnsan İnkişafı Hesabatını nəşr etdirir. Eyni zamanda, BMTİP inkişaf məsələləri haqqında gənclərin biliklərini artırmaq üçün Azərbaycan universitetlərində İnsan İnkişafı kurslarının tədrisini təmin etmişdir.

Zaman keçdikcə, BMTİP-in Azərbaycandakı rolu ölkənin artan ehtiyaclarına uyğun uzunmüddətli sosial-iqtisadi inkişafa yönəlirdi. Belə ki, 2000-ci illərin əvvəllərindən başlayaraq yoxsulluğun azaldılması, informasiya və kommunikasiya texnologiyalarının tətbiq olunması, insan hüquqlarının təşviq edilməsi, ətraf mühitin idarə olunması, gender bərabərliyinin təmin olunması və HİV/AİDS-in qarşısının alınması məsələlərinə BMTİP-in diqqəti artmaqda idi.

Yoxsulluğun azaldılması, xüsusən də ölkənin bu məsələyə aid ilk milli strategiyası olan "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın işlənib hazırlanması istiqamətində hökumətin səylərini dəstəkləmək məqsədilə BMTİP digər beynəlxalq inkişaf təşkilatları ilə birgə iş aparırdı. Bu işlərin davamı olaraq, BMTİP Minilliyin İnkişaf Məqsədlərinin ölkə şəraitinə uyğunluğunu təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Hökumətinə komək göstərmişdir və "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın bu məqsədlərə uyğun işlənib hazırlanması işinə vacib töhfələr vermişdir. Bununla yanaşı, BMTİP Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının (2006-2015-ci illər) həyata keçirilməsində hökumətin əsas və uzunmüddətli tərəfdaşı olmuşdur.

2000-ci illərin ortalarında Azərbaycan Respublikası ilə xarici neft şirkətlərindən ibarət beynəlxalq konsorsium arasında imzalanmış neft müqaviləsi gəlir gətirməyə başlamışdır və BMTİP bu ölkədəki missiyasına yenidən baxmalı olmuşdur. Nəticədə təşkilat Azərbaycan Hökuməti ilə birlikdə "qara qızılın" (neft gəlirlərinin) "insan qızılına" (insan kapitalına) çevrilməsi, başqa sözlə ölkənin neft gəlirlərinin insan inkişafına yönəldilməsini təşviq etməyə başlamışdır.

BMTİP-in Azərbaycanda həyata keçirdiyi Elektron Hökumət (E-Hökumət) Proqramı gömrük xidməti, pensiya sistemi, dövlət qulluğu və ədliyyə sektorlarında aparılan islahatlarda İKT-nin istifadə olunmasına dəyərli sübutdur. Həmin proqram iş proseslərinin avtomatlaşdırılması, insan müdaxilələrinin aradan qaldırılması, gözləmə vaxtının və xərclərin azaldılması, habelə məlumatların onlayn rejimində öyrənilməsi yolu ilə dövlət təşkilatlarında səmərəliliyinin və şəffalığının artırılmasına böyük töfhələr vermişdir.

Son illərdə BMTİP ətraf mühit və iqlim dəyişikliyi sahələrində də fəal iştirak edir. Bu təşkilat dayanıqlı torpaq idarəetmə təcrübəsinin tətbiq edilməsinə, Azərbaycanın daşqın meylli ərazilərində iqlim dəyişikliyi risklərinin aradan qaldırılmasına, energetika sektorunda istixana effekti yaradan emissiyaların azaldılmasına, Xəzər dənizi ekosisteminin idarə olunmasının təkmilləşdirilməsinə köməklik göstərir.

BMTİP öz layihələrində kəsişən məsələ olan gender bərabərliyini təşviq edir. Təşkilat kənd qadınlarının iqtisadi və sosial həyatda iştirakını dəstəkləyir və qadınların ehtiyaclarının dövlət siyasətində əks olunması üçün milli qurumların potensiallarını artırır.

Bütün bunlarla yanaşı, BMTİP Azərbaycanın böyük təcrübə topladığı ərazilərin minalardan təmizlənməsi və vətəndaşlara xidmətlərin göstərilməsi kimi sahələrdə bilik mübadiləsi üçün Cənub-Cənub əməkdaşlığına şərait yaradır.

Hal-hazırda BMTİP Azərbaycan Respublikasının milli inkişaf planlarının qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunlaşdırılması üçün hökumətlə yaxından əməkdaşlıq edir. Bununla əlaqədar olaraq təşkilat Azəbaycan Respublikasında dayanıqlı inkişafı 2030-cu ilədək təmin etmək məqsədilə 2016-cı ildə yaradılmış Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının potensialının artırılmasına köməklik göstərir.

# United Nations Educational, Scientific and Cultural Organization

The Republic of Azerbaijan became a member of UNESCO on 03 June 1992. Two years later, on 21 February 1994, President of the Republic of Azerbaijan Heydar Aliyev decreed the establishment of National Commission of the Republic of Azerbaijan for UNESCO. Azerbaijan and UNESCO have since enjoyed fruitful and mutually beneficial cooperation during these years of bilateral relations.

Azerbaijan has signed and ratified almost all the conventions and other legal instruments of UNESCO and was elected as a member of the Executive Board of UNESCO for the period of 2005-2009. Currently, Azerbaijan is amember of four intergovernmental committees and councils of the Organization.

UNESCO Directors-General Mr. Federico Mayor, Mr. Koichiro Matsuura and Mrs. Irina Bokova have visited Azerbaijan several times during these 25 years of cooperation; and President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev and First Lady Mrs. Mehriban Aliyeva attended the Leaders' Forum of the 38th Session of UNESCO General Conference in November 2015. The above is clear evidence of the high-level relations enjoyed between UNESCO and Azerbaijan.

The role of the First Vice-president of Azerbaijan, President of Heydar Aliyev Foundation Mrs. Mehriban Aliyeva in enhancing the relationship between Azerbaijan and UNESCO is indispensable. In September 2004, Mrs. Mehriban Aliyeva was designated as UNESCO Goodwill Ambassador for Oral and Musical Traditions in recognition of her action to promote traditional music, literature and poetry, her role in the promotion of musical education and international cultural exchanges, and her dedication to the Organization's ideals. Mrs. Mehriban Aliyeva organized a wide range of activities both at national and international levels which have aimed to promote UNESCO's values. This contributed to a widening of cooperation between Azerbaijan and UNESCO. In recognition of her contributions to the preservation of cultural heritage, Mrs. Mehriban Aliyeva was awarded with the Commemorative Medal by UNESCO Director-General Koichiro Matsuura (2008) and with the Golden Mozart Medal by UNESCO Director-General Irina Bokova (2010).

Historical monuments of Azerbaijan such as the Walled City of Baku with Shirvanshahs' Palace and Maiden Tower and Gobustan Rock Art Cultural Landscape have been included in the UNESCO World Heritage List. Another landmark event which has strengthened this relationship was the signing of the Framework Agreement on cooperation between Azerbaijan and UNESCO in the fields of education, science, culture and communication on 18 July 2013, which allowed Azerbaijan to become one of the donors of UNESCO. In accordance with the Agreement, Azerbaijan provided a financial contribution of 5 million USD to the Organization for supporting its global mission in the areas such as: girls' education, protection of tangible and intangible cultural heritage, gender equality, intercultural dialogue, prevention of natural disasters etc.

Currently, projects on girls' education in Africa (Tanzania, Uganda and Kenya) and intangible cultural heritage in Asia and Latin America (Bangladesh and Guatemala), as well as projects on intercultural dialogue and science are funded by Azerbaijan through a special trust fund.

Azerbaijan has also hosted a number of important UNESCO events, including the 18th session of the International Bioethics Committee of UNESCO (2011), the extraordinary session of the UNESCO Intergovernmental Committee for Physical Education and Sport, and the 8th session of the UNESCO Intergovernmental Committee for the Safeguarding of the Intangible Cultural Heritage (2013). In addition, UNESCO has been an official partner of the four World Forums on Intercultural Dialogue held biennially since 2011 in Azerbaijan. Within these Forums, Azerbaijan also hosted two Academic Forums of UNESCO Chairs on intercultural and interreligious dialogue in 2015 and 2017.

Anniversaries of historic events and great personalities of Azerbaijan are celebrated at the UNESCO Headquarters almost every year. The 500th anniversary of the birth of Mahammad Fuzuli and the 1300th anniversary of the Azerbaijani epic story epos "Kitabi-Dede Gorgud" (Book of Dede Gorgud) were among them.

During these 25 years of cooperation, Azerbaijani mugham singer Alim Gasimov was awarded with the UNESCO Music Prize by the International Music Council, artist Tahir Salahov received the UNESCO's Gold medal of "Picasso" for his contributions to the world cultural heritage and composer Firanghiz Alizadeh was designated as UNESCO Artist for Peace.

# BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı

1992-ci il iyunun 3-də Azərbaycan Respublikası BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatına (YUNESKO) üzv olmuşdur. Bundan iki il sonra, 1994-cü il fevralın 21-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin Sərəncamı ilə YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası yaradılmışdır. Həmin tarixlərdən etibarən qurulmuş ikitərəfli əlaqələr sayəsində Azərbaycan Respublikası və YUNESKO qarşılıqlı və məhsuldar əməkdaşlıqdan faydalanırlar.

Azərbaycan Respublikası YUNESKO-nun, demək olar ki, bütün konvensiyalarını və digər hüquqi sənədlərini imzalayaraq ratifikasiya edib. Bununla yanaşı, Azərbaycan Respublikası YUNESKO İcraiyyə Şurasının 2005-2009-cu illər üçün üzvü seçilmişdir. Hazırda Azərbaycan Respublikası bu təşkilatın 4 hökumətlərarası komitəsinin və şurasının üzvüdür.

25 illik tarixə malik bu əməkdaşlıq ərzində YUNESKO-nun Baş direktoru vəzifəsində çalışmış cənab Federiko Mayor, cənab Koiçiro Matsuura və xanım İrina Bokova Azərbaycana bir neçə dəfə səfər etmişdirlər. 2015-ci ilin noyabr ayında isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyeva YUNESKO Baş Konfransının 38-ci sessiyasının Liderlər Forumunda iştirak ediblər. Bütün bunlar YUNESKO ilə Azərbaycan Respublikası arasında mövcud olan yüksək səviyyəli əlaqələrin bariz nümunəsdir.

Azərbaycan Respublikası və YUNESKO arasında münasibətlərin yüksələn xəttlə inkişaf etməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın rolu əvəzolunmazdır. 2004-cü ilin sentyabr ayında xanım Mehriban Əliyeva ənənəvi müsiqinin, ədəbiyyatın və poeziyanın təşviqi ilə bağlı fəaliyyətinə, musiqi savadlılığın və beynəlxalq mədəniyyət mübadiləsinin təşviqi istiqamətindəki roluna və təşkilatın ideyalarına sadiq olduğuna görə YUNESKO-nun şifahi ənənələr və musiqi ənənələri sahəsində Xoşməramlı Səfiri adına layiq görülmüşdür. Xanım Mehriban Əliyeva YUNESKO dəyərlərini təşviq etmək məqsədi daşıyan bir sıra iri miqyaslı tədbirlərin həm milli, həm də beynəlxalq səviyyələrdə keçirilməsinin təşəbbüskarı olmuşdur. Bu cür fəaliyyət nəticəsində Azərbaycan Respublikası ilə YUNESKO arasında əməkdaşlığın genişlənməsinə dəyərli töhfələr verilmişdir. Mədəni irsin qorunması üçün verdiyi töhfələrə görə xanım Mehriban Əliyeva YUNESKO-nun Baş direktoru vəzifəsində çalışmış Koiçiro Matsuura tərəfindən xatirə medalı (2008-ci ildə), İrina Bokova tərəfindən isə "Qızıl Motsart" medalı ilə təltif olunmuşdur (2010-cu ildə).

Azərbaycanın tarixi abidələri hesab olunan paytaxt Bakının İçərişəhər Qız qalası və Şirvanşahlar Sarayı Kompleksi, habelə Qobustan Milli tarix-bədii qoruğu YUNESKO-nun Dünya Maddi İrs Siyahısına salınmışdır.

Qarşılıqlı münasibətlərin gücləndirilməsi istiqamətində başqa bir əlamətdar hadisə 2013-cü il iyulun 18-də Azərbaycan Respublikası və YUNESKO arasında təhsil, elm, mədəniyyət və kommunikasiya sahələrində əməkdaşlığa dair Çərçivə Sazişinin imzalanmasından ibarət idi ki, bu da Azərbaycan Respublikasına YUNESKO-nun donorlarından biri kimi fəaliyyət göstərmək imkanı yaratmışdır. Həmin Sazişə uyğun olaraq qızlar üçün təhsil, maddi və qeyri-maddi mədəni irsin qorunması, gender bərabərliyi, mədəniyyətlərarası dialoq, təbii fəlakətlərin qarşısının alınması sahələrində və s. sahələrdə YUNESKO-nun qlobal missiyasını dəstəkləmək üçün Azərbaycan Respublikası tərəfindən bu təşkilata 5 milyon ABŞ dolları məbləğində maddi töhfə verilmişdir.

Hazırda Afrikada (Tanzaniyada, Uqandada və Keniyada) qızlar üçün təhsilə, Asiyada (Banqladeşdə) və Latın Amerikasında (Qvatemalada) qeyri-maddi mədəni irsin qorunmasına, habelə mədəniyyətlərarası dialoq və elm məsələlərinə dair layihələr xüsusi hamilik fondu vasitəsilə Azərbaycan Respublikası tərəfindən maliyyələşdirilir.

Eyni zamanda, Azərbaycan Respublikası bu təşkilatın bir sıra mühüm tədbirlərinə, o cümlədən, YUNESKO-nun Beynəlxalq Bioetika Komitəsinin 18-ci sessiyasına (2011-ci ildə), YUNESKO-nun Bədən Tərbiyəsi və İdman üzrə Hökumətlərarası Komitəsinin növbədənkənar sessiyasına və YUNESKO-nun Qeyri-maddi İrsin Qorunması üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasına ev sahibliyi etmişdir. Bundan başqa, YUNESKO 2011-ci ildən etibarən Azərbaycan Respublikasında keçirilən dörd Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun rəsmi tərəfdaşı olmuşdur. 2015 və 2017-ci illərdə bu Forumlar çərçivəsində Azərbaycan Respublikası YUNESKO-nun mədəniyyətlərarası və dinlərarası dialoq üzrə kafedralarının iki Akademik Forumuna ev sahibliyi etmişdir.

Demək olar ki, hər il YUNESKO-nun iqamətgahında Azərbaycanın tarixi hadisələrinin ildönümü və dahi şəxsiyyətlərinin yubiley mərasimləri keçirilir. Bu cür əlamətdar hadisələr arasında Məhəmməd Füzulinin anadan olmasının 500 illik, Azərbaycanın tarixi eposu olan "Kitabi Dədə Qorqud"un isə 1300 illik yubileyini qeyd etmək olar.

25 illik əməkdaşlıq ərzində Azərbaycanın muğam ifaçısı Alim Qasımov YUNESKO-nun Beynəlxalq Musiqi Şurasının mükafatı ilə təltif edilib, dünya mədəni irsinə verdiyi töhfələrə görə rəssam Tahir Salahova YUNESKO-nun "Pikasso" qızıl medalı təqdim olunub, bəstəkar Firəngiz Əlizadə isə YUNESKO-nun "Sülh naminə incəsənət xadimi" adına layiq görülüb.

# United Nations Population Fund

UNFPA is the lead UN agency for delivering a world where every pregnancy is wanted, every childbirth is safe and every young person's potential is fulfilled.

UNFPA started its assistance to the Republic of Azerbaijan in 1994 to address the reproductive health concerns of the population. This milestone year also marked the initiation of a long-term partnership with the Republican Centre for Family Planning, which has delivered a comprehensive range of reproductive health services to the population. UNFPA also helped to establish the first ever family planning centers in the country in order to increase community awareness of and access to modern methods of contraception. In 1997, the first nationwide training programme on reproductive health and family planning was introduced.

UNFPA has expanded the scope of its strategic interventions in Azerbaijan with an increased focus on the availability of population data and advocacy for gender equality since becoming a fully-fledged country office in 1996. The Country Office joined efforts with the Government, civil society organizations, private sector, bilateral and multilateral partners to accelerate progress on the International Conference on Population and Development (ICPD) agenda in Azerbaijan through contributions to the national development priorities.

The concerted efforts of the organization to advocate for strengthened national health systems for the purposes of improved family planning led to the adoption of the first ever National Reproductive Health Strategy of the Republic of Azerbaijan (2008-2015).

UNFPA in Azerbaijan focuses on enhancing the national capacity to improve the availability, accessibility and utilization of population data as a basis for formulating, implementing and monitoring national policies and programmes to appropriately address both current and future needs. Substantive support was rendered to the Government for conducting the first post-independence (1999) and subsequent (2009) National Population Censuses. A series of quantitative and qualitative surveys and studies have been conducted to generate knowledge and evidence regarding population dynamics and its interlinkages with sexual and reproductive health and rights and gender equality in line with national priorities. The endorsement of the Concept of the Demographic Development followed by the development of the State Program on Population Development and Demography has been acknowledged as a milestone achievement reflecting the Government's efforts and commitment to better address population and development issues in the country.

As the lead UN agency for gender equality in Azerbaijan UNFPA provides support to the Government to create an enabling legal and policy environment for the promotion of gender equality and women's empowerment. Advocacy efforts to bring the national legislation concerning the women into full compliance with the provisions of the UN Convention on Elimination of All Forms of Discrimination against Women (CEDAW) have led to the adoption of two landmark laws on the Provisions of Gender Equality (2006) and on Prevention of Domestic Violence (2010). To build upon these achievements UNFPA continues its efforts for the establishment of a national referral mechanism for the victims of gender based violence. UNFPA has taken a lead in efforts to address gender based discrimination including such harmful practices as gender biased sex selection and early marriages to contribute to the full realization of gender equality and women's rights in the country.

Recognizing the vital importance of providing opportunities for young people to learn about and protect their own health, UNFPA's support also focuses on out of school education on sexual and reproductive health and rights. UNFPA's experience shows that including young people in issues that directly affect them contributes to their self-confidence, allows them to fully enjoy their fundamental human rights and eventually leads to better decisions.

UNFPA

# Birləşmiş Millətlər Təşkilatının Əhali Fondu

BMT-nin Əhali Fondu hər bir hamiləliyin arzu edilən olduğu, hər bir doğuşun təhlükəsiz keçdiyi və hər bir gəncin potensialının reallaşa biləcəyi dünyaya nail olmaq üçün çalışan BMT-nin aparıcı təşkilatıdır.

BMT-nin Əhali Fondu əhalinin reproduktiv sağlamlıq problemlərini həll etmək məqsədilə Azərbaycan Respublikasına 1994-cü ildən dəstək verməyə başlayıb. BMT-nin Əhali Fondunun əhaliyə geniş spektrli reproduktiv sağlamlıq xidmətləri təqdim edən Respublika Ailə Planlaşdırması mərkəzi ilə uzunmüddətli tərəfdaşlığının da bünövrəsi həmin ildə qoyulub. BMT-nin Əhali Fondu həmçinin müasir kontrasepsiya üsulları haqqında ictimaiyyətin məlumatlandırılması və kontrasepsiya vasitələrinin əlçatan olması məqsədilə ölkədə ilk ailə planlaşdırma mərkəzlərinin yaradılmasına dəstək göstərdi. 1997-ci ildə reproduktiv sağlamlıq və ailə planlaşdırması haqqında ilk ümummilli təlim proqramı təqdim olundu.

BMT-nin Əhali Fondu 1996-cı ildə Azərbaycanda tam Ölkə Nümayəndəliyi kimi fəaliyyətə başladığı vaxtdan etibarən əhali məsələləri və gender bərabərliyinin təşviqatı da daxil olmaqla həyata keçirdiyi strateji müdaxilələrin əhatə dairəsini genişləndirdi. Ölkə Nümayəndəliyi Azərbaycanda milli inkişaf prioritetlərinə töhfə verməklə Əhali və İnkişaf üzrə Beynəlxalq Konfransın gündəmində olan məqsədlər üzrə fəaliyyəti sürətləndirmək məqsədilə hökumət, qeyri-hökumət təşkilatları və özəl sektor ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığa başladı.

Təkmilləşdirilmiş ailə planlaşdırılması məqsədilə təşkilatın milli səhiyyə sisteminin gücləndirilməsi istiqamətində apardığı fəaliyyət Azərbaycan Respublikasının ilk Milli Reproduktiv Sağlamlıq Strategiyasının (2008 -2015) qəbulu ilə nəticələndi.

BMT-nin Əhali Fondu Azərbaycanda cari və gələcək əhali məsələləri üzrə qəbul ediləcək proqramların formalaşdırılması, həyata keçirilməsi və monitorinqi üçün əhali haqqında məlumatların mövcudluğu, əlçatanlığı və istifadəsini yaxşılaşdırmaq məqsədilə milli potensialın gücləndirilməsinə xüsusi diqqət yetirir. Belə ki, ölkə müstəqilliyi yenidən qazanıldıqdan sonra keçirilən əhalinin siyahıya alınması (1999, 2009) prosesində hökumətə əsaslı dəstək verildi. Milli prioritetlərə uyğun oalraq əhali dinamikası və onun cinsi və reproduktiv sağlamlıq və hüquqlar, eyni zamanda gender bərabərliyi ilə əlaqələrinə dair məlumatları təmin etmək üçün bir sıra kəmiyyət və keyfiyyət araşdırmaları və sorğuları keçirildi. Demoqrafik İnkişaf Konsepsiyasının təsdiqlənməsi nəticəsində "Azərbaycan Respublikasında Əhali və Demoqrafik İnkişaf sahəsində Dövlət Proqramı"nın hazırlanması hökumətin əhali və inkişaf məsələlərinin həll olunması yolunda səylərinin bariz nümunəsi kimi dəyərləndirilmişdir.

Azərbaycanda gender bərabərliyi üzrə aparıcı BMT qurumu olan Əhali Fondu gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsinin təşviqinə imkan verən hüquqi və siyasi mühitin yaranması üçün hökumətlə yaxından əməkdaşlıq edir. Qadınlara dair Milli qanunvericiliyin "Qadınlara qarşı hər cür ayrı-seçkiliyin aradan qaldırılması" haqqında Konvensiyanın müddəalarına tam uyğunluğunu təmin etmək məqsədilə təbliğat səyləri Gender bərabərliyinin təminatları haqqında (2006) və Məişət zorakılığının qarşısının alınması haqqında (2010) iki mühüm qanunun qəbul olunması ilə nəticələndi. Bu fəaliyyətin davamı olaraq, BMT-nin Əhali Fondu gender əsaslı zorakılıq qurbanları üçün milli istiqamətləndirmə mexanizminin qurulması yönündə səylərini davam etdirir. BMT-nin Əhali Fondu ölkədə gender bərabərliyinin və qadın hüquqlarının tam şəkildə təmin edilməsinə dəstək vermək üçün gender əsaslı cinsi seçim və erkən nikahlar kimi xoşagəlməz ənənələr daxil olmaqla gender əsaslı ayrı-seçkiliyin aradan qaldırılması istiqamətində layihələr həyata keçirir.

Gənclərin öz sağlamlığı haqqında öyrənmə və onu qoruma imkanlarının təmin edilməsinin vacibliyini nəzərə alaraq, BMT-nin Əhali Fondu, həmçinin məktəbdən kənar təhsil vasitəsilə cinsi və reproduktiv sağlamlıq və hüquqlara də diqqət yetirir. BMT-nin Əhali Fondunun təcrübəsi göstərir ki, gəncləri birbaşa özləri ilə bağlı məsələlərə cəlb etmək onlarda özünə güvən hissini yaradır və onların əsas insan hüquqlarından istifadə etmələri və, nəticə etibarilə, daha düzgün qərarlar qəbul etmələrinə imkan verir.

# United Nations High Commissioner for Refugees

The United Nations High Commissioner for Refugees (UNHCR), the UN Refugee Agency, established its presence in Azerbaijan in December 1992 as part of UNHCR's first emergency assistance operation in the former Soviet Union. The conflict in and around the Nagorno-Karabakh region of the Republic of Azerbaijan had already generated more than half a million displaced people, with the number rapidly expanding as the hostility escalated. The period of 1992-1994 saw the peak of displacement, as the number of people seeking safety hit one million, while the total population of the country was only 7.2 million.

Along with emergency relief assistance, UNHCR implemented large scale shelter, education, healthcare, nutrition, water supply, sanitation and income generation programmes over a ten year period of direct assistance in partnership with other UN agencies. As the country experienced remarkable economic growth from the mid-2000s and the Government significantly increased investment in addressing the needs of the displaced population, UNHCR gradually reduced its direct relief assistance by reorienting its operations towards legal counselling, small scale self-reliance projects, monitoring and advocacy.

UNHCR organizes training and other capacity enhancement activities for government officials, law enforcement agencies and members of the Judiciary in order to facilitate the development of well-organized coordination mechanisms to respond effectively and in line with international recognized standards to asylum, mixed-migration and border management challenges. In accordance with its global mandate, UNHCR carries out activities for the prevention and reduction of statelessness, including the provision of direct individual assistance to persons in relation to naturalization processes. Some commendable milestones in Azerbaijan in relation to the prevention of statelessness are the naturalization of some 250,000 individuals from Armenia, 50,000 Mesketian Turks from Central Asia and 7,000 persons of Iranian origin in 1998.

UNHCR has been working closely with a wide range of Government counterparts, UN agencies and NGO partners to protect and identify longer term durable solutions to the plight of asylum-seekers and refugees entering Azerbaijan fleeing wars, conflicts and persecution. Since the late 1990s UNHCR has been providing international protection and material support to refugees and asylum seekers in the country. The numbers have gradually been reduced from a high of 12,000 in 1999 to 1,417 persons of concern in 2017. In dialogue with the Government, UNHCR has been exploring livelihoods activities aimed at assisting refugee families in developing coping mechanisms to address their basic needs and facilitate durable solutions.

UNHCR has been able to facilitate the delivery of non-food items from the US based Lutheran World Relief (LWR) in 1997-2011 and vision aid from the Japanese Fuji Optical Company (2005-2017).

Starting in 2010, UNHCR has supported the tertiary education of over 20 refugee students within the DAFI Scholarship Programme funded by the German Federal Government. UNHCR's Refugee Women and Youth Centre located in Baku, provides an opportunity for refugees to socialize as well as to enhance their skills through various educational training programmes. Furthermore, UNHCR is involved in activities towards the prevention of and response to Sexual and Gender Based Violence (SGBV), as well as raising awareness on gender equality to promote empowerment of women and girls.

UNHCR's current interventions with internally displaced persons (IDPs) focus on needs assessments, awareness raising and advocacy for their rights, including the right to return home voluntarily. To ensure that IDPs' rights are protected within the national legislation and in compliance with the international protection standards, UNHCR provides free legal counselling and assistance to IDPs. The total number of IDPs in Azerbaijan was 613,129 at the end of 2016, out of whom 10,805 directly benefitted of UNHCR implemented or funded programs in 2016.

UNHCR will maintain its activities of support to the Government of Azerbaijan in assisting and protecting internally displaced people, including by facilitating their return home once a peaceful solution to the Nagorno-Karabakh conflict is found. UNHCR will also continue to advocate with the Government of Azerbaijan for the establishment of an inclusive and rights-based asylum system, which will allow refugees to find safety and successfully integrate in the country.

UNHCR
The UN Refugee Agency

# Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı

BMT-nin qaçqınlarla işləyən qurumu olan Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK) Azərbaycanda öz nümayəndəliyini 1992-ci ildə, təşkilatın keçmiş Sovet İttifaqında həyata keçirdiyi ilk fövqəladə yardım əməliyyatının tərkib hissəsi kimi yaratmışdır. Həmin vaxt Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında gedən münaqişə üzündən artıq yarım milyondan çox insan didərgin düşmüş və döyüş əməliyyatları şiddətləndikcə bu say sürətlə daha da artmaqda idi. 1992-1994-cü illər didərginliyin ən yüksək həddə çatdığı dövr olmuşdur. Həmin dövrdə sığınacaq axtaran insanların sayı bir milyona çatmışdır, halbuki, ölkə əhalisinin ümumi sayı cəmi 7,2 milyon idi.

Fövqəladə yardım göstərməklə yanaşı, BMT QAK birbaşa yardımların on illik dövrü ərzində BMT-nin digər qurumları ilə birlikdə sığınacaq təminatı, təhsil, səhiyyə xidmətləri, ərzaq, su təchizatı, sanitariya xidmətləri və gəlir gətirən fəaliyyətlərlə bağlı geniş miqyaslı proqramlar həyata keçirmişdir. 2000-ci ilin ortalarından etibarən ölkə əhəmiyyətli iqtisadi inkişafa nail olduğuna və hökumət məcburi köçkün əhalinin ehtiyaclarının ödənilməsinə ayrılan vəsaitləri xeyli dərəcədə artırdığına görə, BMT QAK tədricən birbaşa yardımlarını azaltmış və əməliyyatlarının istiqamətini dəyişərək onları hüquqi məsləhət vermə, özünü təmin etmə üzrə kiçik həcmli layihələrin icrası, monitorinq və təşviqat fəaliyyətlərinə yönəltmişdir.

BMT QAK sığınacaq, qarışıq miqrasiya və sərhəd nəzarəti problemlərinin səmərəli və qəbul olunmuş beynəlxalq standartlara uyğun surətdə həll edilməsi üçün yaxşı təşkil olunmuş koordinasiya mexanizmlərinin inkişafına yardım göstərmək məqsədi ilə dövlət qulluqçuları, hüquq-mühafizə və məhkəmə orqanlarının nümayəndələri üçün təlimlər, onların bilik və bacarıqlarının artırılmasına yönələn digər fəaliyyətlər təşkil edir. Özünün qlobal mandatına uyğun olaraq, BMT QAK vətəndaşsızlıq hallarının qarşısının alınmasına və azaldılmasına yönələn fəaliyyətlərlə də məşğuldur, o cümlədən şəxslərə naturalizasiya prosesləri ilə bağlı birbaşa fərdi yardım göstərir. Vətəndaşsızlıq hallarının qarşısının alınması ilə bağlı Azərbaycanın görmüş olduğu təqdirəlayiq tədbirlər sırasında 1998-ci ildə Ermənistandan olan 250 min nəfərin, Mərkəzi Asiyadan olan 50 min məhsəti türkünün, və İran mənşəli 7 min nəfərin naturalizasiyasını göstərmək olar.

BMT QAK müharibə, münaqişə və təqiblərdən qaçaraq Azərbaycana daxil olan sığınacaq axtaranları və qaçqınları müdafiə etmək və onların durumunun uzunmüddətli həlli yollarını tapmaq üçün hökumət tərəfdaşları, BMT qurumları və QHT-lərlə sıx əməkdaşlıq şəraitində çalışır. 1990-cı illərin sonlarından indiyədək BMT QAK ölkədə qaçqınları və sığınacaq axtaranları beynəlxalq himayə və maddi yardımla təmin edir. BMT QAK-ın mandatı altında olan bu şəxslərin sayı tədricən azalaraq ən yüksək göstərici olan 1999-cu ildəki 12 min nəfərdən 2017-ci ildə 1417 nəfərə enmişdir. Hökumətlə danışıqlarda BMT QAK qaçqın ailələrinin zəruri ehtiyaclarının ödənilməsinə və durumlarının uzunmüddətli həllinə şərait yaradılmasına yönələn həll mexanizmlərinin formalaşdırılmasında onlara yardım göstərmək məqsədi daşıyan, onların öz yaşayışlarını təmin etməsinə yönələn fəaliyyətləri araşdırmışdır.

BMT QAK ABŞ-ın Ümumdünya Lüteran Yardım Təşkilatı (LWR) tərəfindən 1997-2011-ci illərdə qeyri-ərzaq mallarının Azərbaycana çatdırılmasına və "Fuci Optikal" şirkəti tərəfindən aparılan görmə qabiliyyətinin müayinəsi üzrə yardım fəaliyyətlərinə (2005-2017) də köməklik göstərmişdir.

2010-cu ildən başlayaraq BMT QAK Almaniyanın federal hökuməti tərəfindən maliyyələşdirilən DAFI Təqaüd Proqramı çərçivəsində 20-dən artıq qaçqının ali təhsilinə yardım göstərmişdir. BMT QAK-ın Bakıda yerləşən Qaçqın Qadın və Gənclər Mərkəzi müxtəlif təhsil və təlim proqramları vasitəsilə qaçqınlar üçün sosiallaşma, habelə bilik və bacarıqların artırılması üçün şərait yaradır. Bundan başqa, BMT QAK cinsi və gender əsaslı zorakılıq hallarının qarşısının alınması və cavab tədbirləri, eləcə də qadınların və qızların səlahiyyətləndirilməsi üçün gender bərabərliyi üzrə məlumatlılığın artırılması istiqamətində fəaliyyətlərdə iştirak edir.

BMT QAK-ın məcburi köçkünlərlə bağlı hazırkı müdaxilələri onların tələbatlarının qiymətləndirilməsinə, məlumatlılığının artırılmasına və hüquqlarının, o cümlədən doğma yurdlarına könüllü qayıdış hüququnun müdafiəsinə yönəlmişdir. Məcburi köçkünlərin hüquqlarının milli qanunvericiliklə və beynəlxalq himayə standartlarına uyğun surətdə qorunmasını təmin etmək üçün BMT QAK məcburi köçkünlərə ödənişsiz hüquqi məsləhətlər verir və hüquqi yardım göstərir. 2016-cı ilin sonunda Azərbaycanda məcburi köçkünlərin ümumi sayı 613 129 nəfər olmuşdur ki, onlardan 10 min 805 nəfəri 2016-cı il ərzində BMT QAK tərəfindən həyata keçirilən və ya maliyyələşdirilən layihə və proqramlardan birbaşa faydalanmışlar.

BMT QAK məcburi köçkün əhali üçün yardım və himayə sahəsində Azərbaycan hökumətinə dəstək fəaliyyətini davam etdirəcək, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə nail olunduqda onların doğma yurdlarına qayıdışına kömək edəcək. BMT QAK həmçinin inklüziv xarakter daşıyan və hüquqların qorunmasına əsaslanan, qaçqınların ölkədə təhlükəsizliyə qovuşmalarına və cəmiyyətə uğurla inteqrasiya etmələrinə imkan yaradan sığınacaq sisteminin bərqərar edilməsində Azərbaycan hökumətinə dəstək göstərməkdə davam edəcək.

# United Nations Children's Fund

UNICEF's first country programme was established in 1993 and mostly dealt with immediate and urgent humanitarian needs such as immunisation, health, rehabilitation, nutrition, education and child protection.

Prior to this, in 1992, Azerbaijan was amongst the first countries in the world to ratify the Convention on the Rights of the Child. In 1999, Azerbaijan acceded to the Convention on the Elimination of all forms of Discrimination against Women and ten years later in 2009 it ratified the Convention on the Rights of People with Disabilities. These events have underlined the commitment of the nation to uphold the highest international standards in protecting the rights of children, including girls and those with disabilities, whom are often amongst the most vulnerable in any society.

UNCEF has played a role in a number of important advances in the protection of children's health and rights at the national level. For instance, in 2002, Azerbaijan was declared polio-free, a critical step towards the protection of children's health from what can often be a fatal disease. Furthermore, in 2003, the national law on breastfeeding was adopted, providing important protections to the health and early development of infants.

With UNICEF's advocacy and support, the Government has also worked to improve the health care system and implement healthcare reform. National commitment to the long-term financing of Extended Programme of Immunisation (EPI) was achieved through the Vaccine Independence Initiative, with the Government committing to take over responsibility for the procurement of EPI vaccines from 2003. One of the most notable achievements of the past years has been the achievement of rates in excess of 95% immunization for all vaccines.

Important achievements towards combating micro nutrient deficiencies include the introduction of salt legislation, provision of equipment to salt factories, the conducting of a Vitamin A survey and advocacy for food fortification in order to eliminate iron deficiency anaemia.

Through the education reform process, Early Child Care and Development (ECCD) approaches have been integrated into pilot formal pre-schools. UNICEF has supported the improvement to the school curriculum and the empowerment of parents, families, teachers and care givers in health, nutrition, psycho-social care, early learning and child protection. In addition a network of Active Learning schools has been established to introduce interactive learning methodologies and practices.

More recently, in 2011, the increase in the legal age of marriage for all children to 18 has emphasized the country's determination to reduce the prevalence of early marriage, and its associated risks to the health of young girls and related barriers to their education and wellbeing.

Another significant achievement is the empowerment and participation of young people, including IDP/refugee youth in cultural, educational, health and political arenas. The promotion of the incorporation of children's rights into national planning and policies is another important achievement. National partners have been assisted to develop national databases in relation to important child rights issues and to use this data for policy development and monitoring.

UNICEF is working with its partners to change attitudes towards children with disabilities in Azerbaijan, including their integration into mainstream society and education system. UNICEF supports child-friendly reforms of justice systems in line with international standards. We promote a constructive, tailored response for each child in conflict with the law, in which deprivation of liberty is a last resort and reintegration the ultimate aim.

While in the early years UNICEF's activities impacted a few thousand children through direct assistance, today the organization strives to bring about systemic change and to touch the lives of all of Azerbaijan's children. The UNICEF Country Programme for 2016-2020 supports Azerbaijan in its efforts to contribute to the targets related to child and adolescent rights stipulated in the "Azerbaijan 2020: Look in the Future" Concept of Development aligned with SDGs as well as other sectoral policies and strategies.

unicef

for every child

# BMT-nin Uşaq Fondu

UNICEF-in ilk ölkə proqramının əsası 1993-cü ildə qoyulmuşdur. Həmin proqram, əsasən, immunlaşdırma, səhiyyə, reabilitasiya, qidalanma, təhsil və uşaqların müdafiəsi kimi təxirəsalınmaz və təcili humanitar məsələlərlə məşğul olmuşdur.

Azərbaycan 1992-ci ildə dünyada Uşaq hüquqları haqqında Konvensiyanı ratifikasiya edən ilk ölkələrdən olmuşdur. Həmçinin Azərbaycan 1999-cu ildə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması haqqında Konvensiyaya qoşulmuş və on il sonra 2009-cu ildə Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanı ratifikasiya etmişdir. Bu hadisələr Azərbaycan xalqının istənilən cəmiyyətdə bir çox hallarda ən həssas vəziyyətdə olan uşaqların, o cümlədən qızların və əlilliyi olan uşaqların hüquqlarının qorunması sahəsində ən yüksək beynəlxalq standartları dəstəkləmə iradəsinə malik olduğunu vurğulamışdır.

UNICEF indiyədək uşaqların sağlamlığının və hüquqlarının milli səviyyədə müdafiə olunmasının təkmilləşdirilməsi istiqamətində bir sıra vacib fəaliyyətlərdə rol oynamışdır. Məsələn, 2002-ci ildə Azərbaycan poliomielit xəstəliyinin olmadığı ölkə elan edilmişdir ki, bu da uşaqların sağlamlığının bir çox hallarda bu ölümcül xəstəlikdən qorunması istiqamətində olduqca əhəmiyyətli bir addımdır. Bundan başqa, 2003-cü ildə ölkədə ana südü ilə qidalanmaya dair milli qanun qəbul edilmişdir ki, bu qanun körpələrin sağlamlığı və erkən inkişafı üçün ciddi müdafiənın təmin edilməsi deməkdir.

UNICEF-in fəal müdafiəsi və dəstəyi ilə hökumət həmçinin səhiyyə sistemini təkmilləşdirmək və səhiyyə islahatları həyata keçirmək üçün işlər görmüşdür. 2003-cü ildən etibarən hökumətin GİP peyvəndlərinin satın alınması vəzifəsini üzərinə götürmüş və bu öhdəliklə Peyvənləşdirmə üzrə müstəqil təşəbbüs vasitəsilə Genişləndirilmiş İmmunizasiya Proqramının (GİP) uzunmüddətli maliyyələşdirilməsi sahəsində milli iradəyə nail olunmuşdur. Ötən illərin ən diqqətəlayiq nailiyyətlərindən biri bütün peyvəndlər üzrə 95 faizdən artıq immunlaşdırma səviyyəsinə nail olunmasıdır.

Mikroqidalandırıcıların çatışmazlığı ilə mübarizə sahəsində əhəmiyyətli nailiyyətlərə duzla bağlı qanunvericiliyin tətbiqi, duz fabriklərinin avadanlıqla təchiz edilməsi, A vitamini ilə bağlı sorğunun keçirilməsi və dəmir çatışmazlığından yaranan anemiyanı aradan qaldırmaq üçün qidanın zənginləşdirilməsi məqsədilə fəal müdafiə tədbirləri daxildir.

Təhsil islahatı prosesi vasitəsilə formal məktəbəqədər təhsil müəssisələrinin proqramına Uşaqlara Erkən Qayğı və onların Erkən İnkişafı (UEQEİ) daxil edilmişdir. UNICEF məktəb proqramının təkmilləşdirilməsinə və valideynlərin, ailələrin, müəllimlərin, himayəçilərin (qəyyumların) səhiyyə, qidalanma, psixo-sosial qayğı, erkən öyrənmə və uşaqların müdafiəsi sahəsində gücləndirilməsinə dəstək göstərmişdir. Bundan başqa, interaktiv öyrənmə metodologiya və təcrübələrini tətbiq etmək məqsədilə, Fəal Təlim məktəbləri şəbəkəsi yaradılmışdır.

Daha yaxın dövrdə - 2011-ci ildə bütün uşaqlar üçün qanuni nikah yaşının 18-ə qaldırılması ölkənin erkən nikahların yayılmasını, həmçinin belə nikahların gənc qızların sağlamlığı üçün müvafiq risklərini və onların təhsil və rifahı üçün əlaqədar maneələrini azaltmaqla bağlı qətiyyətini vurğulamışdır.

Digər bir əhəmiyyətli nailiyyət gənclərin, o cümlədən məcburi köçkün və qaçqın gənclərin mədəni, təhsil, səhiyyə və siyasi sahələrdə gücləndirilməsi və iştirakıdır. Uşaq hüquqlarının milli plan və siyasətlərə daxil edilməsinin dəstəklənməsi mühüm nailiyyətdir və uşaq hüquqlarının milli plan və siyasətlərə daxil edilməsinin təbliği isə digər bir nailiyyətdir. Milli tərəfdaşlara uşaq hüquqları sahəsində mühüm məsələlərlə əlaqədar milli məlumat bazalarının hazırlanmasında və həmin məlumatlardan siyasət hazırlanması və monitorinq məqsədilə istifadə edilməsində köməklik göstərilmişdir.

UNICEF Azərbaycanda əlilliyi olan uşaqların sosial inklüziyasını təşviq etmək məqsədilə öz tərəfdaşları ilə çalışır. Buraya əlilliyi olan uşaqların əsas təhsil sisteminə, o cümlədən idman və yaradıcılıq fəaliyyətlərinə inteqrasiya edilməsi daxildir. UNICEF beynəlxalq standartlara uyğun şəkildə yuvenal ədliyyə sahəsindəki islahatları dəstəkləyir. Bu dəstəyə peşəkar potensialın artırılması, uşaq dostu ədliyyə prosedurlarının tətbiqi, uşaqlarla bağlı uyğun cavab tədbirlərinin təşviqi, həbs tədbirinə alternativ olaraq əsas diqqətin mediasiya və probasiya tədbirləri istiqamətində artırılması və qanunla zidiyyətdə olan uşaqlar üçün ədliyyəyə çıxışın yüksəldilməsi daxildir.

İlk illərdə UNICEF-in fəaliyyətləri birbaşa kömək yolu ilə bir neçə min uşağı əhatə etmiş olsa da, hazırda təşkilat sistemli dəyişiklik yaratmağa və bütün Azərbaycan uşaqlarının həyatına təmas etməyə cəhd göstərir. UNICEF-in 2016-2020-ci illər üçün Ölkə Proqramı Azərbaycana uşaq və yeniyetmələrin DİM-lərə uyğunlaşdırılmış "Azərbaycan 2020: Gələcəyə baxış" İnkişaf Konsepsiyasında, eləcə də digər sahəvi siyasət və strategiyalarda əks olunmuş hüquqları ilə bağlı hədəflərə töhfə vermək istiqamətində səylərində dəstək göstərir.

# WORLD HEALTH ORGANIZATION

The WHO Country Office, Azerbaijan was established in June 1994 in Baku to assist in the implementation of WHO programmes in the country.

**Azerbaijan and WHO**. Azerbaijan has a long history of active participation in WHO's governing bodies. Since 2006, the Ministry of Health has twice been represented on WHO's Executive Board, and once on the WHO European Region's Standing Committee of the Regional Committee. In 2011, Azerbaijan hosted WHO's annual governance meeting for the European Region - the 61st session of the WHO Regional Committee for Europe. At that meeting, ministers of health and public health experts from the 53 countries in the WHO European Region agreed on action plans to address major public health challenges and growing threats across the European Region. A new European Health Policy Framework -Health 2020 -was also discussed at the Azerbaijan Regional Committee, and adopted the subsequent year. With its focus on stronger equity and better governance for health, Health 2020 is a precursor and complements the 2030 Sustainable Development Agenda.

## Key health milestones

- The country was declared polio-free in 2002.
- It ratified the WHO Framework Convention on Tobacco Control, in 2005, an international treaty developed in response to the globalization of the tobacco epidemic.
- With WHO support, Azerbaijan began HIV treatment services in 2006.
- The WHO Director-General has visited the country three times over the last decade, and in 2007 awarded First Lady Dr Mehriban Aliyeva the WHO Ihsan Dogramaci Family Health Foundation Prize.
- Between 2007-2014, maternal mortality in Azerbaijan fell by more than 50%.
- Azerbaijan successfully interrupted malaria transmission in 2013, meeting its national goal laid out in the 2008-2013 strategic plan. Now the country focusses on preventing malaria re-introduction. In 2015 the national strategy for prevention of malaria reintroduction for the years 2015-2020 was adopted.
- The country received measles and rubella elimination status in 2016.

## WHO's work in Azerbaijan today

Today, the WHO Office in Baku comprises a small team of six WHO staff. It supports the Government to achieve the 2030 Sustainable Development Agenda, providing guidance on policy-making, building up local relationships to implement technical cooperation, setting standards and agreements, and ensuring that public health measures are coordinated to address ongoing health priorities and in times of crisis.

Priorities for WHO's work in Azerbaijan are agreed through a biennial collaborative agreement (BCA). The office implements the agreement in close collaboration with national institutions and international partner agencies. It supports achieving Azerbaijan's national health policies and plans.

Among current health priorities and success are:

**Noncommunicable diseases** (NCDs) -WHO guided the development of the National NCD strategy and action plan 2016-2020.

**Tobacco control** -Tobacco advertising in various forms has been banned since 1997, and health warnings on packaging are legally mandated to cover 30% of the front and rear.

**Maternal and child health** -WHO has supported the development of the national maternal and child health programme. In 2015, the country moved to the International Live Birth Definition (ILBD), enabling more accurate recording for infant mortality.

**Health system strengthening** -The country is piloting mandatory health insurance in selected areas, with support from WHO.

**Immunization** -National clinicians and medical experts have received training in vaccine safety and contraindications against vaccination.

**Tuberculosis** -WHO supports the implementation of the national TB control programme

World Health Organization

# ÜMUMDÜNYA SƏHİYYƏ TƏŞKİLATI

Təşkilatın Azərbaycandakı proqramlarının yerinə yetirilməsinə kömək göstərmək məqsədilə 1994-cü ilin iyun ayında Bakı şəhərində Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycan Respublikasındakı Nümayəndəliyi yaradılmışdır.

**Azərbaycan Respublikası və Ümumdünya Səhiyyə Təşkilatı (ÜST).** Azərbaycan Respublikasının ÜST-nin rəhbər orqanlarında fəal iştirakı uzun tarixə malikdir. 2006-cı ildən etibarən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ÜST-nin İcraiyyə Şurasında iki dəfə, Avropa Regional Bürosunun Daimi Komitəsində isə bir dəfə təmsil olunmuşdur. 2011-ci ildə Azərbaycan Respublikası ÜST-nin Avropa regionu üzrə illik ali toplantısına -ÜST Avropa Regional Komitəsinin 61-ci sessiyasına ev sahibliyi etmişdir. Həmin toplantıda ÜST-nin Avropa regionuna daxil olan 53 ölkənin səhiyyə nazirləri və ictimai səhiyyə mütəxəssisləri bu regionda ictimai səhiyyə ilə bağlı əsas çətinlklərin və artan təhlükələrin öhdəsindən gəlmək məqəsdilə müvafiq fəaliyyət planlarını razılaşdırmışdırlar. Eyni zamanda, Regional Komitənin Azərbaycan Respublikasında keçirilmiş sessiyasında "Səhiyyə 2020" adlanan yeni Avropa səhiyyə siyasəti sənədi müzakirə edilərək növbəti il qəbul olunmuşdur. Səhiyyə sahəsində ədalətliliyin gücləndirilməsi və daha yaxşı idarəçiliyin təmin olunması məsələlərinin xüsusi yer aldığı "Səhiyyə 2020" siyasət sənədi "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin həm müjdəçisi, həm də tamamlayıcısı hesab olunur.

**Azərbaycan Respublikasının səhiyyə sahəsində əsas əlamətdar hadisələr**

- 2002-ci ildə Azərbaycan Respublikası poliomelitdən azad ölkə statusu alıb.
- 2005-ci ildə Azərbaycan Respublikası qlobal tütün epidemiyasının artan təhlükələrinə qarşı cavab olaraq işlənib hazırlanmış beynəlxalq müqaviləni - ÜST-nin "Tütünə qarşı mübarizə haqqında" Çərçivə Konvensiyasını ratifikasiya edib.
- 2006-cı ildə Azərbaycan Respublikasında HİV infeksiyasının müalicəsi üçün xidmətlərin göstərilməsinə ÜST-nin dəstəyi ilə başlanıb.
- Son on il ərzində ÜST-nin Baş direktoru Azərbaycan Respublikasına üç dəfə səfər edərək 2007-ci ildə ölkənin birinci xanımı Mehriban Əliyevanı ÜST-nin İhsan Doğramacı Ailə Sağlamlığı Fondunun mükafatı ilə təltif edib.
- 2007-2014-ci illərdə Azərbaycan Respublikasında ana ölümü hallarının səviyyəsi 50%-dən çox azalıb.
- 2008-2013-cü illər üzrə strateji planda nəzərdə tutulmuş milli məqsədə uyğun olaraq 2013-cü ildə Azərbaycan Respublikasında malyariyaya yoluxma hallarının qarşısı tam olaraq alınıb. Hazırda ölkədə bu xəstəliyin yenidən bərpa olunmasının qarşısının alınması məsələlərinə xüsusi diqqət yetirilir. "2016-2020-ci illər üçün Azərbaycan Respublikasında malyariya xəstəliyinin yenidən bərpa olunmasının qarşısının alınması" üzrə Milli Strategiya 2016-cı ildə qəbul edilib.
- 2016-cı ildə Azərbaycan Respublikası qızılca və məxmərik xəstəliklərini eliminasiya etmiş ölkə statusu alıb.

**ÜST-nin Azərbaycan Respublikasındakı hazırkı fəaliyyəti**

Hal-hazırda ÜST-nin Bakı şəhərində yerləşən Nümayəndəliyində 6 əməkdaş çalışır. "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nə nail olmaq məqsədilə bu Nümayəndəlik siyasət hazırlama sahəsində istiqamətlər verməklə, yerlərdə texniki əməkdaşlığı həyata keçirmək üçün əlaqələr qurmaqla, müvafiq standartları və razılaşmaları müəyyən etməklə, habelə mövcud və böhran zamanı yaranan səhiyyə prioritetlərinin öhdəsindən gəlmək üçün ictimai səhiyyə tədbirlərinin əlaqələndirilməsini təmin etməklə Azərbaycan Respublikası Hökumətinə dəstək verir.

ÜST-nin Azərbaycan Respublikasındakı fəaliyyəti ilə bağlı prioritetlər iki illik əməkdaşlıq sazişi (BCA) əsasında müəyyən edilir. Nümayəndəlik milli təşkilatlarla və beynəlxalq tərəfdaş agentliklərlə yaxından əməkdaşlıq etməklə bu sazişi yerinə yetirir və Azərbaycan Respublikasının milli siyasətlərinin və planlarının təmin edilməsinə dəstək verir.

Səhiyyə sahəsinə aid prioritetlər və nailiyyətlər arasında bunları qeyd etmək lazımdır:

**Qeyri-infeksion xəstəliklər** (QİX) -ÜST "Azərbaycan Respublikasında qeyri-infeksion xəstəliklərlə mübarizəyə dair 2015-2020-ci illər üçün Strategiyanın" və bu Strategiyanın icrası üzrə əsas fəaliyyət istiqamətlərinin işlənib hazırlanması prosesində aparıcı rola malik idi.

**Tütünə qarşı mübarizə** -1997-ci ildən etibarən tütün məmulatlarının müxtəlif formada reklamı qadağan olunur və qanuna əsasən tütün məmulatının istehlakının insanların səhhətinə zərəri haqqında xəbərdarlıq yazısının mətni tütün məmulatı qutusunun ön və arxa tərəflərinin 30%-i əhatə edir.

**Ana və uşaq sağlamlığı** -ÜST "Ana və uşaqların sağlamlığının qorunması üzrə" Dövlət Proqramının işlənib hazırlanmasına dəstək vermişdir. 2015-ci ildə Azərbaycan Respublikasında Diridoğulmanın Beynəlxalq Meyarlarına keçid uşaq ölümü hallarının daha dəqiq qeydiyyata alınmasına şərait yaradıb.

**Səhiyyə sisteminin gücləndirilməsi** -Azərbaycan Respublikasının seçilmiş rayonlarında icbari tibbi sığortanın pilot qaydada tətbiqi ÜST-nin dəstəyi ilə həyata keçirilir.

**İmmunlaşdırma** -Yerli tibb işçiləri və mütəxəssisləri vaksinlərin təhlükəsizliyi və vaksinasiyaya əks göstərişlər üzrə təlimlərdə iştirak edib.

**Vərəm** -ÜST "Vərəmlə mübarizə üzrə" Dövlət Tədbirlər Proqramının həyata keçirilməsinə dəstək verir.

# Acronyms

| | |
|---|---|
| AFFA | Azerbaijan Federation of Football Associations |
| AHIK | Confederation of Trade Unions |
| AIDA | Azerbaijan International Development Agency |
| ANAMA | Azerbaijan National Agency for Mine Action |
| ARRA | Agency for Rehabilitation and Reconstruction of Liberated Areas |
| ASAN | Azerbaijan Service and Assesment Network |
| ASK | National Confederation of Employers (Entrepreneurs) |
| BCA | Biennial Collaborative Agreement |
| CEDAW | UN Convention on Elimination of All Forms of Discrimination against Women |
| CRC | Convention on the Rights of the Child |
| ECCD | Early Child Care and Development |
| EPI | Extended Programme of Immunisation |
| EU | European Union |
| FAO | Food and Agriculture Organization of the United Nations |
| GNI | Gross National Income |
| HDI | Human Development Index |
| HDR | Human Development Reports |
| ICCPR | International Covenant on Civil and Political Rights |
| ICERD | International Convention on the Elimination of All Forms of Racial Discrimination |
| ICESCR | International Covenant on Economic, Social and Cultural Rights |
| IDD | Iodine Deficiency Disorders |
| IDEA | International Dialogue for Environmental Action |
| IDP | Internally Displaced Person |
| IFAD | International Fund for Agricultural Development |
| ILBD | International Live Birth Definition |
| ILO | International Labour Organization |
| IOM | International Organization for Migration |
| LWR | Lutheran World Relief |
| MDG | Millenium Development Goal |
| MFA | Ministry for Foreign Affairs |
| MLSPP | Ministry of Labour and Social Protection of the Population |
| MOU | Memorandum of Understanding |
| NAR | Nakhchivan Autonomous Republic |
| NCCSD | National Coordination Council for Sustainable Development |
| NCD(s) | Noncommunicable Diseases |
| NGO | Non-governmental Organization |
| NHDR | National Human Development Report |
| NRTC | NGO Resource and Training Center |
| OCHA | Former (UNDHA) UN Department of Humanitarian Affairs |
| OHCHR | The Office of the United Nations High Commissioner for Human Rights /United Nations Human Rights Council |
| OSCE | Organization for Security and Co-operation in Europe |
| PES | Public Employment Service |
| SCAD | Southern Caucasus Anti-Drug |
| SDG | Sustainable Development Goal |
| SSPF | State Social Protection Fund |
| TIC | Tourism Information Centre |
| UN | United Nations |
| UNAIDS | UN Joint Programme on AIDS |
| UNAPF | United Nations-Azerbaijan Partnership Framework |
| UNOCHA | United Nations Office for the Coordination of Humanitarian Affairs |
| UNAOC | United Nations Alliance of Civilizations |
| UNDESA | United Nations Department of Economic and Social Affairs |
| UNDHA | United Nations Department of Humanitarian Affairs |
| UNDP | United Nations Development Programme |
| UNESCO | United Nations Educational, Scientific and Cultural Organization |
| UNFPA | United Nations Population Fund |
| UNHCR | The Office of the United Nations High Commissioner for Refugees |
| UNICEF | United Nations Children's Fund |
| UNIDO | United Nations Industrial Development Organization |
| UNSC | United Nations Security Council |
| UNWTO | United Nations World Tourism Organization |
| UPR | Universal Periodic Review |
| USD | United States Dollar |
| VNR | Voluntary National Review |
| WFP | World Food Programme |
| WHO | World Health Organization |

# İxtisarlar

| | |
|---|---|
| AİDA | Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi |
| AFFA | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası |
| ANAMA | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik |
| ARRA | Azərbaycan Respublikası Ərazilərin Bərpası və Yenidən Qurulması üzrə Agentlik |
| ASAN | Azərbaycan Xidmət və Qiymətləndirmə Şəbəkəsi |
| ATƏM | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi |
| ATƏT | Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı |
| BƏT | Beynəlxaq Əmək Təşkilatı |
| BMqT | Beynəlxalq Miqrasiya Təşkilatı |
| BMT | Birləşmiş Millətlər Təşkilatı |
| BMTİP | BMT-nin İnkişaf Proqramı |
| BMTQAK | BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı |
| BMTSA | BMT-nin Sivilizasiyalar Alyansı |
| BMT ÜTT | BMT-nin Ümumdünya Turizm Təşkilatı |
| DİM | Dayanıqlı İnkişaf Məqsədi |
| DİMƏŞ | Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası |
| DSMF | Dövlət Sosial Müdafiə Fondu |
| ECOSOC | BMT-nin İqtisadi və Sosial Şurası |
| FAO | BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı |
| GİP | Genişləndirilmiş İmmunizasiya Proqramı |
| YÇX | Yod Çatışmazlığı Xəstəlikləri |
| IDEA | Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq |
| IFAD | Kənd Təsərrüfatı İnkişafı üzrə Beynəlxalq Fond |
| İKT | İnformasiya kommunikasiya texnologiyaları |
| KMH | Könüllü Milli Hesabat |
| MİİH | Milli İnsan İnkişafı Hesabatı |
| MİM | Minilliyin İnkişaf Məqsədləri |
| QHT | Qeyri-Hökümət Təşkilatı |
| QRTM | QHT-lərin Resurs və Təlim Mərkəzi |
| QSK | Qadınların Statusu üzrə Komissiya |
| OCHA | BMT-nin Humanitar İşlərin Əlaqələndirilməsi Departamenti |
| OHCHR | İnsan Hüquqları üzrə Ali Komissarlıq |
| SCAD | Cənubi Qafqazda narkotiklərə nəzarət |
| TİM | Turizm İnformasiya Mərkəzi |
| UNAIDS | BMT-nin HİV/AİDS üzrə Birgə Proqramı |
| UNAPF | Birləşmiş Millətlər Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivə Sənədi |
| UNDESA | BMT-nin İqtisadi və Sosial Məsələlər Departamenti |
| UNFPA | BMT-nin Əhali Fondu |
| UNİCEF | BMT-nin Uşaq Fondu |
| UNOV | BMT-nin Vyana Ofisi |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |
| XİN | Xarici İşlər Nazirliyi |
| YUNESKO | BMT-nin Təhsil, Elm və Mədəniyyət məsələləri üzrə Təşkilatı |
| YUNİDO | BMT-nin Sənaye İnkişafı Təşkilatı |
| ÜƏP | Ümumdünya Ərzaq Proqramı |
| ÜST | Ümumdünya Səhiyyə Təşkilatı |

Published by United Nations Office in Azerbaijan
© UN Office Azerbaijan 2017
All rights reserved. The contents of this publication may be freely used and copied for educational and other non-commercial purposes, provided that any such reproduction is accompanied by an acknowledgement of UN Office in Azerbaijan as the source.
ISBN 978-9952-491-03-6
Chief consultant: Fargan Abaszada
Design and Layout: Mozaik Printing and Design

BMT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən nəşr edilib
© BMT-nin Azərbaycandakı Nümayəndəliyi, 2017-ci il
Bütün hüquqlar qorunur. Bu nəşrin məzmunu təhsil və digər qeyri-kommersiya məqsədləri üçün icazə tələb olunmadan o şərtlə istifadə edilə və köçürülə bilər ki, bu cür reproduksiya zamanı BMT-nin Azərbaycandakı Nümayəndəliyinin mənbə kimi göstərilməsi təmin olunsun.
ISBN 978-9952-491-03-6
Baş konsultant: Fərqan Abaszadə
Dizayn və tərtibat: Mozaik Printing and Design

Published by United Nations Office in Azerbaijan
© UN Office Azerbaijan 2017

BMT-nin Azərbaycandakı Nümayəndəliyi tərəfindən nəşr edilib
© BMT-nin Azərbaycandakı Nümayəndəliyi, 2017-ci il